35
Anar Əlizadə
şeir vaxtı



36
Səidə Əfqanqızı
Füzulinin "Su" qəsidəsi

38
Cavid Qədir
Qapı



42
Şəfaqət Cavanşirzadə
Apriori

45
Şəhriyar Seyidoğlu
şeir vaxtı



47
Hikmət Fərzəliyev
Çırpınıram tor içində



48
Ziya Alar
Arzu gəmisi



49
Cahangir Məmmədli
Qadın şeirə yerləşməz...



53
Gülnarə İsrafil
şeir vaxtı

55
...uçmağı özün öyrən

57
Mahmud Məmmədov
şeir vaxtı

58
Ləman Azər
Pandoranın ümidi



65
Qafar ŞÖVQİ
Ver, bu məhəbbətin tozunu silim...

66
Günel İbrahimli
İki kölgə arasında

68
Çinarə Ömray
dərgidə kitab

**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

**Baş redaktor**
Qulu Ağsəs

**Redaksiya heyəti**
Təranə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Rusiya)

**Bədii redaktor**
Ədalət Həsən

Nömrənin redaktoru:
Ulucay Akif

Ünvanı: Az-1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
**Telefon: 498-72-43**
Çapa imzalanıb: 11.07.2016
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib. «Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsində çap olunub.
Sifariş. №84, Tiraj: 300
Qiyməti: 2 man.

**1967-ci ildən çıxır**
**Şəhadətnamə № 238**

**Nömrənin eksperti:**
Qəşəm Nəcəfzadə





**«AZƏRMƏTBUATYAYIMI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**«Ulduz»** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «Mətbuatyayımı» şöbələrinə müraciət etməyiniz kifayətdir.

**«QAYA» MƏTBUAT YAYIMI**

**«Ulduz»** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «QAYA» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**«EKSPRESS» MƏTBUAT YAYIMI**

**«Ulduz»** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «EKSPRESS» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**Jurnalın**

**1 aylıq abunə qiyməti – 2.00 man.**

**6 aylıq abunə qiyməti – 12.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

**440 – 27 – 85**
**440 – 39 – 83**
**440 – 46 – 94**

**564 – 63 – 45**
**598 – 35 – 22**
**556 – 67 – 13**
**564 – 48 – 96**

**437 – 28 – 10**
**408 – 17 – 51**

**nömrəli telefonlara zəng edə bilərlər.**


ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

EKSPERT

# "ULDUZ"UN BUİLKİ ALTINCI DALĞASI



Əjdər OL

Bəri başdan deyim ki, baş redaktor Qulu Ağsəsə minnətdar olaraq "Ulduz"un altıncı sayını ilk cümləsindən son cümləsinə qədər diqqətlə gözdən keçirtdim. Neçə illərdi sevimli jurnalımızı belə başdan-ayağa oxumamışdım. Baş redaktor hər dəfə yaradıcılığın bərkindən-boşundan çıxmış bir yazarı jurnalın növbəti nömrəsinə ekspert seçməklə həm də xoş bir məqsəd güdür; aylığını nöqtəsinə, vergülünə toxunmağa qoymadan oxutdurur.

Saydakı müəlliflərin çoxusunun yaradıcılığına bələdəm, amma burada ilk tanış olduqlarım da var.

Jurnalın ötən sayına ekspertlik edən tanınmış ədəbiyyatçı-professor Nizaməddin Şəmsizadənin (Ekspertə ekspertlik etməyimə baxın!) çağdaş ədəbi prosesdə "Qərb ədəbi-estetik dəyərləri doğma Şərq estetikasını qeyzlə sıxışdırmağa çalışır, lakin Şərq bədii ehkam və ənənələri, ötən əsrlərdə olduğu kimi, yenə də alınmaz mənəviyyat qalası kimidir" deyimi bir həqiqətdir və təəssüf ki, günümüzün konyukturası olaraq qalmaqdadır.

Jurnal şair təqdimatı ilə başladığı üçün poeziya nümunələrini nəzərdən keçirək.

Şeirlər arasında məni özünə daha çox çəkən gənc şair Emin Pirinin "Kölgələr" silsiləsi oldu. Bu şeirlərin havası fərqlidir. Şair şeir qəlibi, intonasiyası içərisində sıxılmır, özünü itirmir, təntimir, düşündüklərini sərbəst ifadə etməyə çalışır. Eminin şeirlərinin bədii predmeti var, bəzi misraları yerinə düşməsə də, onların daranmağa ehtiyaci olsa da, yazdıqları ümumilikdə xoş təsir bağışlayır. "Şaxta babanın burnu" şeirindən misal gətirmək istəyirəm:

Şaxta baba qurduq
həyətdə qardan.
Əlindən gələni etdi hər kəs,
kimisi can verdi,
kimisi nəfəs,
mən də yerkökündən burun düzəltdim.
Ancaq doyunca baxıb
sevinə bilmədik yapdığımıza...
Geyimi kimi
yaşlı bir qadın
yaxınlaşıb fağır-fağır:
olar,
bu yerkökünü
nəvəmə aparım...

Əvvəlcə bu şeirə düzəlişlərimi edirəm; "Kimisi can verdi, kimisi nəfəs" misralarını belə dəyişdirmək olar: "Kimisi can vermək istədi, kimisi nəfəs". Çünki Şaxta babaya nəfəs vermək olmasa da, bunu istəmək poetik məna daşıyır. Daha sonra şeirin "yaxınlaşıb fağır-fağır: olar, bu yerkökünü nəvəmə aparım" hissəsində "yaxınlaşıb fağır-fağır"dan sonra qoyulan qoşa nöqtə yazı variantında başa düşülür, amma kiməsə oxunanda "dedi"nin yeri görünür. Bir də bu şeirdə nöqtə və vergüldən istifadə edilibsə, sonda üç nöqtə əvəzinə sual işarəsi qoyulsa, iş bitmiş olar.

Emin Pirinin o biri şeirləri də yenidir, yumşaq ovqat yaradır, şux misraları adamı çəkib aparır. Amma yenə bir "əmma"sını da deməmək olmur.

O, qrammatik xətalara yol verir. Şair yeni söz yarada bilər, amma, məncə, qrammatik tələblərə cavab verməyə ərinməməlidir.

“Kasıb şairin anasın
ürəyin istəyən qədər
ağlatmağa gözlərin var”

misralarında “anasını” “anasın” şəklinə salınıb sözün “ı”sı yeyilməməlidir. Hər halda şifahi dil başqadır, yazılı dil başqa.

Sayda tanınmış şair İslam Sadığın şeirlərində milli mənəviyyatımıza söykənən nostalji zərif duyğular, Balayar Sadiqin sonetlərində vətən oğullarının qəhrəmanlığının tərənnümündən doğan poetik mənzərə, Əlirza Həsrətin lirik mətnlərindəki ənənəvi yığcamlıq qeyd olunmalıdır. Elşən Əzimin “Göy üzündə barmaq izi” neo-poemasında müəyyən bədii axtarışlar olsa da, “mən”in yorğun ruhu və inamsızlığı ritorik suallara və yersiz adi misralara rəvac verir. Şəfəq Sahibli ilə Rauf Qərib şeirlərində özlərini tapmağa cəhd edirlər.

Vüqar Rahinin qəzəllərinin dili müasirdir. O, əruzu duyur və klassik janrın bəhrlərindən düzgün yararlanır. Bir az meyxanaya meyillidir. İctimai və estetik dəyərlər yaddan çıxanda şair belə beyt yazır:

## Bu sayımızda



3 Nizaməddin Şəmsizadə — “Ulduz”un may sayına baxış


5 Elşən Əzim — özüylə söhbəti və poeması


9 Nisə Rəhimova — Sarmaşığın intiharı


10 Təranə Turan Rəhimli — Sürət qatarından mavi səmaya...

14 Cemil Kavukçu — Tut


17 Günay Səma Şirvan — qürbət şeirləri


19 Vüqar Rahi — qəzəl de ki...


20 İradə Musayeva — İnsan ruhunun yaratdığı üçüncü dünya


26 Aleksandra Akulova — debüt


27 Balayar Sadiq — sonet çələngi

31 Mar Bayciyev — türk eli


41 Dindən əvvəl Sevgi özü Din idi...

43 Sergey Yesenin — tərcümə saatı


46 Şərəf Yılmaz — Konsulun köpəyi

55 İslam Sadıq — şeir vaxtı


58 Orxan İsmayıl — Ən yaxın dost


59 Sevil İşıq — Ölməyimə dəymədin...

60 Səxavət Sahil — Məhəbbətini əbədi heykəl qoyan...


63 Aygün Məmmədzadə — debüt

64 Əlirza Həsrət — şeir vaxtı


65 Leyla Əsədullayeva — Tanqo

66 Nurlan Ağa — Ana hakimiyyəti, yoxsa?..

69 Şəfəq Sahibli — şeir vaxtı

70 Rauf Qərib — Sən gecikmə...


71 Ülviyyə Kərəmqızı — Cənnət səsləri

74 Emin Piri — dərgidə kitab

Bircə mey tərkini acizdi ki,
etsin bu Vüqar.
Arabir qəlbi darıxdıqca
olur ki, yüz atır.

Voronejdə yaşayan soydaşımız Günay Səma Şirvanın şeirləri axtarış mərhələsindədir. İnanırıq ki, maraqlı şeirlər yazacaq. Sevil İşığın sevgi şeirləri isə sadə və səmimidir. Çalışsa, özünü daha mükəmməl idafə edə bilər.

Debütlərini edən Aygün Məmmədzadə, Leyla Əsədullayeva, Ülviyyə Kərəmqızı, Aleksandra Akulova ədəbiyyata xoş gəliblər. Arzu edək ki, onlar uzun, çətin, nəfəs və zəhmət tələb edən söz cəbhəsində duruş gətirsinlər.

Nisə Rəhimova və Orxan İsmayıl ədəbi yaradıcılığa daha ciddi yanaşmalıdırlar.

Jurnalın nəsr hissəsinin çoxu məşhur qırğız yazıçısı Mar Bayciyevin "Oğru" (Nəsibə Əbilova çevirib), türk yazarları Cemil Kavukçunun "Tut" (Cavid Zeynallı çevirib) və Şərəf Yılmazın "Konsulun köpəyi" (Eyvaz Zeynalov çevirib) hekayələrinin payına düşür. Ustad yazıçı Mar Bayciyevin hekayəsi daha təsirli və bədii cəhətdən daha zəngin əsərdir. Hekayədə qırğızların düşüncə tərzi, mənəviyyatı, məişəti, hansı mənəvi dəyərlərə söykəndikləri həzin bir dillə təsvir olunub. Bir-iki xətasını çıxsaq, (məsələn: "suların rəisi" əvəzinə eləcə "suçu", yaxud "baş suçu" işlənə bilərdi) tərcümə uğurludur.

Əgər əsər ürəyəyatandırsa, deməк, tərcüməçinin zəhməti hədər getməyib. Digər iki hekayədə də oxucu marağına səbəb olan məqamlar tapmaq mümkündür.

Jurnalda bir neçə müəllif nisbətən geniş təqdim olunur. Filologiya üzrə fəlsəfə doktoru Təranə Turan Rəhimli yapon yazıçısı Kaci Motociradan danışır. Bu yazıçı Azərbaycanda tanınmadığı üçün yaxşı olardı ki, məqalənin ardınca onun əsərlərindən bir nümunə də veriləydi. Hesab edirəm ki, onda bu xarici müəllif haqqında daha aydın təssəvvür yaranardı.

Səxavət Sahilin İntibah dövrünün böyük sənətkarı Françesko Petrarka haqqında yazdığı məqalə məhşur məhəbbət şairinin həyatı və yaradıcılığı barədə dolğun məlumat verir. Bu yazıdan sonra, hayıf ki, Petrarkanın şeirləri gəlmir.

İndi təkcə türk dünyasında deyil, bütün dünyada ümumtürk tarixinə ehtiraslı bir maraq vardır. Elə buna görə də türk dövlətləri, hökmdarları, sərkərdələri, alimləri və sənətkarları barədə tarixi araşdırmalar aparılır, əsərlər yazılır, filmlər çəkilir, heykəllər qoyulur. Nurlan Ağanın Demet Altınyeleklioğlunun "Kösem Sultan" romanı barədə yazdıqları da bu məqsədə xidmət edir.

Qələm dostumuz Əkbər Qoşalının şerlərindən söz açan Gülayə Şınıxlı yazısını böyük sevgi ilə qələmə alıb. Səmimi təqdimatdır. İradə Musayeva isə Vahid Qazinin "Çöl Qala" povesti haqqında yazdığı məqaləsi ilə bizdə bu əsəri tapıb oxumağa həvəs yaradır.

İstedadlı şair Əlizadə Nurinin tanınmış rus şairi Sergey Yesenindən etdiyi tərcümələr vüsətlidir, tutumludur, dilimizdə doğma şeirimiz kimi səslənir. Əlbəttə, heç bir şairi birə-bir çevirmək mümkün deyil. Bəlkə heç buna ehtiyac da yoxdur. Hayana çevirsən, Sergey Yesenindən Əliağa Kürçaylının, Qoca Xalidin, Əlizadə Nirinin uğurlu tərcümələri bir az \da müəllifin deyil. Əlizadə Nuri Yesenindən tərcümələrini davam etdirməlidir. Şəxsən mən kimisə tərcümə edəndə dilimizin zənginliyini daha dərindən duyuram.

"Ulduz"un bu sayında çap edilən əsərləri ədəbi prosesimizin bu ildəki altıncı dalğası hesab edirəm. Sevimli jurnalımızda həmişə maraqlı əsərlərlə qarşılaşmışıq. Yenə ondan gözləntimiz var və olacaq...





# Ölü kəpənəklər

Elçin TORAN

*Sən niyə ədalətlə ədliyyənin, haqla hüququn arasındakı fərqi mənə izah etməmisən? Niyə?*
***Harper Lee***

Şüşəsi toz basmış, üzərində yağışdan sonra yaranmış çil-çil bulanıq ləkələr... Ucsuz-bucaqsız nöqtələr arasından hərdən-birdən sızan son günəş şüalarına məskən həmin köhnə pəncərə... Çəhrayı pərdəsi yığılaraq divarın hər iki küncündə ilgəklərinə kip şəkildə bağlanılıb. *Kağız xışıltıları eşidilir.* Pərdənin alt hissəsi yerə elə formada tökülüb ki, sanki döşəməyə miskinliklə dolu və nimdaş xatirələrin hopduğu unudulmuş bir tarix yağıb. Tavanın mərkəzində sarı işıqları közərən ortabab lüstr yerində bir qədər əyri dayanır. O lap çoxdan edam edilmiş günahkar bəndə kimi öz ipindən vecsiz-vecsiz sallanırdı.

Çöldəki sarı, qırmızı, palıdı rəngli xəstəlik gəmiləri isə uzaqdan aydın görünən meşə dənizinin üzərində lövbər salmışdı və payızın başqa ölkələrdən qovub gətirdiyi külək dalğalarıyla yırğalanırdı. *Mətbəxdən gələn şüşə cingiltiləri.* Həyətdəki torpaq yolun kənarında gölməçələrə tullanan qurbağalar da suyun üzərində həmişəki görüntünü  get-gedə genişlənən çevrələri yaradırdılar. Banallıq.

Cəh-cəhlərinə bir musiqi kimi xoş münasibət bəslənən quşlar da onlar haqqında mətbuatı bəzəyən şok iddiadan sonra xeyli adiləşmişdilər. Məsələ beləydi ki, onlar əslində insanları feyzyab etmək üçün oxumur, cütləşmək məqsədiylə əks cinsin nümayəndələrini səsləriylə özlərinə cəlb etməyə çalışırdılar. İflasa uğramış eqoizm(!)

Hər şeyə münasibət dəyişsə də, mahiyyəti eyni qalırdı: minillərlə davam edən proses... Tarixin özü də elə təkrarların təkrar-təkrar təkrarlanmasıydı. *Saatın öyrəşilməmiş çıqqıltısı - birinci saniyə, ikinci susur, üçüncüdə yenidən - çıkkk.*

Ətrafda başqa hadisələr də baş verirdi. Məsələn, pəncərədəki rəngli tabloda buludlara sancılmış şiş ucları ara-sıra görünən şam ağacları güclü küləkdə ilantək qıvrılır, yaşıl qamçı kimi ləng-ləng havaya çırpılırdı. Təbiət sanki milyardlarla çürüntünü yeyərək köpmüş yekəqarın varlığıydı və nəfəs alıb-verir, yorğun-yorğun dolub-boşalırdı. Bu məqamda fərqinə varmaq asan olmalıdır; yem sahiblərinin özləri də yemdir.

Son dövrün elmi jurnalları yazırdı ki, alimlər artıq canlı və cansız söhbətləri eləmirlər. Amma pəncərədən çöldə - yerin dərin qatlarında başqa-başqa bitkilərə, heyvan çürüntüləri və tullantılara sarılan bir həyat vardı. Ya da ki, müəmmalı, itmiş şəhərlərlə qucaqlaşan milyonlarla ağac kökləri.

Əlbəttə ki, bu cür mövzularla əlləşən alimlər məsələni yerli-dibli izah edir, tutarlı arqumentlərlə bütün maddi şeylərin mövcudluğunu «mənasızlıq» anlayışına qədər yuvarlaqlaşdırmağa çalışırdılar. *Ara-sıra anlamsız bir mızıltı eşidilir.*

Cansız bildiyimiz şeylərin də müəyyən qıcıqlara reaksiya verməsi... Hər şeyin eyni xammaldan ortaya çıxması... Bütün fərqlərin, əslində, eyniliyin gizli bir təhrifi olması... Nə qədər qəribə görünsə də, uzun zamandır özünü ali mərtəbədə hiss edən insanı da olduğu yerdən götürüb adi bir əşya kimi digər cisimlərin yanına tullamaq ehtiyacı yaranmışdı.

Atası bu cür mülahizələrin dəlisi idi və hazırda qəzet oxuyurdu. Çevirdiyi səhifələrin xışıltısı yağışlı bir gündə uzaqlardan çox zəif eşidilən ildırım səslərinə bənzəyirdi. O bir psixiatrıydı. Arada jurnalist kimi *«Xudbin Gen»*-in bugünkü durumundan, həyatda qalmağa çalışan hər bir canlını eqoizmə təhrik edən məqamlardan ixtisaslaşmış qəzetlərə, jurnallara yazılar göndərirdi.

Evdəki qadın isə dördüncü günüydü ki, işdən sonra mətbəxdə oturur, limonun kəsilmiş hissəsini boşqabdakı şəkər tozunun üzərinə qoysa da, hansı səbəbdən quruduğunu anlamağa çalışırdı. Və romu az-az qurtumladığı üçün balaca şüşə qədəhi tez-tez masadan qaldırıb-endirməli olurdu.

Döşəməyə dirsəklənib qabağında açıq kitab olan evin yeganə oğlunun gözləri pəncərənin yuxarı küncündə tordan sallanmış iki ölü kəpənəyə zillənmişdi. Hansısa musiqi beynində bir val kimi fırlanır - ara-sıra mızıltıya çevrilirdi. Məsafə bir qədər uzaq olduğu üçün torun gözlə sezilməməyi kəpənəkləri görünməz iplərdən asılı qalmış marionetlərə bənzədirdi. O birdən öz-özünə düşündü: «Görəsən, ordakı kəpənəklərin içində adam var?»

Əslində, bu tipli suallar onu hər zaman düşündürmüşdü və hər dəfə yadına düşəndə öz daxilində tanış bir hissin baş qaldırdığını, gözlərinin önündə duman kimi süzülən boşluğun peyda olub tez də dağıldığını duyurdu; həmişə üst-üstə yığaraq uzun bir bina düzəltməyə çalışdığı domino daşları kimi. Sanki nə isə yerinə oturmamışdı, sanki nəyisə yenə səhv etmişdi... Əslində isə səhvlər yox idi - səhvlər, sadəcə, düzlərin olmamağıydı. Necə ki, soyuq yox idi, soyuq, sadəcə, istinin olmamağıydı.

Növbəti domino daşını çox dəqiqliklə, digərinin üstünə qoymağa çalışırmış kimi yerindən sıçrayıb asta-asta pəncərənin məhəccərinə dırmaşdı. Beynində canlandırdığı həmin o domino binasını uçurmamaq üçün çox ehtiyatla balaca, nazik barmaqlarını kəpənəklərin qanadlarına toxundurmağa başladı. Hər toxunuşda ölü kəpənəklər sürətlə başlayıb yavaş-yavaş öləziyən fiziki rəqslərlə yellənir və üstlərinə düşən gur işıqdan divara yapışmış öz qara kölgələrində əriyib biçimlərini itirirdilər. Bəlkə də, bu dünyada hər şey öz kölgəsində yox olmalı, öz kölgəsi ilə təhrif edilməliydi. Çünki işıq da həqiqət kimi eyni bir obyekt olduğundan daha çox formada göstərə, onun öz biçimi altında gizlənmiş əsl simasını hamının ayaqları altına ata bilər.

Və onsuz da sənin kölgəni özündən başqa hamı tapdalayacaq, sən isə bunu bacarmayacaqsan; doğma və sənə məxsus olduğu üçün yox, - sadəcə, bu məsələdə acizsən.

Lap küncə qısılmış hörümçək yad obyektin barmaq hərəkətlərinə və hörgüsünün titrəyişlərinə görünməz ipindən asıla-asıla aşağıya sürüşərək reaksiya verdi. Oğlanın bütün fikri-zikri kəpənəklərdə qaldığı üçün hörümçəyin bu cür aradan çıxmasına qeyri-iradi şərait yaratmışdı. Sağ əliylə sarımtıl kəpənəyin qanadından tutub gözlərinə yaxınlaşdıran oğlan onun xırdalıqlarına nəzər salmağa başlamışdı. Kəpənək iki quru yarpağa yapışdırılmış soxulcana oxşayırdı. Ölsə də, gözləri insanlardan fərqli olaraq həmişə açıq qalacaq bu varlığa oğlanın nədənsə yazığı gəldi və sol əlini açıb kəpənəyi ovcuna qoydu. Bu zaman baş və işarət barmağı toxunduğu qanadın üzərində şəffaf boşluqlar yaratdı. Parıldayan rəngli toz əlinin dərisinə hopub oğlanın müvəqqəti bir parçasına çevrildi. Növbəti ağ rəngli, qara xallı kəpənəyi də götürüb ovcuna qoydu və astaca döşəməyə atılıb kitabının yanında yerini rahatladı. İndi o bayaqdan bəri beynində fırlanan sualına cavab tapmağa çalışacaqdı. Sonsuz səbir tələb edən sonrakı domino daşlarını üst-üstə yığmağa davam edəcəkdi.

O, əvvəlcə, sarımtıl kəpənəyin quru qanadlarını qopartdı. Qanadlardan bəzi parçalar ovulub döşəməyə töküldü. Daha sonra oğlan çox böyük həvəslə onun ayaqlarını qırdı. Əlindəki kəpənəyin başını zərgər dəqiqliyiylə bədənindən elə ayırmışdı ki, gilyotinlər bu cür işləyə bilməzdi. Diddiyi həşərat quru olduğu üçün elə də iyrənc görünmür, asanlıqla hissələrə parçalanırdı. Xırçıldaya-xırçıldaya artıq tanınmaz hala düşən bu həşəratı kəpənəkdən çox ovulmuş qara kömürə bənzətmək olardı. Xalçanın üstündən götürdüyü diyircəkli qələmlə həmin kəpənəyin geriyə qalan hissələrini də yarıb kənara yığdı. Və ona aydın oldu ki, axtardığı şey bu kəpənəkdə yoxdur.

Sıra ağ rəngli, qara xallıda idi. Eyni üsulla, işindən zövq ala-ala bu kəpənəyi də xırdalamağa başladı. Həşəratın bədənindən ayırdığı ilk ayaqdan qanqarışıq seliyəbənzər tünd maye sallandı. O, deyəsən, yenicə ölmüşdü. Bu kəpənəyin hissələrini də eyni qayda ilə parçalayıb iyrənmədən kənara qalaqladı. Qoparılaraq tanınmaz hala düşən kəpənəklər artıq onun üçün sadəcə bir topa qaraltı idi. Buna baxmayaraq, axtardığını burada da tapmamışdı. Kəpənəklərin içində hansısa bir adam yox idi.

Heç nə hiss etmədən iri açılmış göz bəbəklərini təzəcə parçalanmış kəpənək cəsədlərinin üzərində bir müddət saxladı, sonra əlini xalçaya silib ensiklopediyanı qaldığı yerdən oxumağa davam etdi.

Axşam saatlarının çürümüş sükutlarla ölüb bilinməyən zaman torpaqlarında basdırıldığı həmin taleyüklü payız günü qadının zəif işıqlı mətbəxdən «*Evrikaaa!*» qışqırığı eşidildi. Çox az hallarda evin sakit atmosferini bu cür çılğın, emosional səs dalğaları çulğayırdı. Atası qırmızı kreslosunda ayağını ayağının üstünə aşırmışdı. Səsi eşitdikdən sonra çevrilib optik eynəyinin üstündən gözlərini mətbəxə tərəf zillədi. Donuq və maraq dolu gözlər həmin qışqırığın səbəbini aydınlaşdırmaq həsrətiylə darısqal, açıq qapıya tamaşa edirdi.

Koridor boyu döşəməyə yıxılmış əyri qapı formasındakı işıq özündə get-gedə həcmi böyüyən bir kölgəni qəfil peyda olan qadınla əvəzlədi. Onun saçlarının ucundan başının yuxarı hissələrinə doğru yayılan şabalıdı rəng hiss edilmədən qatı tünd qırmızıya çevrilib yoxa çıxırdı. Və bu onun çöhrəsində xoş bir görüntü, ahəng yaratmışdı. Amma üzünə çökən müəmmalı ifadə bir kəşfçidən daha çox tərəddüd içində qalmış insana işarə etməkdəydi.

Oğlanın gözləri ensiklopediyadakı timsahın sıra dağlar kimi düzülmüş bəyaz dişlərində donsa da, qadının deyəcəklərinə qulaq kəsilmişdi.

- *Sən heç bilirsən, o, şəkər tozu deyil, nədir?!* - bəbəkləri heyrətdən genişlənmiş qadın xüsusi həyəcanla soruşmuşdu. Atası isə baxışlarını xanımın üzərində saxlayıb sınayıcı nəzərlərlə onun öz sualına özünün cavab verməyini gözləmiş və bir müddət beləcə dayanmışdı. Və qarşısındakı cisimdən cavab gəlmişdi:

- *Bu şəkər tozu deyil, bu, adi şüşə qırıntıları və ovulmuş it sümüyüdür!* - sonra qadın başını narazı halda yellədərək hansısa mücərrəd bir obyektə göz süzdürmüşdü.

Atası isə mat-mat onun heyrətinə tamaşa edib birdən-birə ucadan gülməyə başlamış, uzun zaman sonra bu evdən də ətrafa gülüş səsləri səpələnmişdi. Qırmızı kreslosunun üstünə yayılmış bədən gülərkən sonuncu silkələnmələrini də həyata keçirəndən sonra yaşarmış baxışlarını qaldırıb demişdi:

- *Təəccüblü heç nə yoxdur. Nələrin baş verdiyini ikimiz də yaxşı bilirik. Əsas odur ki, hələ heç kim o «şəkər tozu»ndan dilinə vurmayıb.*

Atasının dediklərinə əlavə olaraq öz içində heç bir fikir yürütməyən oğlanın ağlında daha maraqlı məqam var idi. Bayaqdan hiss edirdi ki, nəyisə unudub, ancaq tapa bilmirdi. Axır ki, otağın küncündə boz rəngli televizor altlığına qoyulmuş, hələ paketdən çıxartmadığı üç yeni oyuncağını xatırladı. Ağlına yenə domino daşları gəldi. Növbəti mərtəbələr... Ehtiyatla və təmkinlə görülən iş... Hər şeyi məhv etmək həyəcanı və yaxud qorxusu...

Uşaq oğrun-oğrun həmin oyuncaqları heç bir səs eləmədən götürüb öz otağına sivişdi. İşığı yandırıb çarpayısında oturdu. Əlinə götürdüyü açıq-mavi paketdən çıxardığı oyuncaqlara göz gəzdirməyə başladı.

Oyuncaqlardan biri qonşuluqdakı kişinin sürdüyü tünd şüşəli qara rəngli maşından idi; bunu o dəqiqə tanımış, bəlkə də, içindən həmin o qonşu kişini tapacağına ümid etmişdi. O biri oyuncaq isə düymələrini basanda qabaqcadan hazırlanmış səslər çıxaran işıqlı, sarı radio, digəri isə əlində yekə silah tutmuş tünd xaki paltarlı əsgər idi.

Oğlanın gözlədiyi an yaxınlaşırdı.

O artıq yeni alınmış maşını sökməyə təmkinlə başlamış və öz işinə həyəcanla davam edirdi. Metaldan olan nazik maşın qapılarının hamısını açıq qoymuşdu. Oğlan maşından çıxardığı təkərləri yerə atdı. Atasının illərdən bəri yığdığı alətlərin arasından oğurlayıb siyirtmədə gizlətdiyi balaca tornavida indi əlindəydi. O alətin köməyiylə şrupları fırladır, işinə əngəl olan hissələri oyub dağıdırdı. Yalançı mühərriklərinə kimi sökdüyü sınıq-salxaq maşının içinə diqqətlə baxmağa başlamışdı. Kiçik ət rəngi oturacaqlar, yalançı mühərrikin qara və tamamilə boşalmış yuvası... Və artıq oğlan orada kiminsə olmadığını aşkarlamışdı. Qarşısında hissələrə ayrılmış başqa bir cəsəd var idi - oyuncaq maşın cəsədi. O nədənsə oyuncaq maşınları əsl maşınların balaları olaraq düşünürdü. Qəribəsi o idi ki, gördüyü mənzərədən heç bir təəssüf hissi keçirmirdi - yəni o uşağı öldürməkdən. Bəlkə də, beynindəki binaya həmin o domino daşının əvəzinə başqa birini - daha dəqiq və daha ehtiyatla qoya biləcəyi növbəti daşı düşünürdü.

Sıra radiodaydı. Düymələr bir kənara, balaca işıqlar və kiçik rəngli naqillər bir qırağa səpələnməyə başladı. Boz rəngli pərdəsi olan səs dinamikindəki maqnit yerə düşüb oğlanın sökdüyü maşının qırıq qapısına yapışdı. O hələ ki, nəsə tapmırdı. Bəlkə də, onun üçün ki, biz hər şeyi hissələrə, parçalara, növlərə, müxtəlif nəsnələrə ayıraraq bir bütündən qoparır, onun mahiyyətini öldürürük. Oğlan radionun boşalmış qutusuna baxırdı. Amma yox idi. Bu oyuncaqlarda adam tapa bilmirdi. O, düşüncələrə dalmışdı*: «Bəs onlar necə olur ki, adamsızdır?», «Bəs onlar necə işləyirlər?!», «Radio necə olur ki, öz-özünə danışır?!»...* Sualların əhatəyə aldığı nəzərləri otağın narıncı divarlarında gəzəndən sonra gəlib növbəti oyuncağın üzərində dayandı - artıq sıra əsgərdəydi. Oğlan oyuncağı əlinə alanda bir az tərəddüd etdi: *«Axı bunun özü elə adamdır!»* Ancaq yox... Yenə də fikrindən dönmədi. Bu əsgərin də içində bir adam olmalıydı. *Hər şeyin içində bir adam var!*

Əsgərin silahını dartışdırıb əlindən qopartdı, sonra başındakı şlemi dəmir alətlə yerindən oynatmağa çalışdı. Baş fırlanıb yerindən çıxdı və döşəmədə yuvarlanıb kamodun altında gözdən itidi. Atasının keçən günlərdə əlindən düşüb divanın altına diyirlənən qəpiyə acıqlanması bir anlıq oğlanın yaddaşında canlandı; atası bu zaman *Mörfi* adlı birini də lənətləyirdi. Düşüncələrindən qayıdıb sökdüyü oyuncağın boğazındakı dəlikdən içəriyə baxırdı ki, birdən qadın qışqırığı eşitdi. O bu dəfə fərqli ahəngdə idi; səsinin illərdən bəri özünü büruzə verməyən yeni çalarları peyda olmuşdu.

Otaqdan yad kişi səsləri də gəlməyə başlamışdı. O, əsgər oyuncağını əlində saxlayıb otağının bəyaz, taxta qapısına yönəldi. Onu azca aralayıb baxdı. Kiçik yarıqdan atasının yaxasından tutmuş tanımadığı qara paltarlı bir adam görünürdü. Qəzet paralanıb yerə tökülmüş, qadın divara qısılaraq qorxudan ağzını tutub dayanmışdı. Qara paltarlı adam az keçmədi ki, belindən silah çıxarıb atasının gicgahına dayadı. Gördüklərindən heyrətə gələn qadın yenidən qışqırmaq istəyəndə naməlum silahlı əlindəkini daha bərk formada atasının başına sıxıb qadına - *«Bağırma, yoxsa vuracam!»* - deyə qışqırdı. Hər şey birdən-birə olmuşdu. Oğlan artıq bilirdi ki, qəribə hisslər keçirir. Ancaq heç nə anlamırdı. Bütün bunlar nə məna verirdi? Başa düşmürdü.

Gözləri hirsindən qıpqırmızı olmuş silahlı adam atasından çox əsəbi halda yazılarla bağlı dayanmadan nəsə soruşur, onu silkələyir, ora-bura itələyirdi. Silah atasının gicgahına sürtünür, səsboğucu taxılmış lüləsi nə edəcəyini bilməyən, donub qalmış valideyn təriylə islanırdı. Atası susmuşdu və heç nə demirdi.

Amma fikrində - *«Bunu onların gözü qarşısında etmə!»* - cümləsi fırlanırmış kimi silahlı şəxsin ağzından sözlərlə birlikdə tökülən tüpürcəyə baxırdı. Eynəyi tapdalanıb cilikl ənmiş, ensiklopediyanın üzərinə səpələnmişdi. Sanki qırıntılarla oradakı bütün hərfləri ayrı-ayrılıqda böyütmək, təsvir olunmuş heyvanın gözlərini, dırnaqlarını, boğazını müstəqil bir şey kimi fikirləşmək lazım gəlirdi.

Atası son günlərdə belə bir şeyin baş verəcəyinə əmin idi. Çünki mücərrəd sevgilər həmişə konkret nəsnələri öldürüb. Bəlkə, belə olmamalıydı? Axı o başa düşürdü ki, cəhalət öz başlanğıcını elə müdriklikdən götürür. Bunu çoxdan anlamışdı. Həm də dərk etmişdi ki, qaranlıq həmişə öz kölgəsində gizlənir. Susur və baxırdı. Ölümü və

olumunun arasına niyə bu cür qəribə fikirlərin səpələndiyi də bir anlıq onu duruxdurmuş, bir az da süstləşdirmişdi.

Ancaq bu vaxt qadının silahlıya gözlənilməz hücumu atasının beynini ətrafa səpələyən atəşlə eyni ana təsadüf etdi. Bir nöqtədən fışqıran qan damcıları düşmən üzərinə yağdırılan oxlar kimi divarlara səpələndi. Qırmızı kresloya sıçrayan qanlı və isti ət parçaları oğlanın gözünü yumduğu an soyuq bir kadr kimi havada donub onun yaddaşına yapışdı. Silahlı şəxs atasının həyatına nöqtəni elə onun öz başında qoymuşdu; tüstüləyən, qanlı, qara bir dəlik... O özünü itirməyərək digər atəşi açmağa tələsdi. Gözləri bərələ qalmış qadın özünü ələ almadan onun alnına dayadığı silahdan növbəti gülləni atdı. Qadın zərblə divara dəyib qayıtdı və üzü üstə yerə sərildi. Divanın qırağına ilişib qalmış cansız qolu da asta-asta sürüşüb açıq ensiklopediyanın üzərinə düşdü. Timsahın dişləri qırmızıya boyandı. Hadisələrin bu cür sıralanmasına divara vurulmuş kiçik saat da qoşuldu və zərbədən laxladığı üçün taxta döşəməyə düşüb çiləndi. Qadının qanı tavanın qalın və bəyaz panelinə sıçrayıb yavaş-yavaş süzülməyə başlamışdı ki, qorxudan canına üşütmə düşən oğlan ehtiyatsızlıq edib otağının qapısını möhkəm çırpdı. O tez qaçıb çarpayısının altına girdi. Ürək döyüntülərinin fasiləsizliyi qapıya yaxınlaşan ayaq səslərini dəfələrlə geridə qoyurdu. Əlindəki oyuncağı bərk-bərk sıxıb gözlərindəki yaşın ılıqlığını yanaqlarında duyan oğlan nə edəcəyini bilmirdi. Qapı artıq açılmışdı. Çarpayının altındakı yarıqdan çirkli, bağları kip sıxılmış qara çəkmələr görünürdü. Çəkmələr müstəqil varlıqlar kimi ağır addımlarla yaxınlaşdı. İri cüssəli həmin adam nəyi harada axtaracağını yaxşı bilirdi. Ona görə də əyilib çarpayının altında qorxudan büzüşmüş oğlanı görcək dişlərini ağardıb silahı ona tuşladı: *«Ah, bu balacalar... Həmişə hər şeyi doğru etdiklərinə inanırlar.»* Oğlanın eşitdiyi boğuq xırıltılarla dolu tenor səsdən tükləri biz-biz olmuşdu. Qorxudan gözlərini qıyıb xısın-xısın ağlayır, hıçqırırdı. Ani bir parıltıdan sonra yavaş-yavaş azalan kişi səsi onun üçün əbədi şəkildə əriyib yox olmağa başladı. Dənizə düşmüş bir dəmir kimi asta-asta daha da dərinə, daha da dərinə çökdü. Sanki sonuncu dəfə parlayan işıq ləkəsi həmin o səsi öz parlaqlığında boğub yox etmişdi. Güllənin təsirindən bir qədər də küncə atılmış balaca bədənin açıq qalmış gözləri qarşısında indi bir mənzərə dayanırdı; əlindəki oyuncaq. Ancaq onun da içində hər hansı bir adam gözə dəymirdi...





Emin AKİF

**SIFIR DƏRƏCƏ İSTİ**

Ruhumuzun hərarəti
sıfır dərəcə isti.
Bu gecə inadını
tulla kənara, bəsdi.

Darıxdınsa, zəng elə,
danış bir az yenə də.
Yenə gülüşlərindən
bir dodaq ver mənə də.

Darıxdınsa, zəng elə,
evdə hamı yatıbsa,
balaca qardaşının
xəyalında saydığı
quzu yüzə çatıbsa.

Bir az da qulağıma
qısqanıram, pıçılda.
Bir az da yoxluğunla
odlanıram, pıçılda.

Çıxart sırğalarını,
as qulağından məni....
bir gözündə mən olum,
as dodağından məni.

Bir gözündə yatanlar,
qaç otağından, mənim
otağıma tələs, gəl,
saçlarını yağışlar
yusun, təngnəfəs gəl.

Unut, iki küçəlik
məsafəni, unut sən,
çarpayımın ağında
saçlarını qurut sən.

Bu gecə səni sözsüz
yazım darıxma, darıxma,
bu gecə bədənində
azım darıxma, darıxma.

İçək, sevişək belə
üzü səhərə sarı.
Külək gətirsin qarı
üzü şəhərə sarı.

Tələs pəncərəmizin
ağaranda şüşəsi,
son öpüş payını ver,
qaç darıxmağa doğru.

Tələs gələndə qəfil
sübh azanının səsi,
son öpüş payını ver,
qaç darıxmağa doğru.

Bu gecə göylər yenə
yağışı qarla kəsdi.
Yenə soyuduq, yenə
ruhumuzun hərarəti
sıfır dərəcə isti.

**QULAĞINDA SIRĞA ELƏ SƏSİMİ**

Bir gün fıstıq qabında siqaretlər yurd salar,
bir gün əlüzyuyana su axar gözlərimdən.
Daha günəşdən qabaq üzümə dəyməz əlin,
saçlarının ətrini alaram dizlərimdən.

Divar asılqanında zaman cəllada dönər,
hər gün o zəhrimar şey beynimi qamçılayar,
yoxluğunu səsiylə,
əqrəblərin iyirmi dörd saat hədəsiylə
salar yadıma hər gün.

İstisini itirmiş yastıq da “sən!” dillənər,
toz basmış güldandakı solmuş çiçəklər də sən.
Hər gün çirkli qab-qacaq,
sərxoş olub sındırdığım çərçivəli şəkillər,
boğazımda ilişən dadsız yeməklər də sən.

Bu yol inadkar külək.
Səni axtaran zaman boşa çıxır əllərim,
Təklik üzümə qayıdır sırtıq tüpürcək kimi.
Bu boza dönmüş həyat
tor bağlayıb gözlərimin ucunda
arsız hörümçək kimi.

Ağlımı itirmişəm.
Gah qayıdanda evə bir dəstə gül alıram,
gah da ki, eşidirəm mətbəxdən gülüşünü.
Gah da hərdən telefonda yığıramsa nömrəni
- Bu insan mövcud deyil! İtirdin Günəşini!

Hə, yadıma düşdü axı, nəsə bir söz demişdin,
demişdin ki, bilmək olmur avandımı, tərsimi.
İşdir, bir gün mən olmaram, darıxar qulaqların,
Eşidirsən?
Lazım olar...
Yaxşı-yaxşı qulağında sırğa elə səsimi.

**MÜHARİBƏDƏN MƏNZƏRƏLƏR**

O səhər kor dumana qərq olmuşdu bu şəhər,
kimsəsiziydi hər yer, incimişdi küçələr.

Elə bil ki, kim isə fırçasına batırıb
qan çiləmişdi yerə, bəlkə, rəsm alındı..
O gün kimsə qaraltmışdı yerin gözünü topla.
Sanki kimsə demişdi,
insanların səsini, bəlkə, kəsim, alındı?!
Elə bil ki, şəhəri Allah özü yatırıb.

Oyuna qatmaz heç vaxt qocaları körpələr.
bir-birinin tikdiyi evləri dağıtmaq da,
bir-birinin ən zəif yerinə daş atmaq da
oyuncaqdır, oyuncaq, oyun-müharibələr.

Hardasa böyüklərin oyunu bitməmişdi,
bütün evlərin damı dilənçi köynəyiydi,
pəncərələr şüşəsi olmayan eynəyiydi,
bu şəhərdən qan iyi üççə gün getməmişdi.

O gün poçtalyonları yandırdılar gizlicə,
o gün bütün şəhərin bağladılar gözünü,
o gün minarələrin bomba kəsdi sözünü,
o gün Tanrı özü də diksindi, qorxdu, məncə...

Axı, axı heç zaman
böyükləri oyuna qatmazdılar körpələr.
Keçsə də illər yenə,
oyuncaq-insan canı, oyun-müharibələr.

O səhər kor dumana qərq olmuşdu bu şəhər,
kimsəsiziydi hər yer, incimişdi küçələr.

**DEDİM AXI**

Dedim axı,
bir nəfərlik nəqliyyatam
mən bu ömür yolunda.
Ürəyimdə yer vermişəm,
qeyd elə zəfərini.

Dedim axı,
bu yol bizi sala bilər
əyri-üyrü yollara.
Yaxşı-yaxşı bağla, həyat,
solumda kəmərini.

Dedim axı,
sənin məndə
günəş boyda yerin var.
Sənli isti tropikdir
hər il iqlim qurşağı.

Sən gedəli min il ötüb,
eramızdan sonradır,
indi mənə özgə deyil
min cür intim qurşağı.

Min ildir ki, hamı deyir,
sonu çatıb dünyanın.
Yox olmadım, dağılmadım,
yaralandım, qızcığaz.

Buza döndü sinəmdəki
silsilələr, dənizlər -
o zaman ki, qucağından
aralandım, qızcığaz.

Bundan artıq nə olsun ki,
nə olmalıdır daha,
şirin pişik balasıyla
fərqimiz itdi, itdi.

Bir sığallıq ömrü varmış
sevgimizin, sən demə,
qucağının istisin
məndə unutdun, getdin.

Dedim axı,
qucağının istisin
məndə unutdun, getdin.

# MAYKL K.-nın YAŞANTILARI



Orxan CUVARLI

Con Maksvell Kutzee… Piştaxtanın arxasından təlaşlı və yorğun nəzərimi rəflərə zilləyirəm. Diqqətimi ilk cəlb edən ad olur bu. Ad tanışdır mənə. Müəllif haqqında müsbət rəylər eşitmişəm. Amma yenə də kitabı əlimə alıb vərəqləməyə başlayıram: "Maykl K. -nın həyatı və zəmanəsi". Əla tərtib olunub. Üz qabığına baxıram. Naməlum bir insan yerə sərilib, gözlərini yumub. Ümidsizliyi ifadəsiz və donuq sifətindən hiss olunur.

Vərəqləyirəm, adda-budda səhifələrdə rabitəsiz sözlər ilişir gözümə: "dovşandodaq ", "bağban", "blank", "araba". Kitab almağın ləzzətli məqamı da elə budur – piştaxta arxasından bir-birindən gözəl, rəngbərəng kitablara baxmaq, onları vərəqləmək, vərəqlərin o tanış və qəribə qoxusunu duymaq və tam ayrı, tam yeni bir dünyanı özün üçün kəşf etmək. Tanıtım vərəqinə qayıdıram. Əsərin qısa annotasiyasına baxıram və şübhələrim yox olur…

Con Maksvell Kutzee 1940-cı ildə Cənubi Afrika Respublikasında anadan olub. Son zamanlar Avstraliyada yaşamasına baxmayaraq, uzun illər Amerikada fəaliyyət göstərib. Kutzee bu illər ərzində Buffalo və Çikaqo kimi universitetlərdə mühazirə deyib. Kutzeenin siyasi əqidəsi onun Amerikadakı pedaqoji fəaliyyətinə ciddi şəkildə əngəl olub. Bu əngəllər o qədər şiddətlənib ki, yazıçı 1971-ci ildə Amerikada oturum izni alsa da, Vyetnam müharibəsindəki antiamerikan mövqeyinə görə yaşıl kartına xitam verilib. Təxminən 20 il Keyptaunda yaşadıqdan sonra yenidən Amerikaya geri dönüb. Yazıçı 2006-cı ildə Avstraliya vətəndaşlığını qəbul edib və hazırda orada Adeleida Universitetində çalışır.

Kutzeenin yaradıcılığına nəzər salsaq, onun dini, milli, irqi ayrı-seçkiliyə qarşı həmişə kəskin mövqedə dayandığını, daima əzilən tərəfin yanında olduğunu müşahidə edərik. Onun qəhrəmanları, əsasən, aşağı təbəqənin insanlarıdır. Kutzee yaradıcılığı cəmiyyətin bütün iyrəncliklərinə qarşı yönəlmiş etirazdır, insanlığa səsləyişdir. Kutzeenin qəhrəmanları zəngin zümrənin nümayəndələri deyil. O, heç bir mübaliğə olmadan, sünilikdən uzaq şəkildə öz qəhrəmanını yaradır. Onun qəhrəmanlarının timsalında insani keyfiyyətlər, yüksək dəyərlər görünür. O, obrazlarını yoxdan var edir, kiçik bir detaldan bir romanlıq sujet yaradır. Qəribədir ki, onun qəhrəmanları ilk baxışdan miskin təsir bağışlayır. Bu, yazıçının məharəti nəticəsində meydana gəlmiş qısamüddətli illüziya - bir neçə səhifəlik oxucu yanılmasıdır. Maraqlıdır ki, ilk səhifələrdə miskin görünən obraz, səhifələr keçdikcə fərqli kimliyə bürünür. Oxucunun ilkin gözləntiləri fiaskoya uğrayır. Qeyd edim ki, bu məqam bir yazıçı üçün olduqca vacibdir. Oxucunu çaş-baş salan bu tip ədəbi fəndlər yazıçının yaradıcı imkanlarından xəbər verir. Belə olduğu halda əsər banallıqdan uzaq olur, bir xətt üzrə inkişaf etmir, ara-sıra bu xətlər şaxələnir, sujet zənginləşir. Qeyd etdiyim kimi, Kutzeenin ətə-qana doldurduğu bütün obrazlar oxucu üçün maraqlı tapıntıdır.

Onun "Barbarları gözləyərkən", "Maykl K.-nın həyatı və zəmanəsi", "Uşaqlıq", "Gənclik , "Rüsvayçılıq", "Peterburqlu ustad , "Yavaş adam", "Romançının romanı" kimi bir-birindən gözəl əsərləri var. "Peterburqlu ustad" romanı isə Dostoyevskiyə həsr olunub. Kutzee dəfələrlə etiraf edib ki, Dostoyevskini özünə ustad sayır.

Kutzee mətbuata, ümumiyyətlə, insanlara qapalı biridir. O, dost məclislərində az-az iştirak edir, nadir hallarda gülür. Bu müəyyən qədər Kutzeenin inzivaya çəkilməsi ilə bağlıdır. Hətta Kutzeenin əsl rahib həyatı yaşadığını iddia edənlər də var. O, nadir hallarda avtoqraflı kitablar bağışlayır. İmzalı kitabları auksionlarda yüksək məbləğə satılır… «Maykl K.-nın həyatı və zəmanəsi» (1983), «Rüsvayçılıq» (1999) romanlarına görə

iki dəfə Buker mükafatına layiq görülməsinə baxmayaraq, təqdimat mərasimlərinə qatılmayıb. Ümumiyyətlə, bir yazıçının iki dəfə Buker mükafatına layiq görülməsi halına ədəbi cameədə az rast gəlinir. Con Maksvell Kutzee 2003-cü ildə "yad insanların üzləşdikləri saysız-hesabsız çətinlikləri heyrətamiz müxtəlifliklərlə əks etdirdiyinə görə" Nobel mükafatına layiq görüldü. Kutzee bu dəfə Stokholma gəldi və təqdimat mərasiminə qatıldı, amma... Amma o, çıxış zamanı Nobel tarixində görünməmiş bir nitqlə yaddaşlarda qaldı. Kürsüdə o, ənənəvi çıxış qəlibini paramparça edərək qonaqları yeni romanından bir parça ilə tanış etdi və Robinzon Kruzo sindromundan misallar gətirdi.

Hə, əziz oxucu. Bax belə biridir Kutzee. İndi isə söhbətin məcrasını dəyişək və onun «Maykl K.-nın həyatı və zəmanəsi»nə nəzər salaq.

Maykl K.-nın bəxti əzəldən gətirmir. O, dovşandodaq doğulur, hətta tibb bacısı və anası onu qucağına alanda çimçəşir. Uşaqlıqdan yetimxanada böyüyür. Hamıdan uzaq, özünəqapalı və sakitdir. Bunun müqabilində Maykl K. obrazı çalışqanlıq və zəhmətkeşlik kimi yüksək keyfiyyətlərə malikdir. O, on beş yaşından üçüncü dərəcəli bağban kimi çalışmağa başlayır. Maykl K.-nın anası Anna K. yataq xəstəsi idi. O, Mayklı uşaqlıqda yetimxanaya atsa da, oğlu buna görə heç vaxt anasını sorğu-suala çəkmirdi. Anna K.-nın oğlundan yeganə xahişi ixtisara düşmədən işindən istefa etməsi və onu böyüdüyü qəsəbəyə - Prins Albertə aparması idi. Bunun üçün polisin icazə kağızı lazım idi. Maykl lazımi blankları doldursa da, polisdən kağız gəlmirdi ki, gəlmirdi... Vəziyyət belə olduqda Maykl çox qəribə və ürküdücü xəyallara qapılır. O, anasını əlil arabası ilə Prins Albertəcən aparmaq qərarına gəlir. İlk baxışdan bu cəhd insana vahiməli bir şey kimi görünsə də, Maykl qərarından dönmür. Hətta getməli olduğu uzun yollar, aşmalı olduğu dağlar, keçməli olduğu sərhəd nəzarət məntəqələri - bir sözlə, qarşılaşacağı heç bir çətinlik ona əngəl ola bilmir. Yolda dəfələrlə saxlanılır, geri qayıtmalı olur. Amma o, yenidən cəhd edərək nəzarətçilərin diqqətindən yayına bilir. Yolda Anna K.-nın xəstəliyi şiddətlənir və onlar qəsəbə xəstəxanalarının birində dayanmalı olurlar. Bu xəstəxana Mayklın taleyinin qırılma nöqtəsidi. Çünki o, burda anasını itirir... Anasından ona qalan yeganə şey kiçik bir qutuya sığan bir ovuc kül idi... Cəsədi yandırmışdılar... Məhz bu məqam onun sonrakı ruhi sarsıntılarına təkan verir. Yolda dəfələrlə tutulur, günlərlə ac qalır, normal qidalanmadan məhrum olur və daha nələr, nələr... Amma bunlar da onu əyə, qərarından daşındıra bilmir. O, köksündə gəzdirdiyi anasını – qutudakı bir sıxım külü Prins Albertə gətirir və dəfn edir. Maykl öz üzərinə düşən vəzifəni yerinə yetirmişdi. Bundan sonrakı mərhələ isə xeyli qarışıqdır. O, düşərgəyə göndərilir, ordakı mühiti və bir-birindən faciəvi insan talelərini müşahidə edir, nəhayət, ordan qaçaraq, Prins Albertə qayıdır. Burda əkinçiliklə məşğul olur, torpağın altında özünə sığınacaq düzəldir. Belə çətin bir şəraitdə insan səsi, nəfəsi artıq ona yad idi. O, hətta öz səsindən belə səksənirdi. Onun gündəlik qidası boranı, bitki kökləri, ən yaxşı halda kərtənkələ, həşəratlar olurdu. Romanın bu hissəsindəki Maykl K. bir çox cizgiləri ilə Robinzon Kruzonu xatırladır. Hansı ki Kutzee, Nobel çıxışının bir hissəsini Robinzon Kruzo sindromuna həsr etmişdi...

Maykl K.-nın gizləndiyi sığınacaq tezliklə əsgərlər tərəfindən aşkar edilir. Onun qaçaqları silahla, yeməklə təmin etdiyi iddia olunurdu. Əsərin bu hissəsində üslub dəyişikliyi baş verir. Roman bura qədər üçüncü şəxsin dilindən danışılırdısa, bu hissədən sonra birinci şəxsin dilindən danışılır. Biz Mayklın sonrakı taleyini həkim qeydlərindən öyrənirik. Ələ keçirilən Maykl xəstəxanaya gətirilir. O, bir dəri, bir sümük qalmışdı. Bunun fərqində olan həkimlər onun xəstəliyi haqda belə deyirdilər: normal qidalanmasa, iki, uzağı üç həftəlik ömrü var. Bu, Mayklı heç də qorxutmurdu. O, verilən yeməklərdən birmənalı şəkildə imtina edir, yedikdə belə qusmağa başlayırdı. Həkimlər bir sabah ayıldıqda Mayklı çarpayıda görmürlər. Bəli, o yox idi. Ona yad olan, kəlmə belə kəsmək istəmədiyi insanlardan qaçmışdı. Roman burada bitir. Sonluq hər oxucunun özündən asılıdır. Hər kəs Maykl K.-nın sonrakı taleyini fərqli şəkildə təsəvvür edə bilər. Məsələn, mənə elə gəlir ki, o hələ də dünyanın naməlum bir yerində insanlardan qaçmağa, özünə qapanmağa davam edir. İntihar insan iradəsinin bədənə olan etirazıdır. Mayklın bütün bu etdiklərini də intiharın bir növü kimi qəbul etmək olar. Onun ruhi intiharı cəmiyyətə, özünə, hətta anasının bir ovuc külünə belə etiraz idi...

# Tapılmayan məktub




*edebiyyathaberleri.com saytında rast gəldiyim bu yazını çevirmək qərarına gəldim, müəllifi naməlum olsa da.*

Frans Kafka ölümündən bir il öncə balaca bir qıza məktublar yazmışdı. 1923-cü ildə Almaniyada "Steglitz" parkında gəzərkən o, balaca bir qızla rastlaşmışdı. Oyuncağını itirən qızın göz yaşları qarşısında təslim olan Kafka, o an yeni bir xarakter yaratdı özündə: "oyuncaq poçtalyonu".

Kafka araşdırmaçısı olan Klaus Wagenbach, illərcə parkın çevrəsindəki evləri bir-bir dolaşaraq, qonşularla görüşərək, qəzetlərdə elan verərək balaca qızı tapmağa çalışmışsa da, tapa bilməmişdi. Klaus Wagenbach hələ də parka gedərək XX əsrin yaradıcılarından biri ilə bağlı ən önəmli olan bu məktubların sahibi ilə qarşılaşma ümidini itirməyib axtarmağa davam etməkdədir.

Jordi Sierra i Fabra 2004-cü il 8 may günü "El Pais" qəzetində Cesar Airanın yazdığı "Səyyah oyuncaq" adlı məqaləni oxumuş və Kafkanın balaca qızla yaşadıqlarını hekayələşdirmişdi. Fabra kitabın son səhifəsində hekayəni yazmaqda məqsədini açıqlamış və belə demişdi: "Mən bu günahı etmək üçün özümə icazə verdim və bu məktubları yenidən yazdım. Yarımçıq qalan hekayəni tamamladım. Təxəyyülün məhsulu olan bir final yaratdım. Gerçək bu və ya digər ola bilər. Bunun o qədər də önəmli olduğunu sanmıram. Hadisənin özü o qədər gözəldir ki, geridə qalan heç bir detalın önəmi qalmır, əslində. Tək bildiyim şey: o məktublar mənim yaratdığımdan daha mükəmməldir.

1947-ci il 26 iyulda Barselonada doğulan Jordi Sierra i Fabra uşaqlığından yazar olmaq istəyib. Ailəsi bu işdə gələcək görmədiyi üçün onu dəstəkləməsə də, Fabra bu istəyindən əl çəkməmiş və "ispan uşaq və gənclik ədəbiyyatı"nın ən çox oxunan, ən bacarıqlı yazarlarından birinə çevrilmişdi. Fabranın həyatda ikinci sevdiyi şey musiqi idi. O,70-ci illərdə "Disco express" adlı musiqi dərgisində musiqi tənqidi ilə məşğul olmuş,məşhur musiqiçilərlə dünyanı dolaşmışdı. Daha sonra musiqi antologiyası, rok musiqisinin tarixi kitabları,"Beatles"lüğəti kimi kitablar dərc edib satış rekorduna imza atmışdır. "Uşaq və gənclik ədəbiyyatı" kitabları Hollandiya, Yunanıstan, Yaponiya, Bolqarıstan, Fransa və Almaniya kimi ölkələrdə dərc olunur.

Fabra, "Kafka və səyyah oyuncaq" kitabı ilə 2009-cu ildə "Protagonista Jove" mükafatına 2-ci dəfə layiq görülür. 2010-cu ildə Peruda teatr səhnəsində tamaşaya qoyulan "Kafka və səyyah oyuncaq" həmin il Madriddə də səhnələşdirilir. 2013- cü ildə isə Fransa səhnəsində tamaşaya qoyulur. 2011-2012-ci illərdə Banskdan "Tanttaka"teatrı,Galiçyadan "Emedous" teatrı və "Katalan Albena" teatrı bu əsəri yeni versiyada tamaşaya qoyaraq bütün İspaniyanı dolaşır.

Fabra 2012-ci ildə sosial və mədəni çalarına görə, "Cervantes Chico priz"ə layiq görülür. 2013-cü ildə "Amerika uşaq və gənclik" mükafatı alır. Beləliklə, Kafkanın həqiqətən yazdığı,amma balaca bir qızda qalıb heç bir zaman tapılmayan məktubları Jordi Sierra i Fabranın qələmində həyat tapır.

# Kafka və səyyah oyuncaq



Hekayəyə görə, günün birində Frans Kafka parkda gəzərkən balaca bir qızla rastlaşır. Qız ağlayırmış. Gəlinciyini itiribmiş və bu, onu olduqca çox üzmüşdü. Kafka gəlinciyi onun yerinə axtarmağı təklif etmiş və ertəsi gün eyni nöqtədə görüşmək şərtiylə sözləşmişlər. Gəlinciyi tapmadığı halda Kafka balaca qıza gəlinciyin dilindən bir məktub yazmış və görüşəndə ona oxumuşdu. "Lütfən mənim üçün kədərlənmə, dünyanı görmək üçün uzun bir səyahətə çıxdım. Sənə başıma gələnləri danışacam."

Bu, bir çox məktubun ilkiymiş. Kafka balaca qızla hər görüşəndə gəlinciyin xəyali macəralarını diqqətlə yazdığı məktublardan ona oxumuşdu.

Beləliklə, gün gəlmiş, görüşmələr artıq sona çatmışdı. Kafka son görüşmədə balaca qıza bir gəlincik gətirmişdi. Balaca qız, əslində, olduqca fərqli olan gəlinciyə təəccüblə baxaraq donub qalmışdı. Gəlinciyə ilişdirilmiş bir not balaca qızın təəccübünü azaltmışdı: "Səyahət məni çox dəyişdirdi".

Uzun illərdən sonra artıq yetkin olmuş balaca qız, gözü kimi baxdığı gəlinciyində, gözündən qaçırtdığı çatın içinə sıxışdırılmış bir məktub tapır. Məktubda qısaca belə yazılmışdı: "Sevdiyin hər şeyi tez, ya gec itirəcəksən, amma axırda sevgi başqa bir surətdə geri dönəcək".

Tərcümə etdi:
**Dəniz PƏNAHOVA**



# ƏDƏBİYYAT VƏ FƏLSƏFƏNİN "SUQOVUŞAN"I - KAMYUNUN ABSURD METAFİZİKASI

Ağalar QƏRİBOV

"Bu gün anam öldü. Bəlkə də, dünən, bilmirəm" - bu fikirlər 1999-cu ildə "Le Monde" qəzeti tərəfindən açıqlanan "XX yüzilliyin 100 kitabı" siyahısına başçılıq edən, ekzistensial fəlsəfənin və bədii ədəbiyyatın ümumbəşəri irsinin ən möhtəşəm abidələrindən olan "Yad" əsərinin ilk cümlələridir.

Amma əbədiyyət üçün yaşamış dahilər siyahısına daxil olan Sren Kyerkeqorun mətnləri, zirvəsi, ağır artilleriyası isə Alber Kamyunun yaradıcılığı hesab edilən ekzistensializm özünəqədərki bütün konsepsiyalardan fərqli olaraq universal diapazonu və bütün dövrlər üçün aktual problematikası ilə seçilir.

Yaspersin, Haydeggerin simasında öz fəlsəfi konsepsiyasını təqdim edən ekzistensializm A.Kamyu və J.Sartrın yazı sənətinin zirvəsi hesab edilə biləcək mətnləri ilə ilkin təəssüratın aberrasiya olması fikrini formalaşdırdı. Adı çəkilən iki mütəfəkkirin dostluğu onların fəlsəfi baxış bucaqlarında yaxınlaşmalara səbəb olsa da, "Xoşbəxt ölüm" və ya "Ürəkbulanma"nı müəllifin kim olmasından xəbərdar olmadan mütaliə edərək də yazının kimə aid olmasını müəyyən etmək mümkündür.

Hər şey 1913-cü ilin 7 noyabrında Tanrının unutduğu Mondovi adlı ərazidə bir daha bitməmək üçün başlandı. Məhz burada yerləşən "San-Pol" fermasında dünya onun haqqında formalaşmış bütün fikirləri, məlum olan bütün doğmaları rədd edərək yeni mahiyyətdən, əsl həyatdan bəhs edən yeni sakinini qarşıladı. Bir yaşında ikən atasını itirən, xidmətçilik edərək yeganə övladını yaşatmaq istəyən ananın himayəsində olan bu bədəncə cılız oğlan uşağının nə vaxtsa fikir nəhəngi olacağını, çətin ki, kim isə təxmin edə bilərdi.

Məşəqqətli uşaqlıq və yeniyetməlik illərindən sonra Əlcəzair Universitetinin fəlsəfə fakültəsinə daxil olan Kamyu tarix, siyasət, teatr, incəsənət, ədəbiyyatla çox dərindən maraqlanırdı. Hələ tələbəlik illərindən etibarən yalnız qələmi ilə deyil, bütün varlığıyla faşizmə qarşı mübarizəyə köklənmişdi. Ədəbiyyat, yoxsa fəlsəfə? Onun yazdığı məqalələr, nəşr etdirdiyi esselər bədii təsvir və ifadə vasitələri ilə o dərəcədə mükəmməl təchiz edilmişdilər ki, bu mətnlərin fəlsəfi mahiyyəti ədəbiyyatda itib-batmadan öz unikallığını saxlamağı bacarırdı. Gənc əlcəzairli oğlanı dünyanın sevimlisinə çevirən də məhz bu idi. "Roman - idrak instrumentidir" deyən moralist Kamyu bu sözləri ilə bədii ədəbiyyatın, şüur qatında nə qədər mühüm əhəmiyyət kəsb etdiyini ifadə etməyə çalışırdı.

Bəs, ümumiyyətlə, absurd metafizikası nəyi ifadə edirdi? Kamyunun ekzistensializm fəlsəfəsi çərçivəsində yaratdığı, lakin onunla bir əlaqəsi olmadığını iddia etdiyi sistemi hansı mahiyyət kəsb edirdi?

Hələ tələbəlik illərində Dostoyevskini, Nitsşeni, Freydi, Malronu, Yaspersi dərindən öyrənən gənc Alber sevimli filosof və yazıçılarının gözü ilə dünyaya baxışını formalaşdırır və müasir insan antropologiyasını dərk etməyə çalışır. Kamyu belə qənaətə gəlir ki, Tanrı yoxdur, hər insan, hər fərd özünün Tanrısıdır. Tanrının olmadığı təqdir və şəraitdə isə insanın həyata məna qatmaq üçün etdiyi hər şey absurddur. Əgər insan sahib olduğu həqiqətlə xoşbəxt deyilsə, onun nələrəsə əl ataraq həyata əlavə məzmun yükləməyə çalışması mahiyyətdən yayınmadır. Məhz bu səbəbdən insanı cavabı maraqlandıran əsas sual "Niyə intihar etməməliyəm?" olmalıdır. Kamyunun fikrincə, absurd həyat yalnız ölümlə məzmuna, mənaya qovuşa bilər.

Haqqında bəhs edilən ideyalar yazıçının "Xoşbəxt ölüm", "Kaliqula", "Sizif haqqında mif", "Çöküş", "Fövqəladə vəziyyət", "Anlaşılmazlıq", "Taun" kimi əsərlərinin ana xəttini təşkil edir.

Doğrudur, XX yüzilliyin digər fikir nəhəngi olan Sartr da öz yaradıcılığında ədəbiyyatla fəlsəfəni vəhdətdə təsvir edə bilirdi. Lakin bədii ədəbiyyatda ekzistensializm böyük tamaşa salonunun yalnız tutulmuş iki qoltuğunun aid olduğu fransız məktəbi ilə təmsil olunmur: Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə", F.Dostoyevskinin "Ölü evdən qeydlər", N.Sarrotun "Naməlumun portreti", V.Pelevinin "Çapayev və boşluq", V.Bıkovun "Sotnikov", A.Platonovun "Kotlovan" kimi əsərləri də bu siyahının ən mühüm əsərləri sırasına daxildirlər.

Ümumiyyətlə, ekzistensializmi ədəbiyyat üçün doğma edən nədir? Azadlıq, seçim, intuisiya, qorxu, absurd, ölüm kimi nüansların onun açar anlayışları olması və mövcudluğun, mahiyyətin insan təbiəti mövqeyindən şərh edilməsi imkanı. Məgər hər yazıçı öz əsərində daxili dünyasını insanı maraqlandıran ən ümdə suallara cavab verə bilmək üçün işıqlandırmırmı? Məgər ən möhtəşəm əsərlər bu məsələnin öhdəsindən ustalıqla gəlməyi bacaran dahilərin qələmindən çıxmayıbmı? "Hər kəs bilir ki, həyat yaşamaq zəhmətinə dəyməyən bir şeydir, əslində 30, ya da 70 yaşında ölməyin fərqli olmadığını mən də bilirdim, çünki hər iki halda çox təbii olaraq başqaları yenə yaşayacaqlar və bu minillərlə davam edəcək..." fikirlərini Kamyu bizə bəxş etməsəydi, müasir nihilizmin absurd xarakterini daha səhih şəkildə təsəvvür edə bilərdikmi?!

XX əsr ədəbiyyatında ən mühüm cərəyan, heç şübhəsiz, ekzistensializmdir, XXI əsrdə onun yerini almağa çalışan postmodernizm və onun postinsanı isə postamenti ekzistensializm olan muzey eksponatıdır. Heç şübhəsiz, özünü qürubdan qorumaq üçün ədəbiyyata sığınan fəlsəfi təlimlər mövcudluq fəlsəfəsi və ya fəlsəfənin, həyatın, "niyə intihar etməməliyik?" fikrinin mövcudluğu kimi məsələləri araşdıran təlimlə müqayisə edilə bilməz. Çünki ekzistensializm ədəbiyyatın əbədiyyətidir!

Gözəl ifadədir, elə deyilmi? Hərçənd ki, Kamyudan bəhs ediriksə, onun hər vəziyyət üçün daha uyğun bir söz demiş olması ehtimalını mütləq şəkildə nəzərə almaq lazımdır. Böyük mütəfəkkir ədəbiyyatın fəlsəfə ilə nisbətini belə ifadə edir: "Filosof olmaq istəyirsənsə, roman yaz. Çünki böyük romançılar filosoflardır".





Ceyhunə MEHMANQIZI

**DEYİRLƏR Kİ...**

Məsafələr yük olubmuş ürəyinə,
Deyirlər ki, gecə-gündüz içirsənmiş.
Dodağına düyünləyib siqareti,
mənsizliyi ciyərinə çəkirsənmiş.

Daş qəlbindən bir parça ət asılırmış,
dağ qürurun əriyirmiş qram-qram.
Deyirlər ki, bu dünyanın bir küncündə
mən səninlə evdə yaşayıram...

Deyirlər ki, yaddaşına qırış düşüb,
xatirələr üstü-başı toz içində.
Deyirlər ki, uzaqlaşıb dost-tanışdan,
saatlarca danışırsan öz içində...

Deyirlər ki, üşüyəndə qəm qalayıb,
ürəyini «od yeri»tək çatırsanmış,
Deyirlər, tavana şəklimi döyüb,
gecələri gözüaçıq yatırsanmış...

Deyirlər ki, doğulmayan körpəmizi,
gözlərinin beşiyində uyudursan.
Deyirlər ki, itirirsən yaddaşını,
deyirlər ki, məni belə unudursan.

* * *

Anlaya bilmədin, duya bilmədin
Mənim gözlərimdə öz dəyərini.
Mən heç deməsəm də, guya bilmədin,
Kimsə tutmayacaq sənin yerini.

Kimin xəyalında qonaqsan indi,
Kimin yuxusunu qarışdırırsan?
Məndən qopardığın gülüşləri, de,
Kimin cöhrəsinə yaraşdırırsan?

Söylə xəyalına, çıxsın evimdən,
Bu qədər suçuyla belə baxmasın.
Bəxtimin gözünə kül üfürmüşəm,
Gözünün ucuyla belə baxmasın.

Səndin həyatımın sütun, dirəyi,
Sənsiz bu dünyanı, de, neyləyərəm?
Səndən özgəsini sevən ürəyi
Atıb balıqlara yem eyləyərəm.
Sən elə bilirsən, yaşayıram mən?

Adın düyünlənir dodaqlarımda,
Dilimdə, sözümdə hecalanırsan.
Gecə yuxularda tapıram səni,
Səhər xəyalımda parçalanırsan.

Elə vuruşuram özüm özümlə,
Sinəmə çəkilən dağ oluram mən.
Hər gecə üz-üzə durub ölümlə,
hər gün sənsizliklə doğuluram mən.

Bütün əzabların yükün çəkməyə,
Demə, ürək adlı tərəzi varmış.
Bu dünya qəsdimə dayanıb sanki,
Həyatın mənimlə qərəzi varmış.

Deyirsən, sənin də ağırdır yükün,
Bu ki sənsizliyi daşımaq deyil.
Sən elə bilirsən, yaşayıram mən,
Nəfəs alıb-vermək yaşamaq deyil.

**AYRILIQ**

Sənin ürəyini niyə doğrayır
Mənim ürəyimin daş qırıqları?
Mənə elə gəlir, rəqib yaradıb
Yaradan özünə ayrılıqları...

Dənizlər göylərin gözündən düşüb,
Baxsana göylərin gözünə, bir bax.
Bəlkə, ayrılığın özüdür deyə,
Gecələri uzun yaradıb Allah!

Yerdə ayrılığın fəslidir payız,
Göylərin yeddinci qatı ayrılıq!
Bu da ayrılığın coğrafiyası,
Bütün ölkələrin adı -Ayrılıq!



# DİLƏNÇİNİN BİR GÜNÜ

Yadigar ƏLƏKBƏROV

- Ana! Ana, sən yatmısan? Aç gözlərini, oyan! Biz axı acıq. Oyan, ana! Karl və mən acmışıq axı! Oyan, ana! Yatma!

Balaca qızcığaz dayanmadan oturduğu yerdə yuxuya getmiş anasını tərpədirdi. Bacısının yanında ondan kiçik qardaşı ağlayırdı. Mariya uşaqlarını eşidirdi, ancaq nə cavab verəcəyini bilmirdi. Qızının səsi sanki başqa dünyadan gəlirdi, oğlunun ağlamasını da çox zəif eşidirdi. Ananın otuz yaşı var idı, adətən həyatın bu anı insan üçün ən gözəl dövr olur, çünki o hələ nə gəncliyinin təravətini itirir, nə də yaşlılığı hiss olunur. Ancaq iki uşaqla tək qalmış ana məşəqqət və əzablar içərisində sürətlə qocalırdı. Alnında qırışlar əmələ gəlmişdi, qısa kəsilmiş qara saçları ağarmağa başlamış, gözlərinin altında yuxusuzluqdan ləkələr yaranmışdı.

"Hardasan, Henri? Uşaqlarımız acdır. Bu qədər lazım olduğun halda yanımda yoxsan. Kim bilir, başına nə gəlib? Bəlkə, artıq çoxdan səni bir müsəlman qılıncı öldürüb və bədənin müqəddəs torpaqlarda çürüyür. Bəlkə də, dənizdə tufana düşüb balıqlara yem olmusan. Əgər belədirsə, o zaman sən İlahi səltənətin sakinisən. Yəqin, olduğun yer yaxşıdır ki, qayıtmaq istəmirsən. Ancaq niyə məni və uşaqları özünlə aparmadın? Bəlkə, bizi unutmusan və verdiyin vədə xilaf çıxmısan? O zaman bunu bil ki, qiyamət günü səndən Tanrıya şikayət edəcəm".

Mariya həyat yoldaşı barədə düşünərkən, onunla sağollaşdığı günü xatırlayırdı. Henri başqa kasıblar kimi silahlanaraq ümid ardınca Müqəddəs Torpaqlara doğru gedənlərə qoşuldu. Birinci Xaç yürüşünün başlandığı gün həm iştirakçıların, həm də onlarla vidalaşanların yaddaşında əbədi olaraq qalmışdı. Həmin səhər hava tutqun və soyuq idi. Səmada yığılan buludlar həyatlarından bezərək Fələstinə ümid əldə etmək üçün yola düşən səlibçilərə sanki ağlamağa hazırlaşırdı. Əsgərlər şəhərin kənarında yığışmışdılar. Onlar da buludların narahatlığını hiss edib yaxınları ilə vidalaşmağa tələsirdilər. İlk səlib yürüşünün iştirakçılarının çoxu ömründə müharibədə iştirak etməmişdi və həmin an əsgərləri ruhlandıran yalnız imanın gücü və yeni həyat arzusu idi. Vidalaşma mərasimində ilk olaraq şəhərin yepiskopu danışmağa başladı:

- Səlibçilər! Tanrı sizə böyük şərəf nəsib etmişdir! Bu gün sizlər Müqəddəs Torpaqları kafir müsəlmanların əsarətindən azad etmək üçün yola düşürsünüz. Yol boyu sizi gözləyən çətinliklərdən qorxmayın və ölümdən çəkinməyin. Mən sizləri İlahi səltənətlə müjdələyirəm. Bunu unutmayın ki, Yerusəlim mütləq azad olmalıdır və bu yolda həlak olan hər kəsin günahları artıq bağışlanmışdır, çünki sizlər Tanrı naminə vuruşanlarsız.

Yepiskopun hər sözü Mariyanın yadında qalmışdı, lakin başqalarından fərqli olaraq o, ərinin getməsini istəmirdi, ancaq bu barədə açıq danışa bilməzdi, çünki kilsə onu kafir elan edib, edama məhkum edə bilərdi. Yalnız Henri ilə vidalaşanda Mariya ərindən xahiş etdi ki, yolun

bütün çətinliklərinə baxmayaraq, onları unutmasın və sağ-salamat evə qayıtsın.

- Mariya, mən Fələstinə ümid ardınca gedirəm. Bu, Tanrının iradəsidir. Dörd gün əvvəl sən Roma Papası II Urbanın sözlərini özün eşitdin. Biz Yerusəlimi qanımız bahasına olsa belə, kafirlərdən azad edəndən sonra mən mütləq geri qayıdacağam. Narahat olma, başıma nə gəlsə də, sizi unutmayacağam. Tanrı bizimlədir. Mariya cavabında boynundakı xaçı çıxararaq ərinin boynundan asdı və dedi:

- Get ümidinin ardınca. Bu yolda dualarım səninlə olacaq.

- Mən mütləq qayıdacağam və Yerusəlim torpağının bir hissəsini özümlə gətirəcəm, - deyərək, Henri beş yaşlı qızı Qrettanın və üç yaşlı Karlın üzündən öpdü.

Ərinin çoxdan unudulmuş səsi o qədər yaxın səsləndi ki, qadına bir anlıq elə gəldi ki, sanki onlar heç vaxt vidalaşmayıblar. Bu zaman qapının döyülməsi onu fikirlərindən ayırdı.

- Mariya! Ay qız, Mariya! Məni eşitmirsən? Cavab ver də! Aç qapını! Səs Mariyaya tanış gəldi. O, bir az düşünüb, ayağa qalxdı və qapını açdı. Gələn qonşusu xanım Elizabet idi. Bu, 60 yaşlı tək yaşayan qadın idi ki, tez-tez Mariyagilə gəldi. On il əvvəl onun başqa şəhərdə yaşayan qızı uşaqları ilə xəstəlikdən ölmüşdü və həmin vaxtdan Mariyanın yaxınlarını itirmiş qonşusuna yazığı gəlirdi və hər zaman onunla xoş davranırdı.

- Qızım, məgər eşitmirsən ki, uşaqların ağlayır? Niyə qapını gec açdın? - narazı halda Elizabet deyinməyə başladı.

- Məgər onlar ağlayırdılar? – Mariya təəccüblü və bir az əsəbi soruşdu. Axı onlar həmişə sakitdirlər. Yəqin, siz səhv eşitmisiniz. Qretta və Karl heç vaxt ağlamır.

- Yaxşı, qızım, mən sadəcə onların səsini eşitdim, ona görə qapını döydüm. Yeri gəlmişkən, mən indi kilsəyə gedirəm. Bu gün yepiskopun özü moizə edəcək. Mənimlə getmək istəmirsən?

- Xeyr, xanım Elizabet. Evdə işlərim var. Bugünkü moizəni buraxmalı olacağam, - deyərək Mariya qapını örtdü. Onun bu hərəkəti qonşunun xoşuna gəlmədi. “Buna bax hələ. Artıq neçənci moizəni buraxmaqdan əlavə, üstəlik uşaqlarını da acından ağladır. Mən əminəm ki, məhz Qretta ilə Karlın səsini eşidirdim. Yazıq balalar. Necə də ürəyi dözür e göz yaşlarına. Axı nəyə görə bu daş qəlbli ana kilsənin yardımından istifadə etmək istəmir? Bu qürur axı nəyə lazımdır? Yepiskopdan üz çevirmək Tanrıya qarşı çıxmaqdır. Həə. İndi başa düşdüm. Deyəsən, Mariya kafirdir və bəlkə də cadugərdir ki, moizələrə gəlmir. Axı qəlbini şeytana satan birisi necə müqəddəs yerə daxil ola bilər? Bu barədə mütləq yepiskopla danışmaq lazımdır, qoy bu qadınla maraqlansın. Uşaqları da əlindən alıb kilsənin himayəsinə vermək lazımdır ki, Qretta və Karl bu şeytana satılmışdan uzaq olsunlar,” - düşünərək, xanım Elizabet hər ehtimala qarşı xaç işarəsi çevirib kilsəyə tələsdi.

Bu zamansa Mariyanı ağlamaq tutmuşdu, çünki artıq ikinci dəfə idi ki, uşaqları aclıqdan ağlayırdılar, o isə heç nə edə bilmirdi. O, döşəmədə oturub başını qoluna söykəyərək nə edəcəyini düşünür və Tanrıya şikayətlənirdi.

“Sən ədalətsizsən, Tanrı. Hardadı sənin rəhmin? Ərimi əlimdən almaqdamı, yoxsa uşaqlarımı ac qoymaqda? Niyə Karl və Qretta əzabla böyüməli, yepiskop və qraf uşaqları isə kef içində yaşamalıdı? Övladlarımın başqalarından nəyi əskikdir? Daha yorulmuşam, ey məni yaradan. Gələcəyə olan ümidsizlik və inamsızlıqdan bezmişəm, Tanrım. Hərdən çıxılmazlıqdan özümü öldürmək istəyirəm, ancaq bacarmıram. Bu dəhşətli günahı edərək, ölmək məni qorxutmur və əksinə, çarəsizlikdən yeganə çıxış yolu kimi görünür. Hərdən istəyirəm, bunu edəm, ancaq cəsarətim çatmır. Ölümə doğru olan son addımdan uşaqlarımın aclıqdan məhv olacağı fikri məni saxlayıb. Axı mən nə edim? Bu şəhərdə tək qadın nə qədər işləməlidir ki, evinə çörək qazana bilsin? Karl və Qretta olmasaydı, çoxdan bir yol tapıb özümü öldürərdim. Axı kimə lazımam? Onsuz da həyatım bir kölgə kimidir və necə qəribədir ki, yaratdığın bu dünyada mənim kimisinə yer tapılmır. Bilirəm, sözlərimi və fikirlərimi bəyənmirsən, ancaq xahiş edirəm, bəndəni qınama, İlahi. Səndən istədiyim yalnız azca xoşbəxtlikdir. Xahiş edirəm, əgər ərim hələ sağdırsa, onu bizə qaytar ki, Henri ilə bərabər ailəmizin işıqlı günləri geri dönsün”.

Ürəyində şikayətlənərək, Mariya ağlamağa davam edirdi. Birdən o xatırladı ki, övladları hələ də acdılar və buna görə də göz yaşlarını silib ayağa qalxdı, sonra isə uşaqlarının olduğu otağa keçdi. Karl köhnə çarpayıda uzanıb yuxuya getmişdi,

bacısı isə yanında oturub onun başını tumarlayırdı. Bu mənzərəni görən ananın bir anlıq ürəyi dondu və ona elə gəldi ki, oğlu ölüb, qızı isə qorxusundan heç nə söyləmir.

- Qretta, nə baş verib? Qardaşına nə olub? - Mariyanın səsi həyəcandan titrəyirdi, bu an o həyatında ən qorxulu sözləri eşitməyə hazır idi.

- Heç nə, ana. Biz acmışdıq, mən səni nə qədər oyatmağa çalışdım, ancaq bacarmadım. Karl isə elə hey ağlayırdı və mən xatırladım ki, beş gün əvvəl xanım Elizabet bizə çörək gətirmişdi. Mən onu tapıb qardaşımla bölüşdüm və hərəmizə iki tikə düşdü. Düzdü, bir az bərk və dadı başqa idi, ancaq buna baxmayaraq, onu ləzzətlə yedik, sənə də saxlamışıq.

- Niyə hamısını yemədiniz? - Mariya soruşdu.

- Ana, unutmusan? - təəccüblə Qretta soruşdu. Bu gün axı sənin ad günündür. Mən həmişə istəyirdim ki, qardaşımla səni ad günündə sevindirək və bayaq düşündüm ki, bir tikədən gözəl \nə ola bilər? - deyərək, qızcığaz əlini paltarının cibinə salıb ordan bir balaca tikə köhnəlmiş qara çörək çıxartdı.

- Gəl səni qucaqlayım, - kövrələrək, Mariya dedi və qızını bağrına basdı. Uşaqların hərəkəti ona güclü təsir etmişdi və bu an o, az da olsa yorğunluq və əzab barəsində unutmuşdu. "Mən daha çox işləyəcəm. Gecə-gündüz istirahət bilmədən ən ağır zəhmətə qatlaşacağam ki, övladlarım ac qalmasınlar və bu kasıblıqdan çıxsınlar", - düşünərək, Mariya qızının saçını sığallayırdı.

- Ana, bilirsən qardaşım bu gecə yuxuda görmüşdü ki, atam evə qayıdıb və özü ilə bərabər çoxlu yemək gətirib və biz daha ac deyilik. Karlın yuxusunda hamımız xoşbəxt idik, sən də artıq gecələr işləmirdin. Bayaq mən ona nağıl danışırdım və deyirdim ki, o yenə yuxusunda atamızı görsə, ondan tez qayıtmasını istəsin. - Sən necə də ağıllısan, əziz balam. Sizsiz mən nə edərdim? Mən həqiqətən yorğunluqdan elə oturduğum yerdə yuxulamışdım, əgər qonşu qapını döyməsəydi, indi hələ də yatırdım.

Ana bir tikə çörəyi əlində tutmuşdu və hələ də inana bilmirdi ki, uşaqları ac olduğu halda tapdıqları çörəyin sonuncu tikəsini aralarında bölüb yemək əvəzinə onun üçün saxlamışdılar. Bu, qadına təsir etmişdi. "Bəs indi nə edim? Dünəndən heç nə yeməmişəm, ancaq bu çörəyə dəyməyəcəm, bəlkə, Karlın, ya Qrettanın gözü qalıb? Əgər belədirsə, mən bunu yeyə bilmərəm," - fikirləşərək ayağa qalxdı və geyinməyə başladı. Bu hərəkət Qrettanı qorxuya saldı və o ağlayaraq yalvarmağa başladı:

- Ana, getmə. Xahiş edirəm, qal. And içirəm ki, acmayacağıq, bircə getmə. Axı sən söz vermişdin ki, bir də məni Karlla tək qoymayacaqsan. Qardaşım ağlayanda mən qorxuram. Yalvarıram, getmə, - deyərək Qretta anasının paltarının ətəyindən tutub, onu buraxmaq istəmirdi. Mariya köhnəlmiş papağını başına keçirib qapıya tərəf getdi və birdən xatırladı ki, qızıyla sağollaşmağı unudub. Arxaya dönüb uşağına tapşırıqlarını verdi:

- Əziz balam, inan ki, məcburam. Qayıdanda, çoxlu yemək gətirəcəm. Söz ver ki, mən gələnə qədər qardaşına baxacaqsan. Anladın?

Səsinin soyuqluğu qızcığazı təslim edib, inadından əl çəkməyə məcbur etdi və o, könülsüz olaraq: "bəli, ana" - dedi. Mariya şəhər kilsəsinə tərəf getdi. O, hələ də tam nə etmək istədiyini bilmirdi, yeganə fikri uşaqlarını aclıqdan xilas etmək idi.

Hava soyuq idi. 1099-cu ilin qışının nəfəsi artıq hiss olunurdu. İki gün yağan yağışdan sonra Klermon şəhərinin küçələri palçıq idi və buna görə də Mariya ayaqqabısının batmaması üçün bacardığı qədər ehtiyatla getməyə çalışırdı. O artıq kilsəyə gedib moizədən çıxan əsilzadələrdən bir az pul dilənmək istəyirdi. "Yepiskop Roşedən də kömək istəmək olar, axı o, Tanrı xidmətçisidir və əgər xanım Elizabet kimi tənha qadınlara kömək edirsə, yəqin ki, məni də darda qoymaz? Bəs birdən heç nə alınmasa, onda nə edim? Uşaqlarım evdə acdılar, onlara nə cavab verəcəm? Necə əliboş qayıdacam evə? Ancaq hər halda sınamağa dəyər, çünki bütün gününü ov etməkdə, kef məclislərində və qumarda keçirən şəhər əsilzadələri moizədən çıxandan sonra rəhmli olurlar. Ən azından buna ümid edirəm," - düşünərək Mariya yoluna davam edirdi. Onun fikirləri o qədər öz dərdinə qarışmışdı ki "Ehtiyatlı ol!" - qışqıran qadının səsini gec eşitdi. Yemək qalığı Mariyanın papağını çirkləndirdi. Bu hadisə onu özündən çıxartdı və başını qaldırıb yuxarı baxanda gördü ki, zibili atan onların küçəsində yaşayan çörəkçi Pyerin arvadı Avelindir.

- Ay itin qızı, bu zəhrimarını tökməmişdən qabaq bir bax da, bəlkə, küçədən bir Tanrı bəndəsi keçir. Sənə görə papağım xarab oldu ki, lənətə gələsən elə,-qışqıraraq Mariya söyməyə başladı.

- Ey səlibçi arvadı, həddini bil. Qulaqların xarabdırsa, bu, mənim günahım deyil. Bu zibili də sənin küçüklərin üçün tökürəm ki, aclıqdan ölməsinlər. Uşaqlarını çağır gəlsinlər, yeməkləri hələ soyumayıb, - qəhqəhə çəkərək Avelin pəncərəni örtdü.

Mariya eşitdiyi sözlərdən qəzəbləndi, çünki indiyədək hələ heç kim onun uşaqlarını belə təhqir etməmişdi. Bir anlıq o istədi ki, yerdəki daşı götürüb çörəkçinin pəncərəsinə çırpsın, ancaq düşünüb fikrindən vaz keçdi. “Bircə elə o qalmışdı ki, bu it qızına görə həbsə düşəm, onda balalarım acından ölər. Eybi yoxdur, bir gün keçərsən əlimə, ərinin qazancını yeyib yaman qudurmusan,” - Mariya özünə təsəlli verə-verə yoluna davam etdi.

Şəhər kilsəsinin qabağı həmişəki kimi adamla dolu idi, ancaq bu gün bazar günü olduğundan Tanrı qarşısında borclarını ödəməyə gələnlərin sayı əvvəlki günlərə nisbətən daha çox idi. Şikəstlər, karlar, korlar, kasıblar, tənha qadınlar Yaradanın mərhəmətinə və əsilzadələrin şəfqətinə ümid bəsləyərək səbirsizliklə moizənin başa çatmasını gözləyirdilər. Bu mənzərəni görəndə Mariya ilk olaraq qayıdıb evə dönmək istədi, ancaq bacarmadı. Uşaqları onu gözləyirdi. “Mən əliboş necə gedim? Karl və Qrettaya nə deyəcəm?” - düşünərək, qürurunu tapdalayıb Tanrı evinin qarşısında yığılanlara qoşuldu. Əslində, o, hec dilənməyi belə bacarmırdı,yeganə ümidi Allaha idi və üşüyə-üşüyə moizənin başa çatmasını gözlədi. Şəhərin kasıbları yeni gələnə qəribə nəzərlərlə baxırdılar və bu ona pis təsir edirdi. Bir şikəst, hətta deyinməyə başladı, ancaq Mariya buna əhəmiyyət vermədi. O hələ də çıxıb getmək istəyirdi, lakin uşaqlarını xatırlayıb dözürdü. “And içirəm ki, acmayacağıq, bircə getmə!”. Qrettanın yalvarışı onun beynində dayanmadan səslənirdi və bəlkə də, məhz buna görə o, soyuğa, yorğunluğa və aclığa əhəmiyyət vermədən səbrlə gözləyirdi. Nəhayət, moizə başa çatdı və kilsənin qapısı açılaraq həyatlarından razı əsilzadələri çölə buraxdı. Çıxanların içində yepiskop Roşe və qraf Orinyon var idi. Sonuncusu Klermonda ən varlı adamlardan biri idi və gəzən şayiələrə görə, onun nəsli şəhərin əsasını qoymuş Vercentoriqsdən başlayırdı. Qrafla yepiskopu bir yerdə görən Mariya, nəhayət, cəsarətlənib yaxınlaşmağı qərara aldı və ilk olaraq onlara tərəf gələn dilənçi qadını Orinyon görüb yepiskopdan soruşdu:

- Müqəddəs ata, bizə tərəf gələn bu adam kimdir? Siz onu tanıyırsınız?

Roşe qrafın işarə etdiyi adama baxanda səlibçi Henrinin arvadı Mariyanı xatırladı və sonra gülümsəyərək cavab verdi:

- Hörmətli qraf, mən bu qadını tanıyıram. Adı Mariyadır, ancaq insanlar onu daha çox “səlibçi arvadı” kimi çağırırlar. O, Müqəddəs Müharibəyə yollanmış dəmirçi Henrinin arvadıdır. Qəribədir, adətən bu vaxtlar buralara gəlmir, indi bəs nə olub görəsən? - narahatlıqla yepiskop dedi.

- Deyirsiniz ki, əri Yerusəlimi müsəlmanlardan azad etmək üçün Fələstinə yollanıb? – gülümsəyərək qraf soruşdu.

- Bəli. Düşünürəm ki, dəmirçi Henri çoxdan müsəlman qılıncından İlahi səltənətə qovuşmuşdur. Ancaq məni narahat edən daha bir məqam budur ki, bir az əvvəl bu qadının qonşusu xanım Elizabet mənimlə söhbət edəndə bildirdi ki, Mariya kafirliyə və cadugərliyə meyil etdiyindən moizələrimə gəlmir. Mən bunu yoxlamalıyam və əgər həqiqətdirsə, bu qadının iki uşağı var, onları əlindən alıb kilsənin himayəsinə verməliyəm.

- Roşe, sənin işlərin məni maraqlandırmır. Baxın, Mariya bizim yaxınlığımızda dayanıb, ancaq gəlib sözünü deməyə, yəqin utanır. Səni bilmirəm, ancaq mən ərlərini müqəddəs yolda itirmiş qadınlara kömək etməyi özümə Tanrı qarşısında müqəddəs borc bilirəm.

- Cənab qrafın hisslərini yaxşı başa düşürəm və bu kilsə tərəfindən bəyənilləndir. Ancaq sizin ailəniz və uşaqlarınız ola-ola, qorxmursunuz Yaradanın qəzəbindən? - gülümsəyərək yepiskop soruşdu. O, Orinyonu yaxşı tanıdığından bilirdi ki, verdiyi sual ritorikdir. Qraf Klermonda öz əxlaqsızlığı (pozğunluğu) ilə məşhur idi. Öz malikanəsində təşkil etdiyi kef məclislərində şəhər qadınları ilə əylənərək bütün kilsə qanunlarını ən sərt şəkildə pozurdu. Bu barədə həm şəhər əhalisi, həm də yepiskop Roşe bilirdi, ancaq kilsə nümayəndəsi qrafdan böyük miqdarda ianələr aldığı üçün onun təşkil etdiyi “günah yığıncaqları”nı görməməzliyə vururdu.

- Bəsdi görək, ay müqəddəs insan. Bayaq özün demədin ki, günahlarım bağışlanıb? Mən indi dünyaya yenicə gəlmiş körpə kimi Yaradanın qarşısında təmizəm, - gülərək, Orinyon yepiskopun ovcuna bir qızıl qoydu. Roşe pulu görən kimi üzündəki ifadə dəyişildi və o, qrafın addımının kilsə tərəfindən bəyənildiyini söylədi.

Bu zaman isə Mariya həqiqətən yepiskopla qrafın yaxınlığında dayanmışdı, ancaq şəhərin ən hörmətli insanları ilə danışmağa cəsarətinin olmadığını hiss edirdi. Üstəlik, havanın soyuqluğu, yorğunluq, aclıq onu vaxt keçdikcə daha da halsızlaşdırırdı və yalnız uşaqları barədə fikir ona rahatlıq vermədiyindən qadın səbrlə gözləyirdi. "Axı mən nə üzlə onlara yaxınlaşım? Əminəm ki, yepiskop moizələrə gəlmədiyim üçün məndən inciyib və hazırda bu barədə qrafla söhbət edir. Elə isə mən nə edim? Geriyə dönüm, yoxsa yaxınlaşıb öz istəyimi bildirim?" - narahatlıqla Mariya düşünürdü, bu vaxt gördü ki, qraf özü ona tərəf gəlir. Qadının ürəyi daha sürətlə döyünməyə başladı, bir anlıq o arzuladı ki, torpaq aralanaraq onu bütün varlığı ilə udsun, ancaq bu baş vermədi. Orinyon Mariyaya yaxınlaşıb ondan nə istədiyini soruşdu. Qadın əvvəlcə özünü itirdi, o hələ də sözünə nədən başlayacağını bilmirdi, lakin susmağın ədəbsizlik olduğunu fikirləşib cavab verdi:

- Hörmətli cənabdan rəhm istəyirəm. Həyat yoldaşım Səlib yürüşünə gedərək bizi Tanrının ümidinə buraxmışdır. Mən tək iki uşağı saxlamağa çalışıram.

- Yaxşı, bəs məndən istəyin nədir? - narazı halda qraf soruşdu. Qarşısında bir dilənçinin təzim etməməsini o bəyənməmişdi.

- Mən sizdən əsilzadəyə nəslinizin adına layiq böyüklük göstərmənizi xahiş edirəm. Tanrı naminə, uşaqlarıma yemək almaq üçün sizdən bir az yardım istəyirəm. Hörmətli qraf əsla düşünməsin ki, dilənçilik edirəm, sadəcə, imkansızlıq ucbatından bura, qarşısınıza gəlmişəm. Danışarkən Mariyanın səsi həyəcandan titrəyirdi, çünki o, ömründə etmədiyi işi görürdü.

- Bəs nə üçün çörəyi Yaradandan istəmirsən? Axı ərin onun naminə Fələstinə müqəddəs müharibəyə gedib, - istehza ilə Orinyon soruşdu. "Həə, qoy indi bu Roşe moizələrində nağıl danışsın. Onun sözləri bir qəpik dəyərində deyil və hələ utanmadan mənim kimilərin ianələrini alıb kilsə ehtiyacları adı ilə özü işlədir. Bundan belə qulağının arxasını görər, məndən pul görsə. Amma bu səlibçi arvadı heç də pis deyil. Ehh, Henri... Sən necə də axmaqsan, belə arvadı təklikdə qoyub Fələstinə kafir müsəlmanlarla müharibəyə getmisən. Maraqlıdır, görəsən, bütün kasıblar sənin kimi axmaq olur, ay səlibçi? Özünə bir əl gəzdirsə, sarayımın məclislərini bəzəyə bilər," - düşünərək qraf Mariyanı baxışları ilə süzürdü. Orinyonun sualını eşidəndə qadın ilk anda donub qaldı, çünki nə cavab verəcəyini bilmirdi. Nəhayət, uzanmış sükuta tab gətirməyib, qraf öz sualını təkrarladı.

- Düşünürəm, məni bu gün bura gətirən Tanrının iradəsidir ki, bu yolla o, sizin imanınızı yoxlamaq istəyir, - deyərək, Mariya cavab verdi.

- Ola bilər. Əgər sənin dediklərin həqiqətdirsə, mən kiməm ki, Yaradanın istəyinə zidd gedəm, - istehza ilə qraf paltarının cibindən iki qızıl çıxarıb qadına uzatdı, ancaq Mariya pulu götürmək istəyəndə Orinyon bilərəkdən pulları yerə saldı və gülməyə başladı:

- Əgər səni bura gətirən Tanrı iradəsidirsə, o zaman indi qarşımda əyilib bu pulu götürərsən və küçüklərinə zəhər alarsan, ay dilənçi. Məgər sən Yaradanın istəyinə qarşı çıxa bilərsən? - istehza ilə Orinyon dedi.

Mariya cavabında heç nə deməyib, dönüb getdi. O bilirdi ki, qraf onu ələ salır və bir anlıq istəyirdi ki, bütün qüvvəsini toplayaraq Orinyonun boğazından tutub boğaraq öldürsün. Qadını öz həyatı qətiyyən maraqlandırmırdı, ancaq uşaqların aclıqdan öləcəyi fikri onu niyyətindən döndərdi. Kor-peşman Mariya evinə olan yolu şəhər bazarından keçərək uzatmağı qərara aldı. O ümid edirdi ki, yeməkxana sahibləri rəhm edərək ona bişən xörəklərin qalığından verəcəklər, ancaq bu gün bəxt onun üzünə gülmədi. Tamamilə yorğun və aclıqdan halsızlaşmış Mariya insanların arasıyla gedərkən onun diqqətini həvəslə sümük gəmirən it çəkdi. Bunu görüb o gülümsəyərək heyvanın halına paxıllıq etdi. "Ehh. Tanrı sizə qarşı daha ədalətlidir, nəinki biz insanlara. Ən azı, siz azad yaranmısınız, hara istəsəz, gedə bilərsiz və hər gün yeməyə bir şey tapırsız. Ancaq biz qul kimi yaranırıq və belə də ölürük. Həyatımız boyu ümidlə yaşaya-yaşaya bir gün xoşbəxt olacağımızı

xəyal edirik. Ancaq siz heyvanlar xülya ilə yaşamırsınız, kaş ki, insan olmaqdansa sizdən biri olardım," - düşünərək Mariya itə baxırdı. Heyvan bunu hiss edib sümükdən əl çəkdi, onu kənara atdı və sonra gəlib qadının yanında oturaraq ona baxmağa başladı. Bir anlıq Mariyaya elə gəldi ki, sanki it onun halına acıyaraq bu sözləri deyir: "Bizə qibtə eləmə, biz düşündüyün kimi o qədər də xoşbəxt deyilik". Dilənçi gülümsəyərək heyvanın başını sığallayıb yoluna davam etdi.

Artıq hava qaralmağa başlayırdı. Aclıq və yorğunluq Mariyanı əldən salmışdı və o, küçəni güclə yeriyirdi. Onu tanımayan adam bu vaxtı qadını görsəydi, onu insan yox, ruh sayardı. Evinə yaxınlaşmağa az qalmış dilənçi, uşaqlarının gülməyini eşitdi və bu, Mariyaya təəccüblü gəldi. "Ona bax, elə gülürlər, sanki xoşbəxtdirlər. Ancaq bu mümkündür ki? Yoox. Tanrı yalnız varlıları xoşbəxt edir, biz isə ömür boyu bir tikə çörəyin ardınca sürünürük. Budur, balalarım yenə gülür. Deyəsən, Qrettanın səsidir. Məyər bu olan işdir ki, uşaqlarım gülə bilə? Yəqin, dəli olmağa başlayıram, bayaqları da şəhər bazarında olanda mənə elə gəldi ki, sanki it mənlə danışır. Sanki it halıma acıyır. Gülməlidir, elə deyilmi, insanlar səni heçə saya, dördayaqlı heyvan isə sən fəqirin halına acıya? Görünür, ədalət deyilən bu imiş" - düşünərək Mariya qapını açıb həyətə daxil oldu. Oğlu pişik balası ilə oynayırdı, qızı isə əlində təzə bişmiş çörək tutmuşdu. Dilənçi nə vaxt sonuncu dəfə təzə çörək yediyini belə unutmuşdu və indi ətri hiss edib az qaldı özündən getsin. Yıxılmamaq üçün o, divardan tutdu. Qretta anasının gəldiyini görüb qaçaraq onun qolundan tutdu və keçib pilləkəndə oturmağa kömək etdi. Mariya nəfəsini dərdikdən sonra qızı çörəkdən qopararaq anasına uzatdı, o da alıb yeməyə başladı. Qəlbində qarışıq hisslər oyanmışdı, səlibçi arvadı hələ də baş verənlərin həqiqət olduğuna inana bilmirdi.

- Ana, sən yaxşısan? Halın necədir?

Qızın sualı Mariyanı fikirlərindən ayırdı və o, çörəyi göstərərək onun hardan gəldiyini soruşdu.

- Bacıcan, qoy mən danışım, - deyərək Karl cavab verməyə hazırlaşan Qrettanın sözünü yarımçıq qoydu. Deməli, ana, sən gedəndən az sonra qapı döyülməyə başladı. Biz əvvəlcə qorxduq, çünki nə edəcəyimizi bilmirdik. Ancaq qapı döyülməyə davam edirdi və mən yaxınlaşıb gələnin kim olduğunu soruşdum. O cavab verdi ki, bir səyyahdır və atamız tərəfindən göndərilib ki, qayıdışını xəbər versin. O zaman biz qapını açdıq.

- Səyyah necə adam idi? Onun adı nə idi, Henri barədə nə dedi? -həyəcanla Mariya oğlundan soruşdu.

- Karl, qoy indi mən deyim, yoxsa səndən küsərəm. Deməli, ana, yolçunun adı İliya idi. O, ortaboylu, çox mehriban adam idi, mən belə insanı heç vaxt görməmişəm. Üzü isə nurlu idi, mən İliyanın sözlərini heç vaxt unutmayacağam. O, elə bil kilsədə təsvir olunan müqəddəslərdən biri idi. Ancaq iş burasındadır ki, o şəkildəkilər cansız idi, İliya isə. Bunu sözlə ifadə etmək mümkün deyil, ay ana. Gedərkən o, bizə bir kisə qızıl pulla bu çörəyi verdi və söylədi ki, nə olur-olsun, Allaha ümidimizi itirməyərək varidat qulu olmayaq. Bir də atamızı axırıncı dəfə Bizansın paytaxtı Konstantinopolda gördüyünü deyərək çıxıb getdi. Ana, bu şəhər çox uzaqdır? - deyə Qretta soruşdu.

- O qədər də yox. Uşaqlar, atanız uzağı üç aya evə qayıdacaq, - gün ərzində ilk dəfə səmimi qəlbdən gülərək Mariya balalarını qucaqlayıb öpdü, ancaq hazırda bütün fikri onları aclıqdan xilas edən bu yolçuda idi. "İlahi, bağışla məni, haqsızlıq etdim qarşında. Mən bədbəxtin günahından keç", - düşünərək səlibçi arvadı ürəyində tövbə edirdi. O, uşaqlıqda anasından İliya barədə eşitmişdi, ancaq düşünməzdi ki, bir gün övladları onunla qarşılaşacaq.

"İnsanlar onu Məsih və ya həvarilərlə səhv salarlar. Ancaq İliya nə İsa, nə də onun şagirdlərindəndir, lakin onların dediyini öyrədir. Dara düşənlərin, yetimlərin köməyinə çatan, fəqirlərə ümid verən İliya haqda nə qədər danışsan, söz bitməz, nə qədər yazsan, nə mürəkkəb çatar, nə də vərəq. İliya qaranlıqda parlayan ulduza bənzər ki, ardınca getsən, nə yolunu azarsan, nə də peşmançılıq çəkərsən. Kaş ki, bir gün onu öz gözlərimlə görərdim". Mariya anasının uzun illər əvvəl dediyi sözləri xatırlayaraq qəlbindən gələn sualı söylədi:

- İliya, axı sən kimsən?



# Bir rəssamın tarixçəsi

## Rauf Əbdülhüseynoğlu ilə bir gün

Həyatı boyu yalnız bir əsərinin qazancını görən, səfalət içində yaşayan, ölümündən sonra isə rəsmlərinə milyon dollarlarla qiymət qoyulan məşhur holland rəssamı Van Qoq - əgər içinizdən bir səsin "sən rəsm çəkə bilməzsən" dediyini eşidirsinizsə, hər şeyə rəğmən çəkin, - deyirdi, - o səs susacaqdır.

Əhmədli metrostansiyasından çıxıb təsəvvürümdə yumşaq kreslolar, süfrədə yenicə dəmlənmiş isti çay və rahat iş otağı kimi canlandırdığım emalatxanaya doğru addımlayanda Van Qoqun yuxarıdakı sözləri ağlıma belə gəlmirdi. Mən yıpranmış, köhnə tikiliylə qarşılaşıb, bu böyük beşmərtəbəli binanın emalatxana adlandığını öyrəndikdə Van Qoqun söylədiyi o yad, şeytani səsin necə təhlükəli və dağıdıcı ruhi faciəyə səbəb olacağını anladım. Rəssamla həmsöhbət olmadıqca bu düşüncələr, onun keçmişi ilə bağlı şəxsi təxəyyüllərim, danışdığı əhvalatlar, xəyallar, mənzərələr və onun həyatı barədə bütün gerçək məqamlar hələ yaranmamış, püxtələşməmişdi, yaxud da mənə məlum deyildi. Emalatxananın üçüncü mərtəbəsinə qalxdıqca çirkli daş pilləkənlərin, tozlu tutacaqların, qaranlıq binanın köhnə-kürüş ab-havası gənc jurnalistlərə macəra təki görünürdü. Hətta ağ taxta qapıya çatana qədər bir-birimizə atmaca atır, zarafatlaşır, əlimizdəki fotoaparatla şəkillər çəkirdik. Nəhayət, bizi qalın saqqallı, gülərüz, şirindil bir kişi qarşıladı. Bu, Rauf Əbdülhüseynoğlu idi.

Rauf müəllimin emalatxanası, daha doğrusu, balaca, dar otağı hərəkət etməyə imkan vermirdi. Ancaq rəssamın qonaqlarını mehribanlıqla qarşılaması, sənətkar həssaslığı ilə bizlərə göstərdiyi qayğı bu kiçik otağın hüdudlarını genişlətdi. Mən bu ağır vəziyyətdə işləyən rəssamın qəlbində Van Qoqun söylədiyi "bacarmazsan" sözünü duya bilməzdim, çünki min cür çətinlik və şəraitsizlikdə incəsənət eşqini, alovunu söndürəcək bütün vəsvəsələri hələ illər əvvəl basdıran peşəkar rəssamın yaradıcı enerjisi ilə qarşılaşdım.

O, elektrik çaydanından bizə çay süzdü. Çaydan bir qurtum alıb söhbətə başladı.

R. Əbdülhüseynoğlu 1957-ci ildə Mingəçevir şəhərində ziyalı ailəsində doğulub. Ailələrinin böyük olduğunu qeyd edən rəssam on uşaqdan doqquzunun ali təhsil aldığını deyir. Ali təhsil almağa onları həvəsləndirən əsas aparıcı qüvvə isə atası olub. Atası Əbdülhüseyn rəssam olmaq arzusunda imiş, ancaq Böyük Vətən müharibəsi zəhmətkeş atanın təhsil almağına imkan verməyib. Atasının Ali Sovetin deputatı olduğunu deyən Rauf müəllim sənətə gəlişində onun böyük rolu olduğunu bildirdi.

Rauf 1974-cü ildə Ə. Əzimzadə adına Rəssamlıq Texnikumuna daxil olur. Ancaq o, bundan əvvəl - hələ məktəb illərində ikən rəssamlıq fəaliyyəti ilə ciddi məşğul olub. İlk müəllimi İkinci Dünya Müharibəsində ruslarla vuruşan alman əsirlərindən isveç əsilli, xüsusi təhsili olmayan bir rəssam imiş.

O zamanlar Mingəçevir Dövlət Dram Teatrında baş rəssam işləyən Adolf Anderson rəssamın yaradıcılıq bioqrafiyasının ilk səhifələrində yer alır. Rauf Əbdülhüseynoğlu üç yaşından rəsm çəkməyə başlayıb, çəkməkdə ustalaşdığı, sənətdə yavaş-yavaş yetişməyə başladığı, təkmilləşdiyi dövrlər isə doqquzuncu sinifdə oxuduğu illərə təsadüf edir. O, A. Andersonla ilk məşğələlərindən biri olan uşaqlıq xatirəsini bizlərlə bölüşür: "Bir gün atam məni Pionerlər evinə apardı. Burda hər kəs kətanın üzərində yağlı boya ilə rəsm çəkirdi. O zaman uşaq idim, bunları ağlım kəsmirdi. Onlara baxıb həsəd aparır, mən də rəsm çəkmək istəyirdim. Xahiş etdik, adım siyahıya yazıldı və səhəri gün yenə Pionerlər evinə qayıtdıq. Atam mənim üçün kətan və rənglər almışdı. Hamı kimi qarşıma qoydum və baxdığım rəsmi çəkməyə başladım. Rəsmin adını indi xatırlayıram. İvan Şişkinin "Şam meşəsində səhər" əsəri idi. Müəllimim məndən çəkməyi tələb edirdi və bacardığımı da çəkirdim. Olduqca həvəsli idim. Ancaq indi anlayıram ki, müəllimim təhsilsiz idi. Yeni başlayan, azyaşlı uşağa belə ağır iş tapşırılmazdı. Bütün sənət növlərində, qeyri sahələrdə olduğu kimi, hər şeydən öncə əlifbadan başlamaq lazımdır. "İşin əlifbası"ndan. Rəssamlığın da bəlli zəhmət tələb etdiyini söyləyən R. Əbdülhüseynoğlu müəyyən sistemlə, ardıcıl fəaliyyətlə uğur əldə ediləcəyini, peşəkar rəssam olmaq üçün işin əvvəlindən, əlifbanın "A"sından başlamaq lazım gəldiyini deyir.



İkinci müəllimi Aleksandr İvanov da yetişməsinə nisbətən kömək olub. Ancaq əsas təhsilini Sankt-Peterburqda alan R. Əbdülhüseynoğlu bundan öncə bir neçə il Bakıda təhsil almağa çalışdığını, pul qazanmaq üçün gənc yaşlarından çilingər kimi işləməyə başladığını, o dönəmlərin çətin, keşməkeşli günlərini nəql edir.

R.Əbdülhüseynoğlu danışır ki, həmişə işini yaxşı öyrənməyə çalışıb. Hər şeyi pulla ölçmək olmaz. Sənət sənət xatirinə olmalıdır və görülən işlər, çəkilən zəhmət mütləq haqqını alır, layiq olduğu dəyəri qazanır. Rəssamın sənət eşqini, düşüncələrini və həyat tərzini, bəlkə də, Van Qoqun rəssamlıq ehtirası ilə eyniləşdirmək olar. R. Əbdülhüseynoğlu əsərlərinin illər sonra gerçək qiymətini alacağına, adının və rəsmlərinin ölümündən sonra daha ciddi anılacağına inanır: "Sənətçilər yaxşı həyat sürmürlər və sürməyəcəklər".

Rauf Əbdülhüseynoğlu Azərbaycanda yeganə keçəçi rəssamdır. O, bu işə ötən əsrin 80-ci illərində başlayıb. İlk əsəri "Qoy həmişə günəş olsun" həmin illərdə Rusiyada keçirilən müsabiqədə ona qələbə qazandırıb. O, elə 80-ci illərdən etibarən əsərləri ilə beynəlxalq sərgilərdə iştirak edir. Türkiyədə, Amerikada (Los-Anceles) və vətənimizdə fərdi sərgiləri nümayiş olunub. 2002-ci ildə "Humay" milli mükafatına, 2005-ci ildə Azərbaycan Rəssamlar İttifaqının təsis etdiyi Soltan Məhəmməd adına xüsusi mükafata layiq görülüb, o cümlədən, onun əsərləri Hollandiyanın "Qaqa" muzeyinin daimi eksponatıdır. Uğurları bununla bitmir. Rauf Əbdülhüseynoğlu 90-cı illərdə BMT-nin baş katibi Butros Butros Qaleyə Murtuz Ələsgərov tərəfindən dövlət səviyyəsində təqdim edilən "Qarabağ təranələri" əsərinin müəllifidir. Rəsmlərinin, əsərlərinin çoxunu hədiyyə etdiyini söyləyən rəssam onların ölkəmizdə və xaricdə - bir çox dövlət muzeylərində saxlandığını deyir. Heykəltəraşlıq və keramikadan başqa, bu sahənin bütün növlərinə aid maraqlı işləri var.

Keçəçilik haqda bizə uzun- uzun danışan rəssam bu tarixi, milli dəyərimizin keçmişindən söhbət açdı, bu günə qədər keçdiyi uzun yolu anlatdı. R. Əbdülhüseynoğlu qeyd edir ki, bu

sahəyə marağı onda uşaqlıq təəssüratlarından alovlanıb. Hələ uşaq ikən Zərdabda yaşayan babasıgilə qonaq getdiyi günlərdə evlərdə ayaqaltıya atılmış, örtük, bəzək olaraq istifadə edilən keçələri görüb və bunlar onun xatirəsinə əbədi yazılıb. Sonradan rəssamlıq onda bu unudulmuş sahəyə, keçəçiliyə qayıdış üçün xüsusi maraq oyadıb. Qeyd edim ki, söhbətimiz əsnasında keçəçiliyin çox çətin və ağır bir sənət olmasından söz açan rəssam onun hazırlanma üsullarından, keçənin qədim tarixindən, itmiş sənətin tapıntısından danışdı.



Belə ki, keçəçilik türk xalqlarının məişət mədəniyyətinin bir parçası olub, e.ə I minilliyə aiddir. Keçədən istifadənin dəqiq tarixi bəlli olmasa da, o, qədim türk etnoslarına məxsus bir sənətkarlıq sahəsidir. Altayda Pazırık kurqanlarında tapılmış keçə parçası, keçən əsrin ortalarında Rudenko tərəfindən aparılan arxeoloji qazıntılar zamanı e.ə IV-III əsrlərə aid keçədən hazırlanmış yəhər örtüyü və sair nümunələr bunu deməyə əsas verir. Hətta türklərin keçədən məişətdə istifadəsi ilə bağlı “Kitabi-Dədə Qorqud” dastanında da məlumat var. Dastanda Bayandır xanın dilindən deyilir: “Kimin ki oğlu-qızı yox, qara otağa qondurun, qara keçə altına döşəyin, qara qoyun yəxnisindən önünə gətirin”. Onu da qeyd edək ki, keçəçiliyi ağırlaşdıran, yəni bu işlə məşğul olmağın ən çətin tərəfi onun döymə sənəti olmasıdır. Rauf müəllim bizə xammalı almasından, keçəni boyamaq üçün istifadə etdiyi bitkilərdən, şəxsən özünün hazırladığı boyaq maddələrindən, keçənin faydalarından və bu sahənin yüksək peşəkarlıq tələb etməsindən danışdı. Bütün bunları ərsəyə gətirmək üçün rəssam böyük zəhmət çəkir, ağır şəraitdə çalışır. İşıqları zəif, dar, qaranlıq emalatxanada bunların öhdəsindən gəlmək, həqiqətən, çətindir...

...Rauf 1980-ci ildə Ə. Əzimzadə adına Rəssamlıq Texnikumunu qırmızı diplomla bitirib, Sankt-Peterburqa yollanır. Muxin adına Rəssamlıq İnstitutuna qəbul olmaq istəyən gənc rəssam yaxşı hazırlıqlı olduğuna baxmayaraq, imtahanlardan kəsilir. Burada yaşamağa qərar verir və hazırlıq kursunda oxuyub yenidən imtahan vermək üçün işləməyə başlayır. Nəhayət, instituta daxil olur və buranı bitirib Bakıya qayıdır. Təhsilini davam etdirməkdə israrlı olan gənc rəssam İncəsənət Universitetinə daxil olur və elə keçəçiliyin sirlərinə də bu illərdə yiyələnir. Keçəçilik sənəti rəssamın təhsil aldığı universitetdə tədris olunmasa da, bu sənətə qarşı maraq, xüsusilə, universitet illərində Kübra Əliyevanın keçəçiliklə bağlı verdiyi məlumatlar onda rəssamlıq sənətinin məhz bu sahəsinə daxili istəyin yaranmasına, alovlanmasına səbəb olur.

Emalatxanada görüşümüz bitir. Sonda peşəkar və tanınmış rəssam Rauf Əbdülhüseynoğluna, ya da sadəcə olaraq, bizi isti çaya, səmimi, eyni zamanda da bir xeyli maarifləndirici söhbətə qonaq edən mehriban, gülərüz, zəhmətkeş, sadədil insana yeni yaradıcılıq uğurları diləyirik. İtmiş, yoxa çıxmış sənətimizi, mədəniyyətimizi yenidən bərpa edib yaşadan, bizi yaddaşımızın, milli düşüncəmizin ilkin köklərinə, cığırlarına qaytaran ustadın yeganə davamçısı - oğlu Əbdülhüseyndir. Ümid edirik ki, Rauf Əbdülhüseynoğlu nəfəsi hələ neçə-neçə rəssamın yetişməsinə vəsilə olacaq...

*Reportyorlar:*
**Müşfiq ŞÜKÜRLÜ**
**Ləman AZƏR**

### ALDANIR ADAM

Nə şair sözünə,  nə söz iyinə
Nə də yazdığına aldanır adam.
Bir payız gecəsi özündən küsüb
Çıxıb getmişlərə dadanır adam.

Mən hansı yollarnan sənə gəlim bəs?
Sən bütün yolları çıxıb getmisən...
Dalınca uzanan yoxluğunu da
Qapımın ağzına taxıb getmisən.

Bir elin dərdi var indi canımda,
Amma bir adamlıq canım qalmıyıb.
Nəyim var sevmisən vaxtında mənim,
İndi sevilәsi yanım qalmıyıb.

Həə... belə... ay belə, gün belə keçir.
Keçib gedənlərə aldanır adam.
Bir payız gecəsi hamıdan küsüb
Təzədən özünə dadanır adam.

### ÜZƏCƏK

Bilirəm ki, səni kədər üzəcək,
Səhər-axsam, axsam-səhər üzəcək.
Tapdığına sevindiyin nə varsa,
İtirdiyin şeylər qədər üzəcək...

İtirdiyin şeylər geri gəlsə də,
Ölən ümidlərin diri gəlsə də,
Min gözlədiyinin biri gəlsə də,
Bir yol tapıb yenə qəhər üzəcək.

Gedən getdi, bir içimlik su idi,
Həsrətləri göz yaşıyla yu indi..
Üzüldüyüm, incidiyim bu idi,
İndən belə məni nələr üzəcək?..

### SƏNİ DÜŞÜNÜRƏM

Səni düşünürəm gün batan kimi.
Oralar necədi? Bura qış düşür.
Elə getmisən ki, bu gedişinə
Nə nifrət, nə də kin, bir alqış düşür.



Rəsul MİRZƏ

Mən də gedəcəyəm günün birində,
Hansısa küçənin, tinin birindən..
Hələ üzülməmiş ümidlərim də,
Nə dua götürür, nə qarğış düşür.

Yox ey, gücüm çatar qorxularıma,
Hələ sözüm keçər arzularıma.
Sən dönən deyilsən, yuxularıma
Bəs niyə hər gecə qaranquş düşür?

### İTMƏ GÖZLƏRİMDƏN

Ta bu qəm deyilən çürüdü getdi,
Lap öz ayağıyla yeridi getdi,
Bir az da ovutdum, kiridi, getdi,
Getdi, həmişəki gedənlər kimi.

Bir köhnə otağım, bir təzə kitab.
Ta məni bu gecə tapmaz bir əzab.
Ən tez nə çürüyər, tapmacadı, tap,
Özgə yatağında bədənlər kimi?!

Gözlə yağışları bulud xətrinə,
Dindir ürəyimi sükut xətrinə.
Hələ tükənməyən ümid xətrinə,
İtmə gözlərimdən itənlər kimi..

## SALAM, YALNIZ ADAMLAR

Salam, yalnız adamlar,
Salam, səssiz ürəklər.
Ömrün tən ortasında,
Salam, unudulanlar.

Bomboz pəncərələrdə,
Salam, tozlu pərdələr.
Bilmirsiz, bu şəhərdə
Harda olur dərdlilər?

Salam, məni sevməyən,
Sevə bilmədiyim qız.
«Yox, sevirəm, yalandı»
Deyə bilmədiyim qız.

Salam, şirin yalanlar,
Salam, saxta gülüşlər.
İndi kimlərdi şikar,
Mənsiz necədi işlər?

Salam, kirli binalar,
Salam, tozlu küçələr.
Xatirələr içində
Çabalayan gecələr.

Salam, mənəm, yad adam,
Salam, kinli şəhərim.
Hanı mənim sən verən
İztirabım, kədərim?

Salam, sevib bir dəfə,
Peşman olduğum şəhər!
Bəxtlə, dostla, ömürlə
Düşmən olduğum şəhər!

Salam, mənim ömrümə,
Balta çalan adamlar.
Ölmədiyim hər günə
Halva çalan adamlar...

## GECƏLƏRİN NƏĞMƏSİ

Dünən səhər mənim idin,
Mənim idin dünən gecə.
Pişikləri küsüb gedən,
Ulduzları sönən gecə.

Gözüm küsür güzgülərə,
Küsür dodağım çayıma.
İzimə düşən sevgilər
Payıma düşsün, payıma.

Dünən gecə mənim idin,
Mənim idin səhərəcən.
Üzündəki şirinlikdən
Dilindəki zəhərəcən.

Sən duz səpdikcə yarama
Ömrümün lap şiti çıxır.
Addımbaşı hər yoluma
Taleyimin iti çıxır.

Bir sümük at bu itlərə,
Yaxın gəl, səninəm, xanım.
Bəxtimin qapısın döyən,
Üstünə it hürən xanım...



# GƏM ÜZVLƏRİNİN ƏDƏBİ POLEMİKASI

*"Ulduz" Gənc Ədiblərin keçirdiyi ədəbi müzakirəni təqdim edir. Müzakirədə gənc yazarlar Ağalar Qəribov, Anar Əlizadə və Elçin Həsənli iştirak edib. Gənc ədiblər mənəvi ehtiyaclarımız və ədəbiyyat, ədəbiyyatda millilik, postmodernizm və ekzistensializm, mütaliə və yazı prosesi və s. mövzularla bağlı polemika aparıblar. "Ədəbiyyat ehtiyacdırmı?" sualına gənclər fərqli mövqelərdən yanaşıb. Ümid edirik ki, bu mövzu ətrafında müzakirə bugünkü gənc ədəbi mühitlə tanışlıq kimi maraqlı olacaq.*

**Ağalar Qəribov:** Ehtiyac təkcə mənəvi və fiziki mənada qəbul olunmamalıdır. Abraham Maslau öz tələbatlar piramidasında insanın beş tələbatını müəyyənləşdirir. Arasında ədəbiyyat da olan piramidada hər biri digərindən asılı olan, yaxud digərini müəyyənləşdirən tələbatlar verilib. İlk olaraq fiziki tələbatlarımızdır ki, biz əgər ac, yuxusuz olsaq, ümumiyyətlə, fəaliyyət göstərə, yaşaya bilmərik. İkincisi, təhlükəsizlik ehtiyaclarımızdır. Bu da aydındır, özümüzü qorumaq üçün ən azı bir evin altına yığışmağa məcburuq. Həmçinin sosial tələbatlarımız vardır. Buraya sevgi, dostluq və s. daxildir. Növbəti tələbat prestijdir. Buraya maddi ehtiyaclarımız aiddir. Nəhayət, beşinci, bizi maraqlandıran məsələ - özünü aktuallaşdırmaq, gerçəkləşdirmək. Ədəbiyyat bu sonuncu tələbatımızın tərkib hissəsidir. Fikrimcə, bizim cəmiyyətdə yaradıcı adamların hər şeydən əvvəl ilk dörd tələbatı ödənməlidir ki, onlar öz güclərini, potensiallarını ortaya qoya bilsinlər. Yəni bizim bu dörd ehtiyacımız ödənməlidir ki, ədəbiyyat haqda düşünə bilək.

**Anar Əlizadə:** Dostumuzun fikri ilə tam razıyam. Həqiqətən də, yaratmaq üçün fiziki və maddi mənada güc, enerji lazımdır. Ancaq bir paradoksal məqamı da qeyd etmək istəyirəm. Bəziləri var ki, ehtiyacları ödənsə də, özünü gerçəkləşdirə bilmir. Bu, yaradıcılığın bir növ istedad və zəhmətlə bağlı olduğunu göstərir. İstedad, zəhmət, əzm, inadkarlıq, iradə və dözüm tələb edir. Cek Londonun romanında Martin İden öz velosipedi üçün yer tapa bilmir. Bir yazıçının belə ağır vəziyyətdə, səfalət içində yazmağa, yaratmağa imkan tapa bilməsi həqiqi yaradıcı gücün qarşısında dayanacaq səddin, əngəlin ola bilməyəcəyini göstərir.



Ədəbiyyat qədim tarixə malikdir. Laylalar, oxşamalar, dastanlar, yəni şifahi xalq ədəbiyyatının yaranmasının özü bir ehtiyacın nəticəsidir...

**Elçin Həsənli:** Əgər fərdin ehtiyacları şəklində yanaşsaq, Maslaunun piramidası bizim təməl ehtiyaclarımızdır, həm də deyil. Sadəcə, düşünürəm ki, onu Maslau deyib deyə hər bir fərdin həyatına aid etmək yox, bir qədər həssas yanaşmaq lazımdır. Çünki heç bir şey doqmatik, mütləq ola bilməz. Həqiqətən də, biz orta əsrlərin kultu olan inkvizasiyanı indi vəhşilik kimi qəbul edirik, demək, əsrlərlə ilahiliyinə inanılan bu tip qərarlar da mütləq ola bilmədi... Eləcə də bu. Burada da, hər şeydə olduğu kimi, müxtəliflik prinsipi işləyir. Biz ədəbiyyat tarixinə baxsaq, görərik ki, hər cür şəraitdə yazmaq mümkün olub. Yazıçı üçün fərdi olaraq belə bir əngəl yoxdur. Sadəcə, fərqli şəkildə formalaşmalar var ki, bu da yazıçıların tamamilə mühitiylə və özüylə bağlı bir şeydir. Fikrimcə, yaradıcılığın qarşısında hər hansı ehtiyaclar sərhədi, yaxud komfortun gətirdiyi müxtəlif maneələr dura bilməz. Yazıçının kasıb, yaxud aristokrat həyat sürməsi ədəbiyyatın rəngarəngliyinə, müxtəlifliyinə aparıb çıxarır.

**Ağalar Qəribov:** Rəngarəngliyi deyə bilmərəm, ancaq yazıçı mütaliə və istedadla formalaşır. Genetika sübut edir ki, insan dünyaya gələndə DNT kodu artıq onun bioloji mahiyyətini müəyyən edir. Bu mənada, yaradıcılıq və istedad məxsusi özəllikdir. Əlbəttə, insan müəyyən dövrdən sonra özünü yönləndirə, yetişdirə bilən varlıqdır. Ancaq mütaliə ilə istedadı eyniləşdirmək də olmaz. İstedad yaradıcı gücdür, mütaliə, bilik isə yalnız yön verə,  istiqamətləndirə bilər. Xeyli mütaliə edib heç nə yaza bilməyən şəxslər də az deyil. Qaldı ki, ehtiyaclarımıza, onlarsız yaradıcılıq mümkün ola bilməz. Mütləq mənada digər ehtiyaclarımız ödənməlidir. Bu açıq məsələdir. Bir çox hallarda Maslounun piramidasında bir tələbatı ödəmədən digər mərhələyə keçmək mümkün olmur.

**Anar Əlizadə:** Ciddi ədəbiyyat ciddi mütaliə deməkdir. Mütaliə fikrin çoxcəhətliliyinə xidmət edir. Mütaliə də, təhsil də zəruridir. Lakin önəmli olan istedaddır. Misal üçün, Aşıq Ələsgərin yaratdığı metaforaları, təşbehləri bu gün kimin şeirlərində görürük? Heç kəsin. Ancaq Aşıq Ələsgər təhsil almayıb. Azərbaycan ədəbi mühitindəki postmodern təfəkkürlü yazarlar isə onu “dağ-çəmən” şairi adalandırır...

**Elçin Həsənli:** Ədəbi istedad yazmağı bacarmaqdırsa, onda bu sahədə istənilən qədər istedadlı adam tapmaq olar. Çünki hər birini qəbul edən kimlərsə ortaya çıxacaq və yazmaqla məşğul olan hər insanın öz potensialı, çəkisi var. İstedad əgər başqalarının edə bilməyəcəyi şeyləri etməkdirsə, innovasiyalar gətirməkdirsə, onda belə çıxır ki, ədəbiyyatda eyni cərəyanın nümayəndələrinin eyni ideyalarla yazıb-yaratdıqları ən yaxşı əsərləri olsa belə, onlar istedadsızdırlar. Məncə, buna müəyyən standartlardan baxmaq lazım deyil, çünki ədəbiyyat on nəfər intellektualın «ən yaxşı əsər» adıyla hazırladığı siyahı ola bilməz. Hər yaradıcının öz auditoriyası olur və keyfiyyət, fərdin anlayış sərhədləriylə müəyyənləşir. Biz meymuna fosforun nə olduğunu başa sala bilmərik, bu ona lazım deyil. Və mənə görə, hər şey praktikadan gəlir. Mütaliə və informasiyalılıq həm hansısa yöndə formalaşmaq, həm də yazı texnikasının inkişafı üçün müstəsnadır ki, buna da fərdin maraq dairəsi qərar verir. Biz insanlar eyni qəlibdən, quruluşdan gələn bədənlərə sahibik. Beyinlərimiz bütün canlı orqanizmlərlə müqayisədə ən böyüyüdür. Amma bu vəziyyətə gəlib çatmaq üçün bizə ümumbəşəri təkmilləşmə lazım olmuşdu. Bu təkmilləşmə də yüz min il qabaqkı insanın düşüncə qabiliyyətindən bizi kifayət qədər fərqləndirən bir məfhum olub ki, indi bunun üçün minillərlə dayandırmadığımız praktikaya borcluyuq.

**Ağalar Qəribov:** Amma Kamyu yazır ki, ədəbiyyat bizə həyatımızda olanları və yaşadıqlarımızı anlatmalıdır. Yəni yazıçılar insanın özündən, onu maraqlandıran mövzulardan yazmalıdır, insanın mövcudluğunu öyrənməli, öyrəndiklərini digər fərdilərə çatdırmağa cəhd etməlidir. Doğrudur, Kamyu da detektiv romanlar oxuyub. Ancaq onları estetik tələbatını təmin etmək, zövq almaq və ya ciddi mövzulardan nisbətən uzaqlaşmaq üçün oxuduğunu söyləyir... Lakin o, bəhs etdiklərimin ədəbiyyat adlanaraq

bu sözün mahiyyətinə xələl gəlməsinə birmənalı yanaşmayıb. Çünki əsl ədəbiyyat əsla insanın mahiyyətindən uzaqlaşmamlıdır. Ekzistensializmdən sonra ədəbiyyat və fəlsəfədə mövqeyini möhkəmlətmiş postmodernizm isə dəyərlərin silinməsidir. Dəyərlərdən azad olan insan nihilizmə sürüklənir. Fikrimcə, insanın istinadgahı, müqəddəsi, dəyəri, prinsipi mütləq olmalıdır. Bu, onun uğrunda yaşamağı nəyinsə olduğunun sübutu, yaxud onun mövcudluğudur. Bu gün ədəbiyyatımız postmodernist düşüncəyə meyillənir. Bu dağınıqlıq və pərakəndəliklə nəticələnən fəlsəfi-ədəbi düşüncəyə ehtiyacımız yoxdur.

**Elçin Həsənli:** Kamyunun yanaşması da, məncə, doqmatikdir. Müasirləri üçün feilin vacib şəklində danışanların bir müddət sonra qəbul edilmədiyinin ən düzgün şahidi tarixdir. Nihilizm özlüyündə bir dəyərdir. Ümumilikdə götürsək, insanlar arasında dəyər anlayışı bu qədər müxtəlifləşməklə bizə onu göstərməyə çalışır ki, hər kəsin öz həqiqəti var. Və nədənsə insanlar hələ də hansısa dəyərlərin səhv olduğuyla bağlı spekulyativ fikirlər səsləndirirlər ki, bu da çox anlaşılmazdır. İnsanlar öz mahiyyətləriylə yaşamaqdan çox, başqalarının mahiyyətini ortaya çıxarmağa, bütün bəşəriyyətin problemini həll etməyə çalışırlar. Halbuki bunun ən sadə variantı fərdin özlüyündə özünü tərbiyə etməsidir. Postmodernizmə gəldikdə isə onu birmənalı şəkildə dəyərləri silən bir anlayış kimi qəbul etmək çətindir. Çünki postmodernizmin dağıdıcılıqla yanaşı, birləşdirici funksiyası da var ki, bu da yeni cərəyanların yaranmasında daha perspektivlidir, nəinki başqa cür. Yəni orijinallığa cığır açmaq burada daha asandır.

**Ağalar Qəribov:** Onsuz da hər şey ilkinliyi və təbiəti ilə öz-özlüyündə orijinaldır. Bəlkə, postmodernizm elə bu orijinallığı ilə bizə maneədir?

**Elçin Həsənli:** Mən bayaq da qeyd etdim ki, keyfiyyət fərdin anlayış sərhədləriylə müəyyənləşir. Eynilə maneələr də fərdin düşüncələrinin məhsuludur. Əgər bir insan fəaliyyətində hansısa yeniliklər ortaya çıxarmırsa, bu o demək deyil ki, o sahədə ola biləcək hər şey artıq olmuşdur. Bir vaxtlar insanlar heç düşünməzdilər ki, eradan əvvəl kəşf etdikləri təkərlər artıq öküzlərə, atlara yox, 15-ci əsrdən başlayaraq özü hərəkət edən qurğulara qoşulacaq. Yəni avtomobil haqda təsəvvürləri yox idi. Eləcə də postmodernizm. Postmodernizmi diskriminasiyaya məruz qoymaq olmaz. Sadəcə, hələ ki, bacardığımız budur.

**Ağalar Qəribov:** Postmodernizmin demiorqu, Allahı hesab edilən Jan Bodriyar özü belə etiraf edir ki, postmodernizm erası hiperrealizm epoxasıdır, bu dövrdə reallıq əvəzinə insanlar onun stimulyasiya edilmiş versiyası olan hiperrealizmdə yaşayaraq öz həqiqətlərini, istiqamətlərini itirirlər. Ədəbiyyat və fəlsəfə hər hansı dəyərin əsasında formalaşır. Heç bir dəyəri qəbul etməyən postmodernizm yaradıcılığının məntiqi əsasının və bunun yekun sistematikasının olduğunu düşünmürəm.

**Elçin Həsənli:** Postmodernizm heçliklə yanaşı, bütün hər şeyi öyrənir. Deməli, onu da bu cür dəyərləndirmək mümkündür. Sistematik olmayan bir şey də müəyyən sistemə malikdir. Fiziki rəqslərlə xaotik formada hərəkət edən cisimlərə nəzər salsaq, vaxtaşırı müəyyən nizam-intizamın orada da gözlənildiyinin şahidi olarıq. Yaxud topa-topa uçuşan, amma bir-biri ilə toqquşmayan həşəratlar da müəyyən sistemlə hərəkət edir. Mən xaosun vəkili, müdafiəçisi kimi çıxış etməkdən çəkinirəm, açığı. Çünki əgər buna cəhd göstərsəm, deməli, onu da dəyər kimi qəbul etməyə meyilliyəm. Mənim üçün isə dəyərlər anlayışı, ümumiyyətlə, yoxdur. Bir qədər strukturalizmdən kənara çıxır, amma bunu da qeyd etmək istəyirəm ki, bütün çərçivələrdən çıxmaq cəhdləri yekunda hansısa çərçivəyə girməklə nəticələnir. İnsanın acizliyi buradadır.

**Anar Əlizadə:** Mən hardasa Ağaların fikri ilə razıyam. Ədəbiyyat iç məsələsidir, içdən gəlir, İlahidən gəlir. Ümumiyyətlə, yazıçı, şair bir növ şahin gözlü olmalı, ətrafda, cəmiyyətdə baş verən hadisələrə biganə olmamalıdır. Şair və yazıçı mövzunu hiss etməlidir. Bunu heç konkret demək də olmaz ki, ədəbiyyat, ancaq insanın özündən bəhs etməlidir. Məncə, burda şair və yazıçı daha çox cəmiyyəti maraqlandıran eybəcərlikləri, çatışmazlıqları qələmə almalıdır. Yəni ədəbiyyat fəlsəfə deyil ki, yalnız insanın mahiyyətini



aydınlaşdırsın. Ədəbiyyat insanı maraqlandıran bütün mövzulara toxunmalıdır. Cəmiyyətə xidmət etməlidir. Mədəni, əxlaqi təfəkkürə malik vətəndaşlar yetirməlidir. Ədəbiyyatın qarşısındakı məqsəd də bundan ibarətdir...

**Ağalar Qəribov:** Tam əminliklə deyə bilərəm ki, istər postmodernist, istərsə də maarifçilik ideyalarına xidmət edən milli məfkurəli ədəbiyyatın özündə də mövcudluq düşüncəsi olmalıdır. İnsan öz varlığından çıxış edərək yazmalıdır. Ekzistensializm hər dövrün, epoxanın problemlərini bu yöndən işıqlandırır və həll yolları axtarır. Kamyu yazır ki, insan öz mövcudluğunu tapmaq üçün yalnız tarixə müraciət etməlidir. Sartr isə insanın xilasını mütləq azadlığa qovuşmaqla bağlayır. Yəni ekzistensialist fəlsəfənin nümayəndələri digər yazıçılardan fərqli olaraq fərdə onun xilas yolunu göstərməyə, diqqətinin kölgəsində qalmış həqiqətini işıqlandırmağa çalışması ilə səciyyələnib fərqləndirilə bilərlər. İnsanın mahiyyəti postmodernizmin dəyərsizliyindən və milli məfkurənin sərhədlərindən daha geniş coğrafiyaya malik bəşəri konsepsiyada analiz edilməli, təqdim olunmalıdır.

**Elçin Həsənli:** Postmodernizmdən və yaxud yenilikdən uzaqlaşmaq, onu qəbul etməmək bir az da qorxularımızla bağlıdır. Çünki insan nəyə yaradığını, öz mahiyyətini, ya da axtardığını tapa bilməyəndə, yaxud ortaya onun heç vaxt gözləmədiyi mənzərə çıxanda istər-istəməz bu cür reaksiya verəcək. Buna görə də onun təsəvvür etdiyi kimi, bütün dəyərlərin silinməsi faciəvi hal alar. Amma gəlin ətrafımıza baxaq, sonsuz sayda müxtəlifliklər var. Və bunların hər biri özlüyündə bir həqiqətə xidmət edir - prosesin davamlılığına. Biz bu müxtəliflikləri olduğu kimi qəbul etsək, onların gördüyü işə münasibətimizi onları aşağılamaq kimi bir çərçivədən kənar tutsaq, daha ədalətli yanaşma ola bilər. Çünki onların hər biri müstəqil olmaqda haqlıdır, necə ki, biz həmişə öz fikirlərimizdə buna çalışırıq. Hər şey bir bütünün parçasıdır və postmodernizm həmin fərqliliklərə yeri gəldi- gəlmədi bağırmaq deyil, postmodernizm - bütün bu qarışıqlığın ortasında, sadəcə, susmaqdır.

Mətni hazırladı:
**Müşfiq ŞÜKÜRLÜ**



## Anar ƏLİZADƏ

***

Soyuq yanvar ayı… Yenə kəndimiz…
Yenə nənəmgilin ucuq daxması.
Pəncərənin yanı... Babam oturub…
Əlimdə nənəmin çörək yaxmacı…

Hər yan ağ xələtə bürünüb yenə,
Gözlərim qamaşır; baxa bilmirəm…
Boyum cox balaca… Təndir də hündür…
Təndirin üstünə çıxa bilmirəm…

Hava çox soyuqdu, bəyaz qar yağır...
Üşüyür əlim də, ayaqlarım da.
Əlimdə əlcək yox, əli yalınam…
Babamın qaloşu ayaqlarımda…

Yıxıla-yıxıla gəlib çıxmışam…
İsti təndir başı. Nənəm dayanıb.
Üzündə agrı və acı görünür,
Deyəsən, nənəmin əlləri yanıb…

***

Ay ana, nə olar, yatma bu gecə,
Darıxma, üzümüz yenə güləcək.
Dur bir yemək bişir, evi təmizlə,
Bu gecə yuxuma atam gələcək.

Gələndə görməsin evin halını,
Görməsin virandı evi-eşiyi.
Yatma, ay anacan, yatma, nə olar,
Bu gecə birlikdə çəkək keşiyi...

Bilməsin qəmlidir,gülmür üzümüz,
Qoy nələr çəkirik, bilməsin atam.
Üzündə qəmli bir ifadə görüb,
Ölüykən bir daha ölməsin atam..

Mən hansı paltarı geyinim, ana,
Itirdim başımı, atamın canı.
Nə yaxşı yadıma düşdü, ay ana,
Atamın aldığı köynəyim  hanı?..



# FÜZULİNİN "SU" QƏSİDƏSİNİN MİFOLOJİ VƏ DİNİ MƏZMUNU, JANR XÜSUSİYYƏTLƏRİ

Səidə ƏFQANQIZI

Füzuli (Muhamməd ibn Suleyman) yaradıcılığı Azərbaycan mədəniyyətinin formalaşmasında, bildiyimiz kimi, müstəsna rol oynayıb. Şairi Şərq tarixində iz qoymuş məşhur oğuz Bayat tayfasına aid edirlər. O, özünə qeyri-adi təxəllüs seçmişdi. Füzuli öz seçimini həm "füzl" kökünün farsca elmi biliklərin məcmuəsi, həm də "füzuli" sözünün cəmiyyətdə qəbul edilmiş qaydaları və ənənələri inkar etmə mənası ilə əlaqələndirirdi. Füzuli yaradıcılığı həmişə müxtəlif ölkə alimlərinin diqqət mərkəzində olub. Artıq XVI əsrdən etibarən Füzuli irsinin Türkiyə, İran, İraq, Orta Asiya xalqlarının elm və mədəniyyət tərəfindən "milli özəlləşdirilməsi"ni əsaslandıran yüzlərlə publisistik, elmi materiallar nəşr etdirilmişdir. Füzuli qələminə aid əsərlər hərtərəfli tədqiq edilmişdir. Lakin Füzuli yaradıcılığına müraciət etdikdə yeni öyrənilməmiş çalarlara rast gəlirik. Osmanlı sultanı Süleyman Qanuni və Səfəvi şahı İsmayılın şəxsi rəğbətini qazanmış, islamın müxtəlif məzhəb və cərəyanlarına mənsub olması ehtimal olunan Füzuli yenə də tarixi sirr olaraq qalmaqdadır. Füzuli yaradıcılığında su obrazının verilmə özəllikləri kifayət qədər öyrənilməmiş məsələlərdən biridir.

Azərbaycanda su obrazına müraciət özünü həm yazılı, həm də şifahi ədəbiyyatda göstərmişdir. Bu, su obrazının mifik və real düşüncədə yazılı, həm də şifahi ədəbiyyatda oynadığı rolla əlaqəlidir. Su obrazı, dünya mifoloji sistemlərində olduğu kimi, türk mifoloji düşüncəsində də yaradıcı başlanğıc-kosmoqonik obrazdır. Bunun əsas səbəblərindən biri də suyun kainatdakı həyatın başlanğıcı olmasıdır. Su ilkin miflərin əsas obrazlarından biri olmuşdur. Mifoloji dünya modelində su, varlığın əsasını təşkil edən əsas ünsürlərdən biri olmaqla yanaşı, həm də insan kimi canlıdır. Ancaq reallıqda, yəni tarixi şüurdakı su obrazı tamamilə fərqli bir şeydir. Biz tarixi şüur baxımından suyu maddə şəklində qavrayırıq. Bu amilləri nəzərə alıb ədəbiyyatda suya mifoloji dünya modeli baxımından yanaşmalıyıq.

Füzulinin qələmə aldığı əsərlərin əksəriyyəti dini mövzudadır. Məhəmməd Füzuli Peyğəmbər Həzrəti Məhəmmədi (s.ə.s.) vəsf etdiyi "Su" qəsidəsində suyu canlı obraz kimi Məhəmməd (s) peyğəmbərin obrazı ilə simvolizə edir. Qəsidədə Məhəmməd (s) peyğəmbərə aid olan beytlər çoxdur:

Ya həbibullah! Ya xeyrül-bəşər! Müştaqinəm,
Öylə kim ləbtəşnələr yanıb dilər həmvarə su.

Bu beytdə Rəsulullahın (s) eşqindən təşnə olan qəlb bir udum suya həsrət qalmış insanın çəkdiyi iztirablar ilə müqayisə olunur.

Məhəmməd Füzulinin Peyğəmbər Həzrəti Məhəmmədi (s.ə.s.) vəsf etdiyi "Su" qəsidəsi yalnız mövzu baxımından deyil, həmçinin janr baxımından maraq doğurur. Belə ki, Peyğəmbər Həzrəti Məhəmmədi (s.ə.s.) vəsf edən bu qəsidə Hz.Məhəmmədə (s.ə.s.) qarşı sevgi və inam tərənnüm etdiyinə görə nətdir. Nətdə peyğəmbərin qüdrətindən və müqəddəsliyindən bəhs olunur.

Nət - qəsidənin məzmununa görə fərqlənən növlərindən biridir. Qəsidənin məzmununa görə tövhid, minacat, nət, mədhiyyə, fəxriyyə, həcv və mərsiyə kimi növləri olur. Qeyd etmək istərdim ki, ərəb ədəbiyyatında yardım almaq məqsədilə

hər hansı bir şəxsin mədhinə həsr edilmiş şeirə qəsidə deyilirdi. Qəsidə ərəb ədəbiyyatından İran ədəbiyyatına keçmiş, ordan da türk divan ədəbiyyatında özünə yer etmişdir. Ədəbiyyatşünaslıqda qəsidə janrı qafiyələnmə prinsipi baxımından digər janrlardan fərqlənir. Məsələn, qəsidə, qəzəl ilə eyni olsa belə, həcm baxımından qəzəldən daha böyük olması ilə diqqəti cəlb edir. Qafiyə quruluşu qəzəldə olduğu kimidir: aa,ba, ca, ça, da. Ədəbiyyatda on beş beytdən iki yüz beytə qədər olan qəsidələrə rast gəlinir. Qəsidələr, adətən altı bölümdən ibarət olur ki, birinci bölüm 15-20 beyt arasında olur. Bu bölümdə dünyəvi, ya da təsəvvüf eşqdən söz açılırsa, nəsib, eşqdən başqa bir mövzudan (bahar, təbiət, bayram) bəhs edilirsə, təşbib adlandırılır. Qəsidənin ikinci bölümü girizgah, ya da giriz adlanır. Bu bölüm bir beytdən ibarət olur. Bu beytdə şair mədhiyyəyə keçəcəyini bildirir. Girizgah mövzuya aid və dəqiq olmalıdır. Qəsidənin üçüncü bölümü mədhiyyədir, burada əsas mövzu açıqlanır. Qəsidənin dördüncü bölümü 5-12 beyt təşkil edən təğazzüldür. Təğazzül qəsidənin ya əvvəlində, ya da sonunda yerləşə bilər. Təğazzülün mövcudluğu qəsidədə o qədər də vacib deyil. Qəsidənin beşinci bölümü fəxriyyə adlanır ki, burda şairlər özlərini tərif edərlər. Qeyd etmək istərdim ki, hər bir qəsidənin dua sonluğu var, qəsidədə mədh olunan insana dualar edilir.

Qəsidələrin adları onların rədifləri ilə də müəyyənləşdirilir ki, Füzulinin də "su" rədifiylə bitən bu qəsidəsi "Su" qəsidəsi adlanır. Füzulinin "Su" qəsidəsi türk divan poeziyasında çox geniş yayılmış, dəbdəbəli üslubu ilə seçilən, beyt əsaslı, ərəb mənşəli şeir janrında, qəsidə janrında qələmə alınmışdır:

Abgüundur günbəndi-dəvvar rəngi, bilməzəm,
Ya mühit olmuş gözümdən günbəndi-dəvvarə su.

(Ey göz, könlümdəki atəşlərə ağlamaqla su səpməyə çalışma, çünki bu qədər alova su təsir etməz. Bu fırlanan qübbə, görəsən, su rəngindədimi, yoxsa gözümdən axan yaş onu əhatə etmişdir, ayırd edə bilmirəm).

Şair suyun axdığı yerə bərəkət gətirdiyini nəzərə alaraq, qəlbində Allah inancı və Peyğəmbəri Həzrəti Məhəmmədin (s.ə.s.) sevgisi olan insanları vəsf edir:

Vəhmlən söylər dili-məcruh peykanın sözün,
Ehtiyat ilən içər hər kimdə olsa yarə, su.

Qeyd etmək yerinə düşərdi ki, Peyğəmbər Həzrəti Məhəmməd (s.ə.s.) qızılgüllə simvollaşdırılmışdır. Füzuli də "Su" qəsidəsində Rəsulullahın mübarək çöhrəsi qarşısında güllərin zəif görünməsi məsələsinə toxunaraq belə təsvir yaradır:

Suya versin bağdan, bihudə zəhmət çəkməsin,
Bir gül açılmaz züntək, versə min gülzarə su.

Qızılgül, gözəlliyindən asılı olmayaraq, Peyğəmbər Həzrəti Məhəmmədin (s.ə.s.) o mübarək çöhrəsi ilə müqayisədə çox solğundur.

Məhəmməd Füzulinin "Su" qəsidəsində vəsiyyət kimi qəbul edilən (dostlar, əgər onun əlini öpmək arzusuyla ölsəm, Torpağımdan hazırlayacağınız səhənglə ona su verin).

Dəstbusi arizusindən gər ölsəm, dustlər,
Kuzə eylin toprağım, sunun onunla yarə su

misrası 500 ildən sonra yerinə yetirilib. Belə ki, şairin qəbrindən götürülən torpaqdan hazırlanan səhənglə Məscidi Nəbəvidə islam peyğəmbərinin qəbrinin olduğu yerin qapısına su tökülüb. Vəsiyyətin yerinə yetirilməsi şairə olan sevgi və ehtiramdan irəli gəlir. Füzulinin arzusunu Türkiyə Trabzon vilayətindəki "Cümhuriyyət Anadolu" litseyinin ədəbiyyat müəllimi Turqut Okutur və şagirdləri həyata keçiriblər. Türkiyənin Bağdad səfirliyində təhlükəsizlik xidmətinin əməkdaşı olan Fatih Tamer, Füzulinin qəbrindən götürdüyü torpağı ölkəsinə gətirib. Kütahya şəhərindəki dulusçu ustalar həmin torpaqla 2 səhəng hazırlayıblar. Litseyin direktoru Həsən Suiçməz bu səhəngləri peyğəmbər qəbrinin olduğu Məscidi Nəbəviyə aparıb. Burda məscidin rəsmi şəxslərindən olan Seyyid Faris Əbu Mənsurun köməkliyi ilə Füzulinin ölüm ildönümü olan 11 yanvarda qəbrin olduğu məkanın qapısına su töküblər.



# QAPI

Cavid QƏDİR

Günəş ona rahat ölümü də çox görmək niyyətində idi. Özü də inanmışdı buna. Nədən ki, o öləndə gün günorta yerindəydi. Günəşin şüaları ağ nazik pərdəni dəlib keçir, ox kimi bəbəklərinə sancılırdı. Onunçün də var gücüylə gecəyə qədər dözməyə çalışırdı (Öləcəyini bilirdi). Qaranlığı sevirdi. Qaranlıq onu, onun bütün əzablarını gizlədirdi hamıdan - ən məhrəm sirdaşıydı...

... Günəş qalibanə təbəssümlə zenitə çatanda o, sonuncu dəfə həyata gözlərini açdı - bir daha qapamamaq şərtiylə... Və heç nə görmədən. Zatən, insanlar bu dünyaya kor gəlib, kor da gedirlər. Nəsə gördüyünü iddia edənlərsə boşboğazdırlar sadəcə....

... Öldüyünü ilk bilən hər səhər və axşam onu yoluxmağa gələn, süni şit təbəssümüylə zəhlə aparan həkim oldu. Həkim yatağa yaxınlaşıb nəbzini tutdu. Öldüyünə əmin olub gülümsədi.

Amma bu dəfə təbəssümü lap təbii alındı. Palatadan çıxmaq istəyəndə gözü çarpayının yanında yerə düşmüş dəftərçəyə sataşdı. Hiyləgər təbəssümündən bu dəftərçəyə maraq göstərdiyi bəlli olurdu. Dəftərçəni götürüb etinasız bir hərəkətlə meyidin yanındaca oturdu və vərəqləməyə başladı. Yazılar qarmaqarışıq idi, çoxu oxunmurdu. Nəhayət, vərəqləməkdən vaz keçib sonuncu yazını oxumağa başladı...

* * *

"Yenə uçurdum. Səmada süzmək, üzümü yalayan, saçlarımı oxşayan küləyi hiss etmək xoş idi mənimçün. İndiyədək belə yüksəyə qalxmamışdım. Bütün bədənimlə yüksəkliyi duyur, bundan həzz alırdım. Nə vaxtdan uçduğumun fərqində deyildim - bir saatmı, günmü, aymı?! Bilmirdim. Səfərimin başlanğıcını xatırlamağa çalışdığım müddətdə qəfil nəsə yumşaq bir şeyə toxunub dayandım... Qabağımı bulud kəsmişdi. Buludu yarıb keçmək istədim, amma o, çox elastik idi və dağılmırdı. Yavaş-yavaş anlayırdım nə baş verdiyini - kainatın sonuna çatmışdım, bura son idi.

Lap mahnıdakı kimi:

Burdan ötede köy yok,
Burdan öte bir yol yok.
Yanındaysa göz yaşın,
Bundan iyi vakit yok...

Dodağımın altında zümzümə edə-edə ətrafa göz gəzdirdim. Heç nə görünmür, kimsə gözə dəymirdi. Yəqin, belə də olmalıydı, amma mən maraqlıydım hər künc-bucağı yoxlamaqda. Burnumu az qala hər dəlmə-deşiyə soxmuşdum. Axır

ki, bir yarıq tapdım. Bir adamın rahat keçəcəyi böyüklükdə idi. Lap qapıya oxşayırdı, kənarları şüşə kimi hamardı. Oraya girdim, elə bil kandardaydım, otağa keçdim. Bura göz işlədikcə uzanan qəribə bir yer idi. Havadan hansısa, xoşladığım ətir duyulurdu. Deyəsən, "Hermes" idi. Çox təəccüblüydü: bu ətir haradan gələ bilərdi?! Bilmirdim hələ ki... Rənglər də qeyri-adiydi. Sanki bütün rəngləri qarışdırmışdılar və vahiməli bir rəng alınmışdı. Ətrafa baxa-baxa xeyli irəlilədim. Lap uzaqda qaraltı görünürdü. Deyəsən, ağac idi. Yanına tələsdim. Uçuş sürətim artmışdı. Ağırlığım yox idi elə bil. Üzümə külək vurmurdu, amma tam tərsi olmalıydı. Ən azından fizika qanunları bunu diktə edirdi... Axır ki, ağaca çatdım. Nəhəng gövdəsi vardı. On adam əl-ələ tutsaydı, yenə ağacın gövdəsini dövrələyə bilməzdi. Qəribəydi ki, ağacın kökü heç yerə bitişməmişdi, eləcə havadan asılıydı ağac. Rişələri göz işlədikcə boşluğa uzanırdı. Gövdəsi cadarlanmış, qupquru qurumuşdu. Yaşıllıq nişanəsi kimi ən aşağı budaqda bircə yarpağı vardı. O da amanabənd idi...

Yaxınlaşıb ağacın ətrafına dolanmağa başladım. Gəldiyim yola əks tərəfdə böyük bir koğuş vardı. Koğuşa boylandım, içəri qaranlıq olsa da, orda kiminsə olduğu bilinirdi.

- Ey, kim var içəridə? - deyə səsləndim.

Koğuşdakı tərpəndi və yavaş-yavaş bayıra çıxdı. İndicə çox qorxulu varlıq görəcəyimi zənn etiyimdən bir ayağımı qaçaraq qoymuşdum... Hə, bağışlayın, qaçmaq üçün torpaq gərək, odur ki, bir əlimi uçaraq saxlamışdım (uçmağı bacarsam da, qanadlarım yox idi - lap mənasiz filmlərdəki gicgicə supermenlər kimi). Amma qorxuma rəğmən, koğuşdan ortayaşlı, ucaboy, yaraşıqlı, üzü tərtəmiz təraş olunmuş bir kişi çıxdı. Ağzım açıla qalmışdı, amma dəqiq bilirdim ki, onu haradasa görmüşəm. Kişinin gülümsədiyini görüb özümü yığışdırdım. Üzündən görürdüm ki, məni ələ salır - təsəvvür edirdim sifətimin nə hala düşdüyünü. Birtəhər özümü ələ alıb:

- Kk-iim-siizz, - soruşdum.

Yeni tanışım səssizcə, ancaq ürəkdən gülərək, səhnədə monoloq söyləyən aktyor kimi pafosla:

- Tanrı, - dedi. Və səsi o qədər inandırıcı çıxdı ki, inandım ona.

- Bəs burada nə edirsiz? Bir də, axı Tanrı gözə görünməz...

- Bura mənim oylağımdır. Gözə görünməmək isə boş sözdür. İnsanlar tanımadıqları kəslər, görmədikləri məfhumlar haqqında əfsanələr yaratmağı xoşlayırlar. Buna görə də sizlərdən kənar gəzirəm. Əvvəllər insanların ürəyindəydim, indisə, görürsən, kainatın son nöqtəsindəyəm.

Bir xeyli susduq. Haçandan-haçana:

- Deməli, mən düz fikirdəyəm, - Tanrı insanın özüdür, onun açdığı yoldur, seçdiyi yox, məhz açdığı - həyatda hazır yollar olmur çünki. Onu özün açmalısan.

Dinmədi. Sadəcə gülümsədi, çöhrəsindən məmnunluq yağırdı.

Üzündəki ifadəni dəyişmədən, qəfil:

- Xəbərim var, məni döyüşə çağırırsan, mənim absurdluğumu, zəifliyimi sübut etmək istəyirsən. "Cənnət və cəhənnəm yoxdur. Tanrı, Tanrının yolu yoxdur", - deyirsən, sübut tələb edirsən. Yadda saxla: Tanrını beyinlə yox, ürəklə, ruhla anlamaq lazımdır. Tanrının varlığı sübut tələb etmir.

Mənim gülümsədiyimi görüb bir anlıq sükutdan sonra davam etdi:

- İnanmırsan... Bəs sən bura gələndə ən sevdiyin şeylərlə qarşılaşmadın? "Hermes" ətri, bir qədər qaramtıl-bənövşəyi boz rəng, sevdiyin mahnını xatırladan məkan. Bunlar hamısı sənin ürəyində kök salan məfhumlardır. Bura sənin ürəyindir, - hə, mənim sənə tanış gəlməyim də, səncə, təsadüfidir? - məni tapdığın yer də ürəyinin ən dibdəki hissəsidir. Ora heç kəs girmir icazəsiz, girə bilmir. Ancaq sən sərbəst girə bilərsən. Bir də mən - Tanrı. Amma sən mənə üsyan etdin, məni dandın. İndi mən buradan getməliyəm, burada mənə yer yoxdur - çünki sən məni qovdun...

Bunları deyib dərindən nəfəs aldı. Sanki ağır bir yükü çiynindən atmışdı. Mənsə özümü çox pis hiss etməyə başlamışdım. Elə bil böyük günah işlətmişdim, amma etiraf edə bilmirdim. Bu günahın cəzası da yox idi. Cəzaya gəlmirdi günahım...

Tanrının səsi fikrimin axınını qırdı:

- Hə, di gəl, döyüş çağırışını qəbul edirəm, - dedi və necə elədisə, əlində dümdüz, iri, yəqin ki, xeyli də ağır qılınc peyda oldu. Qılınc elə bil büllurdan tökülmüşdü. Çaşıb qaldım, amma o hücum etmədi. Nəyisə gözləyirdi sanki. Birdən ağacın rişələrindən biri mənə tərəf uzanmağa

başladı. Rişənin ucunda bir qılınc görünürdü. Rəngi qapqara idi. Qara brilyant kimi par-par yanırdı. Heyrətdən susub durmuşdum. Rişə yanıma çatıb dayandı. Qılınc sinəm bərabərindəydi. Karıxdığımdan onu rişədən ala bilmirdim.

Tanrının gur səsi yenə məni diksindirdi:

- Götür qılıncı! Özünü müdafiə et! Sübut elə ki, dediklərin həqiqətdir! Görürsən bu ağacı? O, sənin ruhundur. Bax! Diqqətlə bax! O, sənə görə Tanrıya qarşı çıxır. Sənsə ruhundan hər vəchlə imtina etməyə çalışırsan.

Qara qılıncın qara parıltısı gözlərimə keçmişdi. Gözlərimin ağı da qaraya çalırdı elə bil. Tanrının səsi qapı arxasından gəlirdi sanki. Qılınca baxdıqca kəsib-doğramaq, qan tökmək həvəsi doğurdu məndə...

Qılıncı götürdüm, rişə qılıncın qəbzəsini buraxıb yerinə çəkildi. Qılıncı sağa-sola hərlədim, bir az ağır olsa da, rahat idi. Havada müvazinətimi tarazlayıb qılıncı möhkəm sıxdım. Sıxdıqca da ondan soyuqluq, rahatlıq, özünə əminlik axdı içimə.

İlk hücum edən o oldu. Birinci həmlədən anladım ki, mən girən kol deyil. Çox güclü idi və həddən artıq rahat vuruşurdu. Mənim daha bir çətinliyim dayaqla bağlıydı. Uça bilsəm də, hər şeydən əvvəl torpağın övladıydım. Bununçün də heç yerə tutunmadan döyüşmək çox çətiniydi. Belə çox davam edə bilməzdi. Açıq-aşkar ölüm idi bu vuruşun sonu. Amma vəziyyət heç gözləmədiyim halda dəyişdi. Tanrı növbəti həmləni edəndə yana çəkildim. Zərbə çox güclü alındığından o, bir anlıq müvazinətini itirdi. Fürsətdən istifadə edib qılıncı onun çiyninə endirdim. Çiynindən parlaq, göz qamaşdıran maye fışqırdı. Və çox güclü gurultu qopdu. Olduğumuz yer qaranlıqlaşdı. Təkcə biz durduğumuz yer projektorla işıqlandırılmış kimi aydınlığıydı. Amma bu işartı açıq-aşkar zəifləyirdi. Qəfil Tanrının mənim ruhum adlandırdığı ağacdan “Ah” nidası eşidildi, yeganə yaşıl yarpağı qopdu, fırlana-fırlana dibsiz boşluqda gözdən itdi. O an hiss etdim ki, ürəyim daha vurmur...

Tanrı əlindəki qılıncı az qala gözümə sancaraq, yüzlərlə topun yaylım atəşinə bənzər səslə:

- Hə, sən istədin bunu! Sən Tanrını öldürmək istədin! Əslində, bu sənin ölümündür. Qalan sonuncu yarpağı da qopardın. İndi sən yalnız kölgəsən. Başqa heç nə... Mən səni bircə göz qırpımında məhv edərdim. Amma etmədim. Əvəzində etdiklərinə bax! Deməli, sənin kölgənin belə, yaşamağa haqqı yoxdur, - deyib qılıncı sol çiynimə endirdi. Macal tapıb öz qılıncımı qabağa verdim. Ancaq qılıncım zərbdən iki bölündü və Tanrının qılıncı çiynimə işlədi...

* * *

... Otağımdaydım. Çarpayıda uzanmışdım. Buna sevindim: deməli, yuxu imiş hər şey... Qalxmaq istədim, çiynimdən qopan ağrı məni yatağa mıxladı. İndi gördüm, yaralanmışdım, bütün yataq qana boyanmışdı. Gözlərimi hərləyib döşəməyə düşmüş qara qılınc qırığında saxladım. Qılıncın qırılmış tiyəsində qurumuş, par-par yanan maye ləkəsi görünürdü, döşəmədə də eyni izlər vardı...



Yaramdan axan qan hələ dayanmamışdı, amma birtəhər özümü toplayıb yataqdan qalxdım, səndələyə-səndələyə həyətə çıxdım. İzlər bir qədər irəlidə yoxa çıxırdı. Amma həyətə kölgə salan talvara dırmanmış meynənin yarpaqları qana boyanmışdı. Aydın idi, O, öz məkanına qayıtmışdı. Sevindim, deməli, ölməyib. Deməli, mən hələ də öz halımdayam - canlı insanam, quru kölgə yox. Amma nədənsə ürəyimin döyüntüsünü eşidə bilmirdim. Özümə təskinlik verdim - yaralıyam, qan itirmişəm, ona görə ürəyim zəifləyib.

Özümü az da olsa, inandırıb yenə çözələnən fikirlərimə qayıtdım:

- Deməli, hələ heç nə itirilməyib, oraya yenə gedib, Tanrıya sülh təklif edə bilərəm...

... Birdən arxa tərəfimdə nəsə guppultu ilə yerə düşdü. Geri çevrilməyə ürək eləmədim. Gözümün qabağına həyat ağacından qopan sonuncu yarpaq gəldi - fırlana-fırlana dibsiz boşluqda gözdən itməkdəydi... Haradansa burnuma “Hermes” ətri dəydi. Və haradasa Emre Aydın oxuyurdu:

Burdan ötede yol yok,
Burdan öte bir köy yok,
Yanındaysa göz yaşın,
Bundan iyi vakit yok...

Qəfildən xəyal da yoxa çıxdı, ətir də çəkildi. Emre Aydın da daha oxumurdu. Sükunət qulaq dəlirdi. Ürəyimin vurmadığını dəqiq bildim indi... Qurtardı!!! Hər şey bitdi... Bitdi!..”

* * *

Dəftərçəni örtüb ayağa qalxdı. Meyidə lap yaxın gəlib onun donuq üz cizgilərinə tamaşa etməyə başladı. Pəncələri üstündə yellənə-yellənə, fitlə hansısa mahnını səsləndirərək bir xeyli beləcə qaldı. Elə bu vaxt qapı səssizcə aralandı, xəstə baxıcısı - gənc qız palataya girdi. Həkim bu vəziyyətdə yaxalandığı üçün pərt oldu. Fitini kəsdi, karıxdığından qıpqırmızı qızarmışdı. Dillənəndə kəkələdi:

- Ooo... ooradaa öölüb...

Tibb bacısı bir xeyli key-key ona və meyidə baxdı, güclə özünü qapının yanındakı kətilə yıxdı. Heç nə ifadə etməyən gözlərini çarpayıda uzanan adamın göyərmiş, bir qədər də dartılmış kimi görünən sifətinə zillədi. Handan-hana qalxıb meyidin əl-ayağını nizamladı. Sonuncu dəfə bir anlıq onun gözlərinə baxdı və qorxurmuş kimi tələsik gözlərini bağlayıb mələfə ilə üzünü örtdü. Mələfəni düzəltmək üçün əyiləndə bir damla yaş yanağından qopub, mələfənin üzərinə - ölünün göz çuxurunun üstünə düşdü.

Sonra hər ikisi, sözləşiblərmiş kimi, səssizcə qapıya yönəldi. Çıxarkən qız qapını var gücüylə çırpdı. Qapıya bərkidilmiş, üzərində 13 rəqəmi olan lövhənin bir tərəfi qopub sallandı. Gedənlərin dalınca əl edirmiş kimi yellənirdi 13...





# APRİORİ

Şəfaqət CAVANŞİRZADƏ

Alın yazısına, qismətə inanmırdı. “İnsan yalnız zövq almaq, xoşbəxt olmaq üçün yaranıb” - deyirdi, ürəyi hansı qadına, qıza isindisə, onlara qarşı fərqli niyyətlərlə addımlar atırdı. Atdığı hər addımda sonsuz ümidləri vardı. Səmayə xanım oğlunun dağınıq gözlərindən utanırdı. Zamana tez vaxtda yaxşı qız tapıb evləndirməsə, oğlunun arxasınca türməyə ziyarətə gedəcəyi günlər uzaqda deyildi, ən pis halda isə ürəyi yaralı, parçalanmış ana kimi qəbrinin üstə gül qoymaq ehtimalı da var idi. Dəfələrlə oğlundan şikayətlər bir-birinin ardınca gəlirdi: ya oğlunu rədd elə buralardan, ya da köçün gedin...

Zaman ağıllıydı (qorxaqlar özlərini, adətən, ağıllı göstərirlər), evində kişi olmayan qadınlarla, qardaşı olmayan qızlarla gələcək xatirələri üçün günlər yaşayırdı. Yeni-yeni qadın qoxularını onlar marketin qapısından içəri girməmiş duyurdu. Qadınların əksəriyyəti dar düşüncələrində formalaşdırdığı sınaqlarından keçməmişdilər. Aləmdə dilə gətirilməsi düzgün olmayan müxtəlif adlar, damğalar qazanmışdılar.

Anası Səmayə bir gecə çox dad elədi, fəryad qopardı. Yorulub yola gətirə bilmədiyi oğluna xəbərdarlıq etdi: - Bir gün bezib gedəcəm. Səni də övladlıqdan siləcəm - dedi, dizlərini çırpa-çırpa yerə çökdü, hönkür-hönkür ağladı. Zamanı anası çox danlamışdı, lakin onu bu vəziyyətdə görməmişdi. İlk dəfə utandı. Anasına yaxınlaşdı, qucaqladı. Bir neçə dəqiqəlik sükutdan sonra dilə gəldi. Anasını sevindirməyə özünü borclu hiss etməkdən çox, məcbur qalan adam kimi danışdı: - Bağışla, qurban olum. Bəsdir e, mən də bezdim avaraçılıqdan. Get, kimi istəyirsən al. Orta məktəbi qurtaran qız olsa, yaxşı olar. Gözü açılmış qız istəmirəm, ev qızı olsun.

Səmayə xanım sevindi: - Bəs necə? Nə görmüsən o pozğunlarda? Sinif yoldaşımın qızı var. Məktəbi bu il qurtarıb. Hər telefonda danışanda anası mənə söz atır ki, onsuz da oxumur, yaxşı qismət olsaydı, verərdik. Qız çöl nədir, bilmir heç.

Zamanı fikir götürdü:

- Qızı görmüsən? Heç olmasa, mənə də yaraşsın. Bu qızla sabah çölə-bayıra çıxmaq var.

Səmayə xanım gülümsədi:

- Göyçəkdi. Bir suyu sənə çəkir.

Zaman sevindi:

- Daha denən, dünya gözəlidir də.

Səmayə əvvəlcədən aldığı üzüklə sinif yoldaşı, neçə illik rəfiqəsi Ruhanəgilə getdi. İki ərsiz qadın söhbəti çox uzatmadı, aralarında razılığa gəldilər. Nişan etməmiş birbaşa toyun olacağı ayı dəqiqləşdirdilər. Ruhanənin əri bir il bundan əvvəl şəkərdən haqq dünyasına qovuşmuşdu. Arvadına və qızına miras qoyduğu iki obyektdən hər ay yaxşı pul gəlirdi evə.

Səmayəgilin də qazancı pis deyildi. Hər iki ailənin toyu uzatmaq üçün heç bir səbəbi yoxuydu.

Səmayə özüylə gətirdiyi üzüyü gələcək gəlininin barmağına taxdı, alnından öpüb xeyir-duasını verdi. Gəlin olacaq Sevil on səkkiz yaşında özünü otuz ilin arvadı kimi hazırlamışdı. Zamana isə evdə arxayın ola biləcəyi qadın lazımdı. Gözü açılmamış, anasına qulluq edəcək qadın!...

Payızın ilk oğlan çağını xatırladacaq ay - sentyabr.

Toyuna on beş gün qalmış Zaman məhlədə üç ildi görüşdüyü dul qadından - Şəbnəmdən başqa, telefonundan o biri qızların, qadınların nömrələrini silmişdi. Özündən on yaş böyük olan Şəbnəm görüşdüyü qadınlar kimi onun cibini güdmürdü. Əksinə, yeri gələndə, xeyri dəyəcək məsləhətlər verirdi. Bəzən Zaman heyifslənərək bildirmişdi ki, aralarındakı yaş fərqinə baxmayaraq, həyatındakı ilk kişisi olsaydı, ailə quracağı qadın mütləq Şəbnəm olardı.

Səmayə oğluyla Şəbnəm arasındakı münasibətə dəfələrlə iradını bildirmişdi. Şəbnəmdən ayrılmağa isə Zamanın ürəyi gəlmirdi. Bir neçə dəfə özü ayrılıb, təkrar yenə ona qayıtmışdı.

Nə qədər çox insanla ünsiyyət qursan, dəfələrlə sevsən, sonunda yenə doğmalıq hiss etdiyin, bağlandığın insana geri qayıdırsan. Zamanla Şəbnəm arasındakı münasibət ilk aylardan uzaq, sonradan isə izah oluna bilməyəcək bağlılıq, fərqli hisslər idi.

Səmayə razı deyildi, oğlu Şəbnəmi toyuna çağırsın. Şəbnəm özü isə toyda iştirak etmək istəyirdi.

Saat altı. Qız tərəfdən də, oğlan tərəfdən də gələn qonaqlar əvvəlcədən dəvətnamələrində nömrəsi yazılmış yerlərində əyləşdilər. Şəbnəm bəy-gəlin stoluna yaxın, qonşuların arasında yox, Zamanın qohumları arasında oturmuşdu. Səmayə qəsdən o yeri göstərmişdi, oğlunun xoşbəxtliyini görsün, qadınlıq qüruruna toxunsun, toydan sonra hər şeyə nöqtə qoysun.

Bəylə gəlin gələnə qədər Şəbnəm Səmayənin həkim olan bibisi qızı ilə tanış oldu. Vaxt keçdikcə həkimlə söhbəti səmimi, açıq olurdu. Həkim qızların düzgün tərbiyə olunmamasından gileylənirdi. Evinə gizli, özünü bərpa etməyə gələn qızlardan danışırdı. Şəbnəm isə əlini çənəsinin altına qoyub, sadəlövh uşaq kimi dinləyirdi. Məclisdəki bəzi qonaqlar səbirsiz idi, yeyib-içmək çoxdan başlamışdı.

... "Vağzalı" sədaları altında gəlin bəyin qoluna girib, ikisi də asta-asta pilləkənləri qalxırlar. Şəbnəm divara vurulmuş televizora baxır, Zamanın qoluna girmiş gəlinin yerində özünü təsəvvür edirdi. Bədəninə qəribə istilik gəlirdi.

İnsanın özlüyündə pərt olması xoşagəlməz hisslərdən başqa heç nə deyil. İçində nələrsə qırılır. Dişinin ağrısı başına vuran kimi, inciyən ruhun da bədənini sızıldadır, ağrı verir. Elə bir gün gəlir ki, açılan bütün yaralar qabıq bağlayır, bəzən unudulur, üzündən üzlər alır.

Bəy-gəlin zala daxil olanda qonaqların çoxu ayağa qalxır, əl çalırlar. Səmayənin həkim qohumunun üzündə isə çaş-baş adamların ifadəsi vardı:

- Elə bil gəlini hardasa görmüşəm.

Şəbnəm bəydən gözlərini çəkmirdi, ona həsrətlə baxırdı. Səmayə, onların münasibətlərini bilən qonşular arada gözlərini ona dikirdilər.

Cavanlar səbəbkarları aralarında görünməz etdilər. Nigah mərasiminin olduğu məqamıydı. Nigahı kəsən qadın hər toyda təkrarladığı sözləri bu toyda da deyirdi.

Həkim qadın yenə qaşqabaqlı dedi:

- Vallah, bu gəlini görmüşəm. Elə bil bizdə olub.

Şəbnəm indi qadının dediklərinə fikir verir:

- Başa düşmədim. Bilmirsiz, evinizə kim gəlir, kim gedir?

Həkim qadın:

- Bayaq izah elədim axı, indiki qızlar... Ay aman!... Allah mənə ölüm ver.

Həkim qadın stula çökür:

- Mən nə iş görmüşəm, ay Allah. Mən bu gəlini...

Şəbnəm stəkana şirə süzür, qadına uzadır, ona yaxın stulda əyləşir:

- İçin. Nə oldu sizə?

Qadın şirədən içir, gözləri yaşlı:

- Mən hardan biləydim ki, bu ləçər bizə gəlin gəlir. Bilmirdim axı!..

Şəbnəm televizordan gəlinə baxır:

- Belə de. Bu gəlinin on səkkiz yaşı var hələ.

Həkim qadın:

- Ağzımı açsam, böyük biabırçılıq olacaq. Səmayə bunu hardan tapdı?

Şəbnəm gülümsəyir:

- Rəfiqəsinin qızıdır.

Həkim qadın:

- İndi mən neyniyim? Səmayəyə necə deyim ki, gəlinin...

Şəbnəm qadının sözünü kəsir:

- Sakit, nə danışırsız? Yaxşı ki, stolda ikimizdən başqa heç kim yoxdu. Uşaqdı da, deyəcəksiz, nə olacaq? Qaytaracaqlar geri, ortalıqda qalıb pozulacaq.

Həkim qadın stolun üstündən götürdüyü salfetkayla üzünün tərini silir:

- Narahat olma, belələri səhrada da özünə yol tapar (gözləri təzədən dolur). Yazıq Zaman, gəzdi, gəzdi, axırda pozğuna qismət oldu.

Şəbnəm:

- Səmayə xanımın arzuladığı gəlindir. Lazım deyil daha, ağzınızı açsaz, siz də biabır olacaqsız. Məndən də arxayın olun. Heç kimə bir kəlmə də demərəm. Siz də fərz edin ki, o qız yanınıza gəlməyib.

Həkim qadın:

- Bu qız üzümə baxanda utanmayacaq?

Şəbnəm:

- Əsas odur, ev qızıdır. Siz qonaq kimi sonacan oturun, susun. Səmayə xanım, qeyrət, namus düşkünüdür. Bilsə, ürəyi partlayar.

Bir müddət ikisi də susur. Zamanın nigahı kəsən qadının gələcək arvadıyla evlənib-evlənməməsiylə bağlı sualına üç dəfə "bəli... bəli... bəli..." cavab verməsi həkim qohumunu hövsələdən çıxarır. Zalda hər kəs gəlinlə bəyi alqışlayır. Həkim qadın balaca qara rəngdə olan toy çantasını götürür, ayağa qalxır:

- Vallah, boğuluram, axıracan otura bilməyəcəm. Gedirəm pulumu yazam, cəhənnəm olam.

Şəbnəmə nə isə deməyə imkan verir, iti addımlarla gəlinlə bəyin başına yığışan qonaqların yanından əsəbi keçir.

Qohumunun zalın qapısından çıxdığını görən Səmayə Şəbnəmə yaxınlaşır, qaşqabaqlı, könülsüz soruşur:

- Nə olub?

Şəbnəm:

- Pul yazdırmağa getdi.

Səmayə gəliniylə oğluna, sonra Şəbnəmə kinayə ilə, qalib gələn qadın kimi baxır. Şəbnəmin isə əksinə, gözləri gülür, Səmayənin gözlərinə dik baxır. Onun düşündüyündən fərqli olaraq, kədərli yox, bəxtiyar, şad, böyük uğur qazanan qadın idi Şəbnəm.

Taleyini yazan qələm onun əlində deyildi, əri öləndən sonra Zamanla adı ikiyə çıxmışdı. Ona həmişə əxlaqsız qadın kimi baxan Səmayənin seçdiyi on səkkiz yaşı təzə tamam olmuş gəlinin isə şəhvəti tale yazan qələmin mürəkkəbindən tökülənlərə oxşamırdı.

Heyifslənirdi! Kaş Səmayə həqiqətlərdən sonra onu da müqəddəs biləydi!..





Şəhriyar SEYİDOĞLU

**ÜRƏYİNƏ ÇƏTİR TUT**

Ürəyinə çətir tut,
Qəlbinə daman olar.
Gizlən baxışlarımdan,
Telinə qonan olar.

Nə qoxu səksəkəli,
Əlimi tutmaz əli.
Mənim kimi bir dəli,
Halına yanan olar.

Bu həsrət, bu da niyyət,
Fikir etmə, nəhayət.
Bir əlində məhəbbət,
Birində balan olar.

Vüsala bircə yol cız,
Kiminsə qəlbinə sız.
Evdə oturmaqla, qız,
De, səni alan olar?

**ÜRƏYİM BİR DƏFƏ OĞURLANIB**

Elə yıxılasan baxışlarımdan,
Ayağa qalxmağa heyin olmaya.
Bir çılpaq məhəbbət soraqlayasan,
Tapasan, axırda sənin olmaya.

Çəkəsən həsrəti gözündən iraq,
Telində müqəddəs əl izi ola.
Qonşular görəndə deyə ki, bayaq
Bu qızı indicə salmışdıq yola.

Üzümü ağardan üz olmadımı,
Yoxsa taleyini boşa çəkdilər?
Ayrılmış qadınlar xəritəsində
Bu qızın adını qoşa çəkdilər.

Daha çək gözünün ipini məndən,
Gözüm kirpiyimlə çox budanıbdı.
Ürəyim bir dəfə büdrəyib mənim,
Ürəyim bir dəfə oğurlanıbdı.

## QAÇIB ÜRƏYİMDƏ GİZLƏNƏN QADIN

Harda gizlənsəydim, gəzib tapardın,
Məni addım-addım izləyən qadın.
Qorxuram bayırda səni taparlar,
Qaçıb ürəyimdə gizlənən qadın.

Yumma gözlərini, tanıyım səni,
Gizlənqaç oynuna vaxtımız çoxdu.
Axtarsan, yerində taparsan məni,
O yer ürəyimdi, başqa yer yoxdu.

Uşaqlıq eşqimin yuxusu fağır,
Yatmağa yerin var, içməyə suyun.
Yuxulu gözündən məhəbbət yağır,
Bu necə iş idi, bu nə cür oyun?

Daha gözlərimi yuma bilmirəm,
Qorxuram, xəlvəti çıxıb gedəsən.
Qonşu qızlarından ötrü darıxıb,
Təzə ev-eşiyi yıxıb gedəsən.

Gecələr yuxumda görürəm səni,
Gündüzlər gözümdə təzələn, qadın.
Ürəyim məhəbbət abidəsidi,
Qaçıb ürəyimdə gizlənən qadın.





Hikmət FƏRZƏLİYEV

* * *

Öz bıçağım öz canıma susadı,
Bu günəcən heç yarası sağalmır.
Əvvəlindən pay düşübdü bəxtimə,
Nə əvvəli, nə sonrası sağalır.

Heç bilmirəm astarı nə, üzü nə,
Yüz söz desə, dünya girməz gözümə.
Mən gülməyi unutdurdum özümə,
Hər sevincim qan bahası, sağalmır.

Gah yağışda, gah gün altda gözlədim,
Sirri -Xuda, mən sirrimi gizlədim,
Allah şahid, heç əlimi üzmədim,
Qırxa çatdım, intəhası... sağalmır.

* * *

Yataq-yorğan qor içində,
Çırpınıram tor içində.
Əvvəl-axır gor içində
Qalan canı nə bəslərsən?

Hey küsən gördüm umanı,
Yüz yerə gedir gümanı.
Qoyub cənnətdə buğdanı,
Sən samanı nə bəslərsən?

Alınar qala bildiyin,
Böyüyər bala bildiyin,
Şeytanın ala bildiyi
Boş imanı nə bəslərsən?







# ARZU GƏMİSİ

Ziya ALAR

Atası onları qoyub gedəndə o, beşikdə mışıl-mışıl yatırdı və dünyadan xəbərsiz olduğu üçün xoşbəxt idi. Ağlı kəsəndə hamı kimi, o da atasını tanımaq istədi. Anasından soruşdu. Anası xəritəni yerə sərib oğluna Qazaxıstanı göstərdi.

- Atan burdadı. - dedi, - Aktau şəhərini görürsən, bax burda. - O, barmağını xəritənin üstünə qoydu.

- Bəs deyirdin atam uzaqdadı. Bura ki bizə lap yaxındı. Xəzərin o tərəfi... Mən atamı görmək istəyirəm.

Anası onun başını sinəsinə sıxdı ki, kövrəldiyini oğlu görməsin.

Oğlan əl çəkmirdi, xəritəyə elə baxırdı ki, elə bil bu saat atasını görəcək.

- Ora necə getmək olar? - Soruşdu.

Anası kağızdan balaca bir gəmi düzəldib xəritənin üstünə qoydu.

- Gəmiylə.

O gecəni oğlan səhərə qədər yatmadı. Xəyalında gəmilər düzəltdi, kapitan oldu, yelkən açdı, Aktau limanına çatdı. Sahildə onu gözləyən balıqçı atasıyla qucaqlaşıb görüşdü. Atası hündürboy, qara bığlı, qüvvətli bir kişi idi. O da oğlu üçün darıxmışdı. Hətta ona Aktau uşaqlarının oynatdığı oyuncaqlardan da alıb...

Səhər xəritəni götürüb evdən çıxdı. Velosipedini sürüb boz qayalı, sarı qumlu ləpədöyənə gəldi. Xəritəni yerə sərib, gəmi düzəltdi. Qayalığa çıxdı. Əvvəl gəmini dalğalara atdı, sonra özü onun içinə tullandı...

Qayıqdan dənizə tor atmış balıqçılardan biri uşağın dənizə atıldığını gördü. Həyəcanla bağırdı, sonra sahilə tərəf kürək çəkdilər. Qayığa bərkidilmiş tor suyun altıyla sahilə tərəf çəkildikcə qarşısına keçən hər şeyi udurdu.

Balıqçılar qayalığa gəlmişdilər. Bir nəfər ən cəsarətlisi suya baş vurub uşağı suyun altında axtarırdı. Qayıqdakılar həyəcanla gözləyirdilər ki, indi o zavallının cansız bədəni çıxacaq, amma çıxmadı. Balıqçı çarəsiz halda qayıtmışdı. Kimsə dedi ki, dalğıclara xəbər vermək lazımdı. Yanındakı yoldaşı etiraz elədi:

- Gəlib görsələr tor atmışıq, bizi cərimələyəcəklər. Gərək toru yığaq, sonra. Onsuz da uşaq ölüb.

Axşamı gözlədilər. Toru yığanda heç vaxt qarşılaşmadıqları nəhəg bir balığın torda çırpındığını gördülər. Uşağın faciəsi unudulmuşdu və o kədərin yerini balıq sevinci tutmuşdu. Toru tez-tələsik çəkib balığı qayığın içinə saldılar. Balıq elə çırpınırdı ki, az qalırdı qayığı aşırsın. Beş-altı kişi balığı saxlaya bilmirdilər. Başa düşürdülər ki, belə getsə, balıq qayığı çevirəcək və onlar da dənizə düşəcəklər. Balıqçılardan biri iri bıçağını çıxarıb balığın başını kəsdi.

Balıq ölmüşdü. Gətirib sahilə çıxartdılar. Ağır olduğundan qayıqdan düşürməyə gücləri çatmadı. Qərara gəldilər ki, doğrayıb aparsınlar. Başından quyruğuna qədər yardılar və uşaq sürüşüb ayaqlarının altına düşəndə həm qorxdular, həm də heyrətlərindən donub qaldılar.

O sağ idi. Əli bıçaqlı balıqçı uşağı dikəltdi, kürəyinə bir-iki dəfə ehmalca vurdu. Uşaq ayıldı, başını qaldırıb onu tutan adama baxdı:

- Aktauya çatdım? Mənim atam sənsən?

# «Qadın şeirə yerləşməz, Qadın şeirin özüdür...»




Cahangir MƏMMƏDLİ

*Filologiya elmləri doktoru, prof.*


Ulucay Akif hələ tələbədir. Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin tələbəsi. Mənim də tələbəmdir və mən onu “informasiya adamı”ndan çox “bədii təfəkkür” adamı kimi görməkdəyəm. Əvvəlcə onu Akif Səməd kimi bir azadlıq mücahidinin oğlu kimi sevdim. Sonra həm də yeni məzmunlu, özünə məxsus üslubu olan bir şair kimi də qəbul etdim.

Əllərimin soyuqluğundan,
Üstümün toz-torpağından
Gözlərimin bozluğundan anladınmı
Mən dəli küləklər şəhərindənəm?

Ulucay bu şeirdə yüz illərin poeziya obyektlərini tamam yeni rakursda təqdim edib və “Boz şəhərin adamı” adlı bir şeirindən gətirdiyim bu misralar onun poetik düşüncəsinin maraqlı bədii göstəricisidir.

Gördüm ki, Ulucayın şeirlərində qəribə bir vizuallıq var və bu şeirlərdəki poetik sözlə poetik görüntülər oxucuya gerçək hadisəni ünvanlayır:

Sənin bayramında əlimdə güllər,
Durub gözləyirdim yağış altında.
Deyirdim, bəlkə də, gül üzün gülər,
Bəlkə, rəqs edərik yağış altında.

Bu poetik misralarda hətta hələ görüşə gəlib çıxmamış bir qızın bədii portreti var. Və bədii portreti vizual görünüşü ilə gerçəkləşmiş bir görüşün gerçəkləşməmiş rəqs anı lentə alınmış səhnə təəssüratı yaradır.

Ulucayın şeirləri düşünən və düşündürən misralardan yoğrulur. Bəzən bu misraların rəng çaları o qədər mürəkkəb olur ki, onları anlamaq da çətinləşir. Amma, məsələn, mənim üçün düşündürən şeir daha maraqlıdır və şairin həm də intellekt göstəricisidir.

Həyat gözləməkdi...
Doğulandan ölənə kimi.
Həm də nəyi gözlədiyini
Bilmədən gözləmək.

Bu, bir universitet tələbəsinin- hələ çox gənc olan bir şairin düşündürən şeir perspektividir.

Gənc şairin “Həyat” şeirindən misal gətirdiyim bu bəndin mənası həyatın sevmək, yaşamaq, tələsmək, gecikmək, ölmək kimi atributlarının dəyərlərinə və dəyərsizliklərinə poetik bir baxışın düşündürən ifadəsidir.

Ulucayın şeirləri giley-güzarla doludur: şəhərdən gileyli, ömürdən gileyli, həyatdan gileyli. Amma bu gileylərin hamısında keçmişdən gələcəyə

aparan yolun nostalji hissləri var. «Unudulmuş uşaqlıq» şeirindəki kimi:

Uşaqlığım yadımdan çıxır artıq,
Hissə-hissə, parça-parça unuduram
Qayğısız günlərin ləzzətini.

Bu, gəncliyindən çıxıb həyatın eniş-yoxuşlarına hazırlaşan bir gəncin öz keçmişinə nostalji hissləridir. Və müəllifin, bəlkə də, öz fərdinə aid bu nostalji hisslər oxucuya da doğmadır və hər kəsdə uşaqlıq illərinin ötüb keçən anlarına təəssüf hissi yaradır.

Mən Ulucayın şeirlərinin düşündürən məqamlarından ayrıla bilmirəm. Hətta bəzən bu düşüncələr müdrik bir insanın, dünyaya çoxdan bələd olan bir adamın təfəkkürünə oxşayır. «Unudulmuş qəbirlər» şeirindəki qəbir daşları ilə bağlı düşüncələr qəbristanlıq və baş daşlarının portret cizgilərindən daha çox insan və həyat fəlsəfəsinin mahiyyətinə köklənir:

Unudulmuş qəbirlərə bax hərdən,
Axır-əvvəl səni də bu gözləyir.
Barışmaqdan başqa nə gəlir əldən,
Axır-əvvəl məni də bu gözləyir
Əyiləcək nə zamansa baş daşın,
Ot basacaq məzarını, ruhunu.
Ya nazir ol, ya istərsən daş daşı,
Dünya qəbirləri yaxşı qorumur.

Ənənəvi şeirə meyilli oxucu üçün bu misraların, poetik nöqsanları da ola bilər, ancaq indiki halında bu sətirlərdə dünya, həyat və ölüm kimi əbədi anlayışların mahiyyəti öz əksini tapıb.

Ulucayın yuxarıda vurğuladığım müdrik düşüncələri bu şeirdə də özünü göstərir. Bu şeirin məzmununda dayanan qəbiristanlıq, baş daşları kimi ədəbi dünya predmetləri poetik sətirlərdəki görüntüləri ilə bizi həyatda yaxşı iz qoymağa çağırmaqdadır.

Ulucayın şeirində məntiqə sığmayan qəribə bir məntiq var:

Təsəllilərin ən pisi,
Tək ölənlərin növbəsi.
Şeirlərin ən zəifi,
Deyilməyən sözlərin ən güclüsü…

Yaxud:

Bircə «sevirəm» sözünə görədir
Bu qədər şeir yazmağım.
Bütün sətirlərim acizliyimdir,
Bütün misralarım
Redaktə edə bilmədiyim hisslərimdir…

Çox maraqlı və orijinaldır. Bəlkə, bir zamanlar elə Pasternak da, Voznesenski də beləcə başlayıb. Bəlkə, elə Nazim Hikmət də ilk şeirlərini bu tonda yazıb. Bəlkə, elə ona görə bu gəncdən də gənc şair, şeirlərindən birini “Nazim Hikmətin xatirəsinə” adlandırıb. Şeirində heç bir Nazim Hikmət-zad yoxdur, sadəcə, bu şeir o böyük şairin ruhundadır:

… Sən də ümidlərini geyin ruhuna,
Gülümsə, günəşli günlərin xətrinə, gülümsə.
Bax, yumurtadan cücə çıxırmış kimi,
Yeni şəhər çıxır bu şəhərin uçqunları altından.

Şeri oxuyuram və neçə illər bundan əvvəl-hələ mən tələbə olanda böyük Rəsul Rzanın “Qayğı sözü və qayğı özü” adlı heç yaddançıxmaz bir məqaləsini xatırlayıram. Onda qocalar bir azdan “altmışıncılar” adlandırılacaq istedadlı bir gəncliyə-gənc ədəbi qüvvələrə qısqanclıqla yanaşanda, poeziyada yeni formata əsəbiləşəndə Rəsul Rza o məqaləni yazdı və o ədəbi qüvvəni, o gəncliyi cəsarətlə müdafiə etdi. Əlbəttə, indi gəncləri müdafiə etməyə ehtiyac yoxdu. Amma nədənsə ağlıma gəldi ki, R.Rza Ulucayı da müdafiə etdiyi ədəbi gənclərin siyahısına salardı.

Ulucayın şeirlərinin tematikası rəngarəngdir. Bu rəngarəngliкdə həyat və ölümə daha çox pay düşsə də, sevgi notlarının yeri heç də daralmır. Gənc şairin sevgisi həm də orijinaldır. Bu sevgi nə Məcnunsayağıdır, nə də Fərhad qəhrəmanlığı. Bu sevgi gerçək həyatın lövhələridir və bu lövhələr nə qədər fərdi xarakter daşısa belə, yenə də ümumiləşir və hər kəsin yaşadığı bədii təsvirinə çevrilir:

Bizim sevgimiz ibadət idi elə -
Səni qucaqlamağım,
Sənə baxmağım,
Dodaqlarımızın qovuşması,
Sevgi sözlərimiz…
Nə zaman dindən çıxdıq, bilmirəm.

Yaxud:

Saçlarını tök sinəmə,
Hop qəlbimə gülüşünlə.
Mən ölmüşdüm, geri döndüm
Sənin bircə öpüşünlə.

Ulucay sevgi şeirlərində də orijinaldır və düşünməyə, gizlinləri duymağa imkan yaradır:

Mən yağış yağanda öləcəm, gülüm,
Şimşəklər çaxacaq, hamı duyacaq.
Mən yağış yağanda öləcəm, gülüm,
Mənim günahımı Tanrı yuyacaq...

Ümumiyyətlə, təbiətin bir sıra hadisələri- yağış, külək, tozlu səma, şimşək və s. Ulucayın poeziya predmetləridir. Və bu gənc şair bu predmetləri uyarlayaraq, birinin digərini tamamlaması prosesini təcrübəli bir qələm sahibi kimi ortaya qoyur. Yuxarıdakı misralarda- yağış, külək və Tanrı anlayışlarının uyarlılıq seqmenti poetik tapıntı kimi mənə maraqlı gəldi.

Ulucayın sevgi şeirləri sırasında beş misralıq biri də var. Bu beş misra bütöv bir lövhəni əks etdirir və bu lövhəni heç də hər kəs görə bilmir, amma şeirdən sonra hər kəs lövhəni özününküləşdirmək istəyinə düşür:

Heç bitməsini istəmədiyim
kitab kimisən.
Küləkli havada oxuyaram səni,
saçların kitab səhifələri,
barmaqlarım əlfəcindi.

Ulucayın poetik tematikasında sırasında bizim bəzən banal predmet kimi qəbul etdiyimiz şəhər və kənd mövzusu var. Bəlkə, doğru deyil ki, bu gənc şair şəhər və kəndi qarşı-qarşıya qoyur, bəzən kəndə üstünlük verir. Amma bu da həqiqətdir ki, bütün şəhərlərə bütün insanlar kənddən gəlib. Ən azı ona görə ki, kənd ilkindir, şəhər törəmədir. Ən «köklü» şəhərli də haçansa mütləq bu şəhərə ilkindən-kənddən gəlib. Ona görə qoy şəhərliləşmiş kəndçilər heç inciməsinlər ki, özü də şəhərdə doğulub şəhərdə böyümüş Ulucay bir az ürkək şəkildə kəndə üstünlük verir. Hətta bir kənd qızının universitet həsrətilə şəhərə gəlməsindən də ehtiyat edir, narahatlıq keçirir. Şair «Kənd qızı» şeirində:

Süsənli, sünbüllü kənd qoxusuyla,
Oxumaq eşqiylə, elm arzusuyla,
Yarımçıq qoyduğu o yuxusuyla,
Bir payız səhəri gəldi Bakıya -

deyə kiçik və nağılvari bir süjet xəttilə o kənd qızının ilk anlarındakı sevincinin aldadıcı mahiyyətini verir və ismətli bir kənd qızının şəhər həyatına düşəndən sonrakı vəziyyətini belə təsvir edir:

Sünbül hörükləri açdı kənd qızı,
Yaxa düyməsini açdı kənd qızı,
Elə bil özündən qaçdı kənd qızı,
Axı niyə gəldi o qız Bakıya?



Bir çox şeirlərindən görünür ki, Ulucay üçün bəzən ideya birinci sıraya çıxır. Belə yerdə, əlbəttə, gənc şairi qınamaq da doğru deyil, çünki ideyamı, sənətkarlıqmı - sualının yaşı elə böyük ədəbiyyatın yaşı qədərdir. Belinski dövrü rus ədəbi-tənqidi düşüncəsi də bu suallardan yan keçməyib.

Əlbəttə, əsl sənət ideya ilə sənətkarlığın vəhdətindən yaranır. Amma kim nə deyir-desin, mənim üçün Ulucay yaşında gənc bir şairin milli-mənəvi dəyərlərlə bağlı bir ideyanı üstün tutması çox faydalı görünür. Onsuz da dünyanın qloballaşma çağında, informasiya texnologiyasının milli dəyərlərə yaratdığı etinasızdlıq dövründə gənclərin bir küll halında nəyə meyil etdiyi bizi qayğılandırmaqdadır. Qoy Ulucaylar milli ruhla bağlı ideyaları önə çəksinlər, belələri sənətin mütləq kanonlarını lap tezliklə mütləq qəbul edəcəklər. Təki ürək olsun, təki millilik hər şeydən üstün olsun!



Ulucay elə indidən, məsələn, azərbaycanlı qadının klassik obrazını yaxşı dərk etmiş, onu elə bu klassik yöndən təsvir edən bir şairdir. Sadəcə "Qadın" adlandırdığı bir şeirində olduğu kimi:

Sənin gözəl gözlərin, saçların,
Saf təbəssümün, incə barmaqların,
Şux qamətin, zərif addımların,
Kişilərin arxanca baxmaqları...
Bütün şeirlər, bütün romanlar sənə yazılıb...

Ulucayın şeirlərində mənim yaxşı tanıdığım bir Ulucay məsuliyyəti var. Onun şeirlərində xalq dili, bənzərsiz üslubi çalarlar var. Və həm də bu şeirlərdən nigarançılığı var:

Yenə sevgi cümlələri
Gəvələyirəm şeirimdə,
Yenə güləcək insanlar
Məni üzən şeirlərlə...

Bu, Ulucay təvazökarlığıdır. Masamın üstündə elə bu anda maraqla oxuduğum bir kitab şeirin əksəriyyətində istedadlı bir şairin yaradıcılığı var və bu yaradıcılıq sabah daha parlaq, daha işıqlı olacağını vəd edir.



**MÜHARİBƏ**

Nənəmin tellərində bəyazlaşmışdı
müharibə.
Ala gözləri qonurlaşmışdı yanğıdan.
Uşaqlarının atasıydı qara dam.
Hər dəfə dəcəllik edəndə, bu gecə payını
qardaşın yeyəcək, - deyərdi bibilərimə.
Beləcə qara kağız öpdü nənəmin kəhrəba
əllərini.
Hər gün öldü nənəm!
Hər gün ehsan yedik.
Uşaq vaxtı elə bilirdim ki,
müharibə qara kağızlardan ibarətdir.
Babamı qələmlə qətlə yetiriblər.
Nənəm son dəfə öləndə
gözündəki yaş nəsə deyirdi...

Gülnarə İSRAFİL

**PAYIZ**

dəli külək əsir üfüqdən,
torpaq gömgöy.
xəzəllənib göy üzü,
sarı gəlin deyir nənələrimiz
dəyişkən havalıya.
tumurcuqlayır,
çisələyir arabir  bulud.
qırov bağlayır
biçilmiş otların kökü.
palıd yığmağa gedir
kənd qadınları meşədən.
fıstıq dibinə tökülüb,
sevinir uşaqlar ...
səsi xışıldayır arabir.
qızıllanır yarpaqlar
əynini dəyişib
ağ gəlinlik geyinir xınalı gəlin.
deyəsən,
qışa gedir payız.
üşüyürəm,
qıvrılıram içimə,
qucaqlayıram qollarımı
otağım yandırır
yatağımı,
üşüyürəm,
titrəyirəm,
səsim doğrayır səssizliyimi.
sərçələr civildəşir
və uzaqlaşır
təyyarə uçur beynimdə.
qışqırmaq.
arzularım ölür,
yığılıram,
açılıram,
tovlayıram sadəliyimi,
üşüyürəm...
yad zümzümə qulağımı deşir -
pyes yazır,
bitirirəm faciəmi...

**BAŞLANĞIC SEÇDİK**

Bəzən ölümün qoynunda
ölümlə sevişdik.
Bəzən göy qurşağı oldu
gözümüzdən damcılayan isıq.
Bir ovuc ümidləndik buludlara,

bir ovuc küsdük ləpələrə,
ovcumuz qurudu nəfəsimizdə,
yalnız bir təbəssümə qonaq getdik.
Düzənlər
pıtraq oldu üstümüzə.
Diddik məsafələri,
göynətdik yolların qız üzünü.
Bir bahar sevdasına ümidləndik.
Başlanğıc suyu seçib
suladıq çərşənbələri,
islatdıq özümüzü,
aydınlığa çıxdıq hər il,
ilimiz kübarlandı.
Başlanğıc odu seçib
qaladıq hərarətimizi,
isitdik bir-birimizi.
Oturub küləyin qanadına
uçduq ildən-ilə.
Və bir gün
torpaqdan qaçıb
torpağa qaçdıq,
sevdik cismimizi -
hoppanıb düşdük özümüzdə.
Çürüntümüzlə yeni yaşıllıqlar göyərtdik.
Bircə çiçək olub ətirləndik,
bircə yarpaq olub gizlətdik
suquşunu budaqda.
Bircə-bircə torpaqlaşıb
bircə-bircə göyərdik.

**SİNƏMİZ ÜSTÜNƏ**
**DAŞ APARMIŞIQ**

Köhnə damımızın qapısı qırıq,
Çəkib örtmək üçün cəftəsi yoxdu.
Döşəmə üstündə rahat gəzmirik,
Tol çəkib atamız, taxtası yoxdu.

Bu həmənki bağdır, həmənki yaylaq,
Nənəm cəhrə qurub yun əyirməyir.
Kürsü çörəyinə həsrət qalmışıq,
Qonşu çörək üçün qapı döyməyir.

Daha yığılıbdı yaslarımız da,
Toyumuz mağarda çalınmaz olub.
Bəxti gətirməyən qız-gəlinlərin
Adına ad gəlib, alınmaz olub.

Bu dağın daşı da köçüb aşağı,
Nə qədər dünyada köç maşını var!
Atam, at əvəzi bir eşşək minib,
Qonşu harınlayıb, üç maşını var!

Bu nədir, Allahım, bu nədir belə?
Kişinin üzü də tarımlanıbdı.
Yetimin malını yemək düşməyib,
Malı yeyən kəslər qarınlanıbdı.

Gəlib çiynimizə ili yükləyib,
Zamandan sadəcə yaş aparmışıq.
Dünyanın gözünü tapdalayıb da...
Sinəmiz üstünə daş aparmışıq.

**GƏNCLİYİN YUXUSU**
**APARDI MƏNİ**

Bu qış da ömrümə nağıl danışdı,
Nağıl yaman doğma, yaman tanışdı,
Uşaq yuxularım dağılmamışdı,
Gəncliyin yuxusu apardı məni.

İllərim, aylarım, fəsillərim çin,
Hər gecə, hər gündüz, ömür bir əlçim,
Bulud arasından doğub göyərçin,
Yağış damlaları yapardı məni.

Nə qış axşamıydı, yaz axşamıydı,
Nə gün işığıydı, nə ağ şamıydı,
Bu ömür, ömrümə heç oxşamırdı,
Ayılıb, ayılıb tapardı məni.



# ...UÇMAĞI ÖZÜN ÖYRƏN

*Müsahibim tənqidçi İradə Musayevadır. İradə xanım səmimi, zərif düşüncəli ədəbiyyat təəssübkeşidir. Söhbət zamanı tənqidçidən təkcə ədəbi fikirlərini, nəzəri biliklərini, oxuyub-oxutduqlarını öyrənmədim, ədəbiyyatçıda həm də böyük, coşqun sənət eşqi hiss etdim. Və bu enerji söhbət boyu bizi izlədi... İradə xanım tənqidi yaradıcılığını iki hissəyə ayırır: nəzəriyyə üzərində qurulmuş yazılar və konkret mətn üzərində təhlil. Birinci təsnifata daxil olan yazılarını daha çox sevdiyini söyləyən tənqidçi bunun səbəbini onlardakı "həqiqi axtarış" xüsusiyyəti ilə izah edir. Tənqidçi düşünür ki, bizi narahat edən əsas məsələ – "niyə bizdə böyük ədəbiyyat yetişmir?" sualı olmalıdır. Əlbəttə, bundan öncə böyük ədəbiyyatın nə olduğunu bilməliyik... Biz isə söhbətə İradə xanıma bu yaxınlarda təqdim edilmiş ədəbi mükafat barədə təəssüratları ilə başladıq.*

**Müşfiq ŞÜKÜRLÜ**

**- Əvvəlcə bu yaxınlarda aldığınız "Əli bəy Hüseynzadə" adına mükafat münasibətilə sizi təbrik edirəm.**

Çox sağ olun.

**- Sizcə, internet əsrində Əli bəy Hüseynzadə kimi nəhəng şəxsiyyətlərin yetişməsi mümkündürmü?**

- Əli bəy Hüseynzadə mənim ən çox sevdiyim mütəfəkkirlərdən biridir. Əvvəla, onu deyim ki, bir azərbaycanlı üçün onun adını daşıyan mükafatı almaq böyük fəxrdir. Üstəlik, bunu "Ədəbiyyat qəzeti" tərəfindən almağım məni sevindirdi. Açığı, 2012-ci ildə qəzeti tənqid etmişdim. Ancaq sonralar "Ədəbiyyat qəzeti"nin taleyində bir çevriliş, dəyişiklik baş verdi, bir canlanma yarandı və öz rəqiblərini sözün həqiqi mənasında qabaqladı. Bu mənada belə bir mükafatı "Ədəbiyyat qəzeti"ndən almaq məni sevindirdi... Sualınıza gəldikdə isə, hər şeydən əvvəl Əli bəy Hüseynzadə praktiki olaraq Azərbaycan mütəfəkkiri idi. O, 1900-cü ildə Bakıya gəlir və burada qaldığı müddətdə göstərdiyi fəaliyyətlə Cümhuriyyət dövrünün yaranması üçün bir zəmin hazırlayır. "Füyuzat"dakı və bundan öncəki mətbu fəaliyyəti, tərcümələri, milli şüurun oyanmasında rolu və sair - gördüyü işlər gələcəkdə yaranacaq Cümhuriyyətin, onun vətəndaşının - bir azərbaycanlının konstitusiyasını hazırlamaq demək idi. İnternetdə isə bu cür mütəfəkkirin yetişməsi çətindir. Biz internetdə hazır məhsulu alırıq və sanki hər şeydən xəbərimiz var. Ancaq bir də var, özün istehlak edirsən. Əli bəy Hüsenzadəyə ensiklopediklik, universallıq, bir cəmiyyətə, bir qəlibə sığmayan mütəfəkkir və məktəb yaradıcısı kimi ümumbəşərilik xüsusiyyətləri xasdır. Təbii ki, belə bir insan internetdə yetişə bilməz. Bizim internet biliyimiz şüşə arxasından, qeyri-verbal, cansız ünsiyyətdə meydana çıxan yaddaş kitabçasıdır. Yaddaş kitabçasıyla isə böyük işlər görmək olmaz.

**- Tənqidi sevirsiniz?**

- Əgər obyektiv tənqiddirsə, mən üzr də istəyə bilərəm. Mənim tənqidim də obyektiv olmaya bilər, yaxud səhvlərə yol verə bilərəm. Ancaq məndə məqsədli yanaşma yoxdur. Yalnız inandığımı yazıram.

**- Gənc yazarlarımızın mütaliə və istedadlarına münasibətinizi öyrənmək istərdim...**

- Ümumiyyətlə, gənclərin mütaliəsindən razı deyiləm. Formaca dəyişən, inkişaf edən, müasir geyimli, texnologiyaya bələd gənclərimizin əksəriyyəti dünya ədəbiyyatından xəbərsizdir. Ancaq ədəbiyyatda olan gənclərin mütaliəsi yaxşıdır. Düzdür, biz təxminən 70 il ədəbiyyata, mütaliəyə gecikmişik. Yəni dünyayla əlaqələrimiz, bağımız bir az da gecikmiş bir prosesin davamıdır. 50-60-cı illərin məşhur əsərləri bizdə hələ təzə-təzə çap olunur...

**- Bu fikri tez- tez eşidirəm: ədəbiyyata səs-küylə, böyük uğurlar vəd edərək gəlib, istedadı, ulduzu tez də sönüb gedən gənc yazarlar. Problem nədir? İstedad nə üçün parlayıb-sönür?**

- Musiqi aləminə gələn müğənnilər də var ki, əvvəlcə musiqiyə aidiyyatı olmayan bir detalla gündəmə gəlir, fərqlənir. Misal üçün, qeyri-etik bir davranışı ilə diqqəti cəlb edir. Sonra isə başlayırlar onu tənqid etməyə və nəhayət, tənqid edə-edə ondakı əsl müğənnini axtarmağa çalışırlar. Bax birinci səsi ilə yox, davranışı ilə özünü tanıdan müğənnilər kimi ədəbiyyatımıza da bu cür səs-küylə gələnlər var. Ancaq bu səs, müəllifin kitabını oxumağa imkan vermir. Bizim bu növ nasirlərimiz var. Ədəbiyyatda parlayıb-sönmək məsələsi yoxdur. Kiminsə əlindən tutub gələn, kimlərinsə parladıb-söndürdüyü insanlar ola bilər. Bunun əsas iki səbəbi var: yaradıcılığa süni şəkildə gələnlər və tənbəllik edib yarı yolda uzaqlaşanlar.

**- GƏM və bu kimi yaradıcı məktəblərin ədəbiyyatımıza təsiri varmı?**

- Mən, ümumiyyətlə, ədəbiyyatın qəlib-lənməsinin tərəfdarı olmamışam. İstər Yazıçılar Birliyinə, istər Azad Yazarlar Ocağına, istərsə də yaradıcılıq məktəblərinə bir ədəbi məclis kimi baxıram. Yəni adamlar cəmlənib fikir mübadiləsi etsin deyə bu qurumlar, məktəblər var. Misal üçün, "Natəvan" klubunda "məclisi-üns" tipində görüşlərin keçirilməsi, kitabların müzakirələrinin aparılması, əlbəttə, müsbət haldır. Ancaq əgər yazarlar bir məclisə toplaşıb, müəllifin kitabını da oxumadan onu tərif yağışına tutursa, onun barəsində səxavətli nitqlər söyləyirsə və məqsədləri yalnız bundan ibarətdirsə, buna müsbət baxa bilmərəm. Özü haqda tərifi onsuz da qohum-əqrəba toylarda deyir. Yəni bu kimi birliklər, qurumlar əgər yalnız müdiriyyət olaraq qalırsa, əlbəttə, ədəbiyyata ziyan vurur. Ədəbiyyat zəncirlənməməlidir, onda yeni nəfəs olmalı, azadlıq olmalıdır. Əgər işlədiyin orqanın, cəmiyyətin əleyhinə məqalə yazacaq gücdə deyilsənsə, o zaman həmin orqanın fəaliyyəti zərərlidir. Sözün altına yığışmaq lazımdır, damın altına yox.

**- Azərbaycan ədəbiyyatının dünyaya açılımını Sizif məşəqqəti ilə eyniləşdirirsiniz. Bu, ümidverici və sevindiricidir. Bəs ədəbiyyatımızın dünyaya çıxışı necə və hansı şəkildə olacaq?**

- Azərbaycan ədəbiyyatının dünyaya təqdim olunması üçün onun özünün bir konsepsiyası olmalıdır. Yəni ədəbiyyatımızda özünü məsul hesab edən şəxslər ancaq antologiyalar hazırlayıb dünyaya çıxarmaqla Azərbaycan ədəbiyyatını dünyaya təqdim etmirlər. Bu qalıb klassik dövrdə. Biz elə bil onlara bir muzey əşyası göndəririk. Bu günün ədəbi düşüncəsini dünyaya göndərəndə isə adlar çıxır, ədəbiyyat yox. Bir sözlə, əsərlərini çap edə bilən, üzə və xaricə çıxara bilən müəlliflər. Bu isə ədəbiyyata yox, inslara xidmətdir, XXI əsr Azərbaycan ədəbi düşüncəsinin yox, obrazların təqdimatı deməkdir.

**- Sonda istərdim bir gənc yazara tövsiyələrinizi verəsiniz...**

- Tövsiyəm budur ki, öz ruhlarını, düşüncələrini azad saxlasınlar. İstedada qayğı lazım deyil, qayğı insana lazımdır. Gənclər göstərilən qayğının fərqində olsunlar və düzgün qiymətləndirsinlər. Məşhur sözdür: mən sənə qanad verə bilərəm, uçmağı özün öyrənəcəksən.



Mahmud MƏMMƏDOV

**ZAMANI EDAM EDƏK**

İp asıb buludlardan,
Zamanı edam edək.
Xoşbəxtlik adlı yola
Əl-ələ, birgə gedək.

Günəşin alovundan
İsinsin qəlblərimiz.
Şaxtada buz bağlasın
Dərdimiz, qəmlərimiz.

Qoşulub durnalara,
Gəl gedək uzaqlara.
Birlikdə layla deyək
Balaca uşaqlara.

Bələyək ulduzları,
Yağışa sığal çəkək.
Üzündən öpək ayın,
Dünyanın rəsmin çəkək...

**BU GECƏ**

Özündə ol bu gecə,
Qonaq olma özgələrə.
Özü gələ bilməyənlər
Gəlməsinlər yuxuna.
Yaxına buraxma üzsüz xəyalları,
Heç halı dəyişməyən ümidlərinə təsəlli ver.
Kəs əlini kirpiyindən sallanan buludların,
Qulaqlarından divarlara mismarla bəlkələri.
Ləkələrini təmizlə tozlu gecələrin,
Küçələrində gəz parıldayan ürəklərin.
Küləklərin ritmini dinlə bu gecə,
Özündə ol, özündə ol bu gecə...

Sən mənim bəyaz günəşimsən,
Sən mənin altıncı, kövrək hissimsən,
Bütün varlığımda duyuram səni.
Ac olsan, qapımı bircə kərə döy,
Saf, təmiz eşqimlə doyurum səni.

Mənim rəngarəng göy qurşağımsan,
Həyatın rəngləri gizlidir səndə.
Ruhumu axtarıb tapa bilmirəm,
Allahım ruhumu gizlədib səndə.

Sən mənim qapqara gecələrimin,
Bəmbəyaz səhəri, şirin sonusan.
Beynimdə dolanan düşüncələrin,
Böyük xəyalların sonsuz yolusan.

Sən mənim dünyamı nura boyayan,
Ömrümü isidən bəyaz günəşim.
De, axı nə qədər sənsizliyimlə
Savaşım, vuruşum, yalnız döyüşüm?..

**GÜN GƏLƏR**

Bilmirəm yuxudurmu,
İlahi, bu gördüyüm?
Tənhalıq həyatıma
Düyünlənmiş kor düyün.

Şad xəbər gözləyərəm,
Xəbər verməz qarğalar.
Qara pişiklər keçər,
Taleyimi qarğıyar.

Yağan yağış üstümə
Zamansız qəm çiləyər.
Qəfil çaxan şimşəklər
Yaramı qamçılayar.

Addım-addım izləyər,
Arxamdadır kölgələr.
İşıqladacam, əlbət,
Kölgələri, gün gələr...



# Pandoranın ümidi

Ləman AZƏR

Bu gün təsadüfən məni unutmuşdular. Səs, hay-küy, ümumiyyətlə, bir tıqqıltı belə yox idi. Niyə də bu fürsəti əldən verəydim?! Mən ulamayacaqdım, bu balaca ümid yerinə görə tullanıb-düşməyəcəkdim. Qorxudan, mən və mənim qövmümə verilən az qala çürümüş, kiflənmiş və iylənmiş yeməklərin xirtdəyiməcən dağ kimi topalanmış ağırlığından öyümək istəyirdim. İndi yeganə arzum var idisə, o da bütün içimi üfunətli zibilliyə qərq edən tullantıları öyümək, səxavətlərinin bir yumşaq və yeganə göstəricisi olan altımdakı xalıya qaytarmaq idi. Triumf da etməyəcəkdim, heç buna canımda hal, təpər yox idi. Bütün bunlar təvazökarlığın dili ilə desək, mənim hər deyəcək ələkeçməz azadlığıma məğrur yanaşmam idi. Bəli, elə bu dəqiqə üzünüzdə təbəssüm, yox, ya da ironik batmalar yarandı yanaqlarınızın çöküntüsündə, əfsus hazırki variantda qaçılmaz olan əsas məqam, külçəvari ağızəymələr də öz yerində. Bəziləriniz güldünüz, bəzilərinizsə gülümsədiniz halıma, bəli, mən də sükuta söykənmiş məğrur bir qəhrəman ola bilirəm lazım gəldikcə. Burnuma ləzzətli qoxular gəlirdi. Bu, taleyimlə əlbir olmuş şeytanın barmaqları idi, yəqin ki, düz burnumun ucundan yapışıb məni irəliyə dartmaq cəhdindən usanmırdı. Mənsə yerimdəcə ayaqlarımı mismarlayıb, güc göstərib dirənməkdən bezmirdim. Qüvvəm çatmırdı, bu pəjmürdə halımla daha nə qədər mübariz olacaqdım ki?! Müxtəsəri, mənə və qövmümə üz verən fəlakətlərdən, divlərin, vəhşilərin yerlərimizi zəbt edib, evlərimizə yiyə durduqları andan, hafizəmdən silinməyən nəriltilərdən, zingildəmələrdən, ulaşmalardan, atışma və öz təbiətinin çevrilişindən təsirlənmiş mən hürməyə belə həvəslənmədim. Nə o yana-bu yana yırğalayacaq quyruğum, nə də bir para ətirli soba çörəyi üçün zingildəyəcək həvəsim yox idi. Əclaflar qulaqlarımı da kəsmişdilər, deyəsən. Hər yanımda, başımdan yuxarıda, ya da elə onun içindəcə uğultular mənə aman vermirdi. Bitlər də bir tərəfdən eşirdilər bədənimi, lap ağacdələn kimi. Sakitliyim heçə dönürdü belə vaxtlarda, başımla quyruğum bitişirdi az qala fırlanmaqdan, dişimlə hey yapışıb didmək istəyirdim ətimi insafsızcasına gəmirən qurdun başını. Yox, bu mənasız oyun idi, ona zərər verməyəcəkdim. Öz-özümçün qurduğum bu dəsgah mənasız müdrikliyini xatırlamağıma, darıxmaqların dərkinə düşməyimə mane olurdu bir azca da olsa, eynilə o axşamkı kimi. Bilirəm, bütün hekayələr, baş vermişlər belə başlanğıcla nəql olunur, amma mənimki siz deyən elə də uzun çəkməyib. Bilmirəm, bu başqa canlılarda necə baş verir, amma anam bizim doqquzumuzu bir dəfəyə balalamışdı. Atam da ki, qonşuluqdakı sığınacaqlı bəxtəvərlərdən

idi, onun evi var idi. Sahibindən və xaltasından heç cürə ayrı düşə bilmirdi, təsəvvürümə belə gətirə bilmirəm ki, o, anamla cütləşməyə nə vaxt imkan tapa bilmişdi. Mən göz qapaqlarımı təzəcə aralamağa başlamışdım ki, işıq ilk dəfə balaca gözlərimi yandıraraq hədəqəsindən çıxaracaqdı az qala. Onda da mən eyni qorxu hissinə yanaşmışdım və işıqla birgə rənglərdən təcrid olunub, hətta üç gün gözlərimi açmamışdım. Sonra balaca küçüklərin səslərinə qarışmış rahatlıq məndə inam yaratdı və mən gözlərimi açdım, başa düşdüm ki, qorxum məni nələrdən məhrum etdi. Onlar heç mənə yemək saxlamamışdılar, anamın döşlərindəki südü son damlasınadək çəkib çıxartmışdılar, onun qollarının arasına, qayğısına sahiblənmişdilər. Mənsə bütün bunlara etina göstərmədən eləcə kənarda qalmışdım. Bu yalqızlıq deyilən şeyin ən yüksək məqamı və həddi idi. Hansı ki, mən böyük bir xoşbəxtliyə bürünmüş qarğaşanın içində o qədər bədbəxt və qərarsız idim ki, əlimdən gələn ən yaxşı şey gözlərimi döymək və sahib olduqlarımla sahib olmadıqlarımın aralığında sadəcə tamaşaçı olmaq idi. Mən sevgisiz və ehtiyac olmadan, dəyəri bilinməyən sevimsiz olmuşdum gərək ki. Belə ki, həmən gün qərara aldım ki, mən atılmış və sevimsiz olmamalıyam və bütün qövmüm uyuyarkən qarlı qaranlıq bir axşamda, çovqunun qapı-bacanı taqqıldatdığı bir zamanda mən köhnə taxta qapının azca aralı qalmış bucağından sivişib öz ikiayaqlı arzularımı dörd ayağımın üstündəcə qismətimin ardınca apardım. Cəsarətimin və aşikar dəyanətimin mənə bağışlamış olduğu bu fövqəlşansın ilk bəhrələri ondan ibarət oldu ki, mən xoşbəxtlikdən bir meşin kisə və evimizə yaxın bir küçənin tinində yerləşən restoranın arxa tərəfində özümə sığınacaq tapdım. Düzü, nə yalan deyim, burdakı zibil qutuları o qədər qızardılmış ət və balıqla, cəmi bircə dəfə dişlənmiş cücə buduyla dolu idi ki, mən səyahətimin bu yaxın günlərində korluq çəkməyəcəyimdən bir xeylaq əmin idim. Hətta bəzən azuqəmi bitli-birəli, yesir günündə olan, ağzı-qulağı cırılmış boyumdan böyük çöl pişikləri ilə, uzun quyruq və sıx qara tüklərindən ürkdüyüm yekəpər siçovullar və bir qism kartonlardan özünə yuva düzəltmiş, hislə ətirlənən, kömürlə pudralanan, alt paltarını azı 6 ay dəyişməyən üfunət qoxulu kimsəsiz əyyaşlarla bölüşməli olurdumsa da, bunun mənimçün heç bir könül narahatlığı yox idi. Qar əriyincəyə qədər burada onlarla qardaş olmalı, daha sonra isə arzularımın ardınca dördnala çapmalıydım. Mən səyyah idim, balaca və dördayaqlı, heç kimin diqqət edib də mane olmayacağı qədər kiçik küçük. Amma gözlənilməz qəfil bir maneə çıxdı. Onun adı qorxu idi. Mən qorxurdum, qorxudan üşüyürdüm, səhərlər açılınca özümü yumalanmış, başım çirkli və soyuq pəncələrimin arasına girmiş, göz qapaqlarımın altını üstünə yapışıb, kipləşmiş halda tapırdım. Küçük göz yaşlarının yapışqanlığı idi onları bir-birinə bu qədər sıxan. Mən onda hələ qorxunun nə demək olduğunu dərk etməyəcək yaşda idim. Cəmi 6 aylıq idim və südün ılıq, mehriban qoxusu kimi, qorxu da mənə yad idi. Səhərlər acqarına balaca və nisbətən qoca köpəklərinki kimi sərtləşməmiş qarnımı qarın üstünə basaraq o baş- bu başa sürüşürdüm. Bəzən balaca pəncələrim buz kəsirdi və keyimişcə buzların üstü ilə irəliləyirdi, başqa məxluqlardan, xüsusilə mənim kimi tüksüz, daha güclü, daha gözəl olan insanlardan fərqli olaraq mən öz pəncələrimi öz nəfəsimlə isidə bilməzdim, yaxud da belə bir cəhdim baş tutsaydı, elə bir gülünc hala düşərdim ki. Bəs quyruğuma nə deməli?! Elə buna görə də mən özüm kimilərdən qaçmağa, bəlkə də, mənim simamda var olan ən ideal cinsi tapmağa yollanmışdım, hətta bəzən balaca bir gölməçənin yanından keçərkən ürəyimdən necə də şappaşap suyu şoruldadaraq içmək keçirdisə də, bu istəyimə mane olmağa çalışırdım, çünki əgər gündüzlər su içmək istəsəydim, suyun əksində miskin məni görərdim və mənim özüm haqqımdakı bu qanıqlığım mənə çox əzab verirdi, hiss edirdim ki, mən heyvanlığın möhkəm-möhkəm pərçimləndiyi bu zillətdən, üzümdən yaxa qurtarmalıyam. Elə məhz bunun üçün ailəmdən, evimdən qaçmışdım, bunun üçün bu balaca boyumla böyük və yüksəkpillələlilərin həyatına can atırdım. Qorxu bəzən inamı qırır, hətta səni ondan, onu da səndən ayrı salır, bəzən də Tanrının dərgahında olan və onun sənin həyatınla bağlı bütün qərar və hökmlərindən xəbərdar olan bir katibə çevirir səni. Nəticədə o deyir, sən isə özün öz taleyini yazırsan. Həm də mən nəsə kəşf etmiş kimi idim. Get-gedə havalar da yumşalırdı, bunu isə təbiətin və Tanrının mənə olan mərhəməti kimi qəbul edirdim.

Küçə sərgüzəştlərimin elə ilk çağlarını yaşayırdım ki, asudə gündüzlərin birində nəfəsimi dərib yenicə rahatlanmışdım ki, başımın üstünə qaranlıq çökdü. Heç nə başa düşmürdüm. Məni içinə necə gəldi zorlamaca sığışdırdıqları bu zülmətin, silindirin içində boğulurdum, dilimi çölə uzadıb havadan imdad istəyirdim. Bir az keçmədi ki, məni yeşikdən kartof boşaldırcasına bir sadə gen qutunun içinə tulladılar. O andan etibarən başa düşdüm ki, çıxış yolum yoxdur və bura mənim taleyimin bu günə qədər görməyi bacarmadığım üzlərindən biridir və mən hekayəmin bu parçasını sevməliyəm, ən azı onu sevməyə məhkumam. Nitqim tutulmuşdu, quyruğum keyimiş, pəncələrimin varlığını isə çətin hiss edirdim. Bircə iybilməm yerli-yerində idi. Necə unuda bilərəm o hündür çəpərlərdən daha əzəmətli və keçilməz qutunun içinə atıldığım andan bir neçə saniyə keçmiş mənə toxunan, balaca qara burnuma xırdaca zərif barmaqları ilə sığal çəkən, nəvaziş göstərən isti, pambıq kimi incə, rahatlıq gətirən dadlı əlləri. Ürkəkliyi və utancaqlığımı bir kənara qoyaraq müsafirliyimin bu ləziz hədiyyəsini, bu heç görmədiyim qayğısını hörmət əlaməti olaraq qəbul etməli, dilimi işə salmalıydım. Onun adı Sofi idi. Tüklərimi və balaca qulaqlarımı bir-birinə qarışdırarkən astaca qulağıma pıçıldamışdı, "sən mənim 21-ci ilimin ad günü hədiyyəsisən" deyə. Onun bu qıcıqlandırıcı, bədənimə gizilti salan qarmaqarışıq əzizləmə üslubunu bir o qədər bəyənməsəm də, amma özünü və dərisinin tamını, ona məxsus o şirin, dadlı qoxunu çox xoşlamışdım və beləcə birgə keçirəcəyimiz həyat bizi sonralar bir-birimizə çox bağlayacaqdı, bunu hiss edirdim.

Bir az da sevimli sahibəm haqda danışmaq istəyirəm. Sofi çox dadlı, möcüzə kimi gözəl, günəş kimi isti, lazımı qədər mehriban bir qız idi. Təxminən on üç yaşından anasız qalmışdı, çevrəsində mənim gördüyüm və tanıdığım yeganə qohumu olan atasıyla birgə yaşamağa məcbur qalmış kimi görünürdü. Şizofrenik xəstə olan anası onları atıb getmişdi. İçkili halında Condan eşitdiyimə görə, o, gördüyü hallusinasiyarın, eşitdiyi qəribə səslərin ardınca düşüb evi dövrələmə əhatə edən meşədə sadəcə yoxa çıxmışdı. Sofi isə baş verənlərdə ancaq Conu günahlandırırdı, çünki, onun fikrincə, istənilən kişi qadınında olan hər hansı irsi xəstəliyə belə güc tətbiq edə bilər, ya da bu xəstəliyi dəf etmək əvəzinə həmən qadını adicə dəliyə çevirə bilər. Bax buna çevrilmə yox, çevirmə deyirlər, hər halda Sofi belə düşünürdü. Birini günahlandırmaq lazım idi, ya yox, o vaxtdan məsul vəzifəli şəhər meri Con Braym gündəlik içdiyindən daha çox içməyə başlamışdı. Elə buna görə də onu işdən qovmuşdular, iyirmi bir yaşı yenicə tamam olmuş Sofiya isə şəhərin ən izdihamlı küçələrinin kəsişdiyi nöqtədə, Sun «Street»də dərzi köməkçisi işləyirdi və çox az məvacib alırdı. Gecəsini gündüzünə qatmağının qarşılığında, üstəlik, onun qatlaşdığı əziyyətlərə məcburən iyləməli olduğu göbəyi batmış əsilzadə xanımlarının, aristokratik cəmiyyətin xüsusi zövqlə geyinən əxlaqsızlarının qoltuq altını iyləmək, qusmaq iyi verən tərli, yağlı bədənlərini hər gün ölçüb-biçmək və əsl mənada ikrah hissi oyadan bu sırtılmış sifətlərə zorən də olsa gülümsəmək də daxil idi. Bütün bunlarsa hamının həyatında bir ayrı formada təzahür edən problemlərdən idi, bu sadə, qarayanız qızcığaz içdən-içə bir baxışıyla bir cüt mavisindəki qığılcımla o qədər çox ümid vəd edirdi ki, demək olmazdı ki, o xoşbəxt deyil. O xoşbəxt idi müəyyən mənada, amma Con və bütün dünyanın sakinləri daxil olmaqla hamı kimi ümidsiz idi.

Əvvəllər, yəni onların şəhərin mərkəzindən çox uzaqda yerləşən, digər evlərlə nisbətdə komanı xatırladan bu köhnə evində təzəcə peyda olduğum vaxtlarda Conu heç sevməzdim. O məni qorxudurdu və mənə sidiyini axıdan, ən uzaq məsafədən içdiyi arağın iyi vuran kobud təsiri ilə yaxınlaşanda qutunun içindən heç çıxmamağa, başımı qabaq pəncələrimin arasına alıb yerə çökməyə, ya da böyrü üstə uzanıb gözlərimi yumaraq özümü yuxuluğa vurmağa çalışırdım. Burun pərləriməcən pis qoxusu ilə girməyi bacaran bu adam bəzən günlərlə evdə tapılmırdı, geri dönəndə isə onu tanımaq olmurdu, başında quşlar yuva salmış, gövdəsi oyuq qoca ağaca oxşayırdı. Üstəlik, üst-başındakı kör-köhnələri bir yana, çöldən əlinə keçən əcaib zir-zibilləri də evə daşıyırdı, mən və mənimlə eyni gündə tapdığı sınıq-salxaq qrammafon kimi. O gün biz ikimiz də onun uğurla qazanılmış tapıntıları idik. Təbiətən alicənablıqdan vəhşiliyə doğru dəyişmiş, kobudlaşmış, özünü ən kobud, zalım, vecsiz biri

kimi təqdim etməyə çalışan bu adam uğursuzluğun, uğursuz olmağın həyati əhəmiyyətsizliyinin acısını çıxarırdı özündən və taleyindən. Bundan o məni tək qaldığımız günlərin birində hisli, kirli-paslı, cadar-cadar əlləri ilə tüklərimə qayğı ilə toxunaraq astadan “səni mən yox, Pandoranın ümidi xilas etdi” deyərək agah etmişdi. Əvvəllər bunun, yəni həmən o ifadənin nə demək olduğunu tam başa düşməsəm də, sonralar hər dəfə baş-başa qaldığımız gizli məqamlarda Con mənə həmən o ifadənin, “Pandoranın ümidi”nin nə demək olduğunu qırıq-qırıq anlatmağa başlamışdı.

İşin arzuolunmaz tərəfi onda idi ki, mən istəmirdim ki, o, Sofinin yanında bir kəlmə belə mənimlə danışsın. Bizim dostluğumuz çox gizli və sirli olmalı idi. Hərçənd heç kimə deyə bilməsəm də bu sirri, onun yalnız mənə vermək istədiyi sirri bilmək və əbədi saxlamaq istəyimdir. Düzü, yaşadığımız bu köhnə evdə üçümüzdən başqa sakin olmadığından  mənə elə gəlirdi ki, mən indi böyük bir missiyanın daşıyıcısıyam və onların hər ikisini dinləmək mənə o qədər xoş gəlirdi ki ayrı-ayrılıqda. Qəribə də olsa, onların hər ikisi mənim onları başa düşən sadiq bir sirdaş olduğumu düşünürdü. Ancaq bütün bu baş verənlər o qədər də əhəmiyyətli deyildi, əhəmiyyətli olan mənim kimi tənha dostum Conun mənimlə bölüşdüyü sirr idi. Bugündən, yəni burada təsadüfən unudulduğumu sandığım həmən bu andan, üç gün öncə o yenə qədərindən çox içib keflənmişdi. Mənsə son 6 ayda qutuya sığışmayacaq qədər çox böyümüşdüm və adətən dərdləşdiyimiz, daha doğrusu, onu çox yaxşı anladığımı, anlamağımın razılıq əlaməti olaraq başımı sağa-sola yırğaladığım anlarda köhnə odun peçinin qarşısındakı kresloya gövdəsini yaslayaraq çökmüş, onun ayaqları yanında yerə sərilərdim. Və o gün də elə idi. Hava da reaksiyasız qalmamışdı böyük sirrin açığa çıxacağı gündə. Yağış şırhaşır yağaraq öz gücünü nümayiş etdirirdi, Sofi isə həmişəki qaradinməz, amma mehriban və çalışqan bir qız olaraq işdə idi. O, həmişəki yerində, mənsə onun ayaqlarına söykənmişcə pəncələrim üstə uzanmışdım yerdə. Bir xeyli keflənmiş idi, buna rəğmən nitqi qüsursuzdu və o, ocağa baxaraq öz-özünə danışırmış kimi söhbətə başladı:

- Bilirsən, dostum, elə bilmə, mən elə belə əyyaşam. Heç arvadım da elə belə dəli deyildi. Güman ki, mən onun harda olduğunu da bilirəm. Ümumiyyətlə, bütün bunlar hamısı o qutudakılarla bağlıdır. Əslində, biz hamımız normal insanlarıq, sadəcə atadan-babadan qalma inanclarımız var ki, bəzən onlara inanmaq daha cəlbedici olur. Məsəlçün, qutunun dibində qalmış ümid kimi. Bizim bu şəhər əvvəllər öz kahinləri, cürbəcür kəhanətləri, əfsanəvi inancları ilə məşhur idi. İndi dövr dəyişib, sivilizasiya hər şeyi üstələyib və mənim kimi tək-tük adamlar belə şeylərə inanır - deyib, dərin nəfəs aldı , sonra isə kreslonun söykənəcəklərindən tutaraq qalxdı və yavaş-yavaş dəhlizə doğru irəlilədi və dəhlizin görünməyən, yaxud görünüb də o qədər çox diqqət çəkməyən yerindəki zirzəmiyə enərək ordan əski bir qara qutu ilə geri döndü. Qəfil bir çökmə ilə yanımda bardaş quraraq əyləşdi. Qutu haqqında olmazın



nağıllar danışdı və məni də buna inandırdı. Demə, bu qutu Zevsin heç sevmədiyi Prometeyin sevimlilərinin, insanların cəzalanması üçün içində xəstəlikləri, dərdi, qəmi, göz yaşını saxlayan və Pandoranın ağzını açaraq insanlıq arasına yaydığı cəmi pisliklərin daşıyıcısı olan həmən qutu imiş və Conun ən qədim əcdadları kahinlər olduğu üçün vaxtilə bu qutunu axtarıb tapmış və şəhərbəşəhər gəzdirərək buralara, təzə torpaqlara gətirmişlər ki, şeytani qüvvələrin əlinə keçməsin. Əlbəttə, Pandora zəhəri verib, dərmanı gizlətmişdi və bu heç zaman insanlıq arasında bilinməməli, üzə çıxmamalıydı. Demə, Conun arvadı İzabel də tez-tez zirzəmidən qəribə səslər eşidirmiş, bu isə Pandoranın bəxşişlərindən əzab çəkən, ölü, xəstə insanların fəryadı, pıçıltısı imiş. Əslində isə o nə şizofrenik xəstə, nə də problemli biri deyildi və uzun illər miflərlə bağlı tarixi araşdırmalar aparan qadın qarşılaşdığı həqiqətin ya inanılmazlığına şaşırmış, ya da bu qədər möcüzəvilikdən qurtulmağa çalışmışdı. Tədqiqat hələ tam inanmaq demək deyil, bu, araşdırmağa qarşı bir meyildir bəzilərində və İzabeldə də beləsindən idi, güman ki. Və o nəyəsə inanmağa özünü məcbur etməmiş, bu sərsəmliyə bir son qoymaq üçün getməyi seçmişdi. Təbii ki, düşdüyü vəziyyətdən heç cürə sakitləşə bilməyən Con ondan fərqli olaraq İzabeldən sonra eşitdiklərinə və gördüklərinə, hallustinastik həqiqətlərə inanmışdı. Belə ki, o, yeni ayın çıxdığı hər gün bəmbəyaz çöhrəsi olan, cizgiləri qaranlıqda bərq vuran və gözqamaşdırıcılığından cizgiləri dəqiqləşərək seçilməyən bir mələksima görürdü. O, Cona əgər bu qutunu açıb dünyanı, insanları Pandoranın lənətindən xilas edərsə, onun da ən böyük arzusunu gerçəkləşdirəcəyini deyirdi və bəzən günlərlə onun yuxusunu ərşə çəkən bu varlıq nədənsə son vaxtlarda, daha doğrusu, mən bu evə gələndən tez-tez peyda olmağa başlamışdı. Doğrudan da, bu belə idi. Mən tez-tez zirzəmidən əcaib səslər, qışqırtılar eşidirdim və çox zaman sahiblərimə qısılmağım mənə qorxmamaq imkanı verirdi. Və bir gün yeni ayın çıxdığı bir gecədə o mənim düz qarşımda peyda oldu. Yorğunluqdan yumulan gözlərimin mərkəzinə çoxbilmişcəsinə gözlərini dikərək pıçıltıyla dedi: "Bu evə gəldiyindən bəri sənin fərqli olduğunu bilirəm, sən ağıllı köpəksən, amma insanlar qədər ağıllı və buna görə də mən sənə bir hədiyyə vermək istəyirəm. Sənə insanlara xas nitq, danışıq qabiliyyəti verəcəm və sən mənə qutunu açmaqda Conu razı salmağa kömək edəcəksən, mənsə əvəzində sənin ən böyük arzunu, (göz vuraraq) insan olmaq arzunu gerçəkləşdirəcəm, yalnız bir şərtlə ki, sənin əvəzinə köpək olmağa razı olacaq və bədənini bununçün sənə bağışlayacaq birini tapmalısan. Beynimin ən dərin qatlarında bunun yuxu olduğunu düşündüyümçün yumulan gözlərimi qapayıb qımıldanmadan uzandığım yerdəcə qaldım və danışa bilmək deyə bir şeyi sınaqdan keçirmək mənə çox axmaqca göründü. Səhəri gün Con veyil bir halda evə daxil oldu və mən it dilində dediyimi düşünərək "Con, xoş gəldin" deyib yalamaq üçün dostumun üstünə atıldım və o, donmuş vəziyyətdə mənə baxdı, hətta qorxmuş.

- Necə?! Məgər sən danışa bilirsən? And olsun Yaradana ki, bu mənim gözləmədiyim ən qəribə möcüzədir. Nə dedin? "Con, xoş gəldin?!"

Bu vəziyyətdə mən özüm də donub qalmışdım və qıfıllanmış ağzımı heç cürə açıb ona " bəli, doğrudan da, mən danışa bilirəm" deyə bilmirdim. Və beləcə bir neçə saat öz səssizliyimizə qapılıb olanları bir əyyaşın fantaziyası kimi qəbul etməyə cəhd etdik, amma, təbii ki, bu belə deyildi və mən onunla qırıq-qırıq sözlərlə insani dildə, onun anlayacağı dildə danışmağa başladım, buna necə nail olduğumu, başıma gələnlərin hamısını ona danışdım. O isə tələşsız, müdrik sakitliklə məni dinlədi və biz həqiqətləri qəbul etmiş şəkildə bir-birimizin gözlərinin içinə baxdıq bir xeyli və o,\ qəfil gülümsəyərək "çox yaxşı, əslində, sənin ağıllı bir köpək olduğunu bilirdim, səninlə nəyisə bölüşəndə də məni başa düşdüyünə şübhəm yox idi, amma indi ki, səni məndən ancaq görünüşün ayırır, deməli, biz ən yaxşı dostlarıq" dedi.

- Və indi ki, sən mənim ən yaxşı dostumsan, həm də sən o missiya ilə təlimatlandırılmısan ki, məni o qutunu açmağa razı salasan, daha doğrusu, bu möcüzələrin reallığına inandırasan, mən inandım, dostum və söz verirəm ki, o qutunu açacam, amma məsələ burasındadır ki, sənin insan olmaq istəyindən fərqli olaraq mən düşünə bilmə qabiliyyətim, qüsursuz nitqim və gözəlliyim ilə bir it həyatı yaşayıram, ümumiyyətlə isə mən insan olmaq istəmirəm.

- Niyə, Con? Sənin kimi ağıllı bir adam niyə heyvan olmaq istəsin ki?

- Çünki belə istəyirəm. Mən insan olmaqdan bezmişəm və bu, mənimçün o qədər adiləşib ki, hətta özümə qəsd belə etməyə həvəsim yoxdur içimdə. Buna görə də insanlardan uzaq, insan olmaqdan, düşündükcə beyni ağrıdan düşüncələrdən uzaq olmaq üçün mən sən olmaq, istədiyim qədər uzağa getmək, adamların diqqətindən, fikir, düşüncə, cəmiyyət və söz deyə şeylərdən uzaq olmaq istəyirəm və əgər razısansa, sən də mən olarsan və biz bir-birimizin arzusunu gerçəkləşdirmiş olarıq, dostum. Hə, nə deyirsən?

- Mən hələ ki heç nə deyə bilmirəm, Con. Çünki bilirəm ki, hər nə qədər sizin kimi olmaq mənim arzum olsa da, bu dəyişiklik məni ailəmdən, yaxınlarımdan, məxsus olduğum cinsdən ayırır və eləcə də eyni vəziyyət həm də sənə aiddir.

-Yaxşı, bəs indi necə olsun? Və mənə gəlincə isə mən İzabelin izsiz gedişindən sonra həyatda özümçün bir şeylər dərk elədim və hər bir kəsin həyatda onu cinsinin digər nümayəndələrindən, hətta yaxınlarından belə ayıran fərdiliyi, dünyası olduğunu anladım. Mən Sofini çox sevirəm, ailəmi də sevirdim, amma indi nə istədiyimi yaxşı bilirəm və sənin köməyinə ehtiyacım var. Ümumiyyətlə isə mən sənə bir çox insanlardan daha da çox etibar edirəm və inanıram ki, Sofini sənə tapşırmaq olar, əlbəttə ki, o, güclü qızdır və çevrilmədən sonra ona keşik çəkməyə də bilərsən, amma yenə də mən sənə çox inanıram.

- Yaxşı, Con, mənə vaxt ver, gedim ailəmi, yaxınlarımı görüm və söz verirəm tez bir zamanda gələcəm.

- Sənə inanıram, dostum. İndi isə yataq, gecdir, Sofinin işdən gələrkən bizim qəribə söhbətlərimizin üstünə çıxmasını istəmirəm.

- Yaxşı, Con, gecən xeyrə.

-Sənin də gecən xeyrə, ən yaxşı dostum.

Və səhəri gün hava ağarmağa başlamamış mən yola çıxdım. Məni yola salması üçün nə Conu, nə də Sofini oyatmağa ehtiyac duymadım. Conla dünənki danışıqlarımızdan sonra artıq ona çevriləcəyim bədən kimi baxmağa başlamışdım və onu yenidən görmək məni fikrimdən daşındıra bilərdi. Bu səbəbdən ona görünmədən Sofinin yataq otağına keçib çarpayıdan sallanmış qoluna, onun təmiz insan qoxusuna son bir dəfə köpək olaraq nəzər saldım və bu evin heç zaman arxadan qıfıllanmayan qapısının açıq qalmış bucağından çölə çıxdım. Bura mənim doğulduğum yerlərdən o qədər də uzaq olmalı deyildi və mən yaddaşıma, iybilməmə güvənərək ən qısa zamanda yaxınlarıma qovuşacağımı bilirdim. Doğrudan da, belə oldu, mən tez bir zamanda, hətta lap tez, iki günə doğulduğum küçəni tapdım, amma buradakı küçə itlərinin, hətta pişiklərin, siçovulların belə heç biri mənim anam, qardaş, bacılarım haqda məlumatlı deyildi və tinlərin birində yüksək əda ilə sahibinin yanınca gedən ucaboy qara köpəyin atam olduğunu düşünərkən birdən mənə nəsə oldu, başıma çox ağır bir zərbə yedim, gözlərim qaraldı və nəfəs almağımı əngəlləyəcək bir torbanın içində daşındığımı hiss etdim. Ayılanda isə bax burda idim, bütün bu əhvalatın üzüb-üzüb quyruğuna gəldiyi, düyünləndiyi yerdə. Belə ki başa düşdüyüm qədəri ilə, güman ki, Conun nifrət etdiyi və eləcə də mənim sevməyəcəyim bəzi vəhşi insan tipləri yaxınlarımı da bu cürə ya harasa zəbt etmiş, ya da öldürmüşdülər, bir sözlə, bundan sonra Condan eşidib biləcəklərimdən, yəni onların zavallı, məsum küçə itlərini ovlayan bir yığın zalım insan olması haqda öyrənəcəklərimdən əvvəl yerlərimizi tutmuş bir yığın cəllad, qaniçən olduqlarını düşündüm. Məsələ burasındadır ki, mən dünyada yeganə köpək idim ki, mənə olduğum münasibət bəslənməmişdi, yəni nə bir cici-mici ad, nə də boynumu sıxacaq hər hansı bir xaltam olmuşdu. Və bu gün onun bəlasını çəkirdim, deyəsən, çünki məni küçə iti zənn etmişdilər, güman ki, bu qapalı yerdə əcəl məni haqlayacaqdı - deyə içimdən keçirdiyim son bir anda birdən qəfil yaşıl işıq yandı taleyim üçün. O peyda oldu, Conun evindəki qəribə varlıq, o xeyirxah ruh ağır paslı xaltadan məni azad edərək qapını itələdi və dedi, "belə tez tükənmək olmaz, unutmusan yoxsa, həmişə ümid var, ancaq onu xilas etmək lazımdır və sən bunu edəcəyinə söz vermisən, tələs, Con səni gözləyir".

Oh, mən azad idim, həm də çox azad. İçimdəki insan ruhu, bədənimdən çıxacaq qədər azad idi və mən qaçırdım, özü də küləkdən sürətlə. Nə çöldə qalmış dilimdən, nə də ağzımdan tökülən sudan utanmadan qaçırdım, şığıyırdım həyatımın ən vacib məqamlarını keçirdiyim köhnə evə doğru

və anlamışdım ki, əslində, doğmalarım məni sevən və yanımda olanlardır. Əlbəttə ana, bacı və qardaşlarımın axtardığım yerlərdə olmaması məni çox məyus etmişdi, amma, bəlkə də, onlar sağ-salamat idilər və sadəcə olaraq məni axtarmadan harasa bir yerə getmək ehtiyacı duymuşdular. Onu da anlamışdım ki, cinsim isə cismani halımla yox, ruhumla aid olduğum zümrədir və bəli, “ mən bir insanam”.

Və həmən gün biz dostumla qovuşduq, o, sual dolu nəzərləri ilə mənə baxırdı, mən ona təklifini qəbul etmədiyimi dedim. “Çünki mən belə də özümü yetəri qədər fərqli hiss edirəm, əgər insana çevrilsəm, bunun bir mənası qalmaz, çünki insan kimi düşünən, insan kimi görünən olaram, bu isə məni başqalarından heç nə ilə fərqləndirməz və mən özümü tapmışam axır ki, mənim ailəm Con və Sofidir, mənim ailəm sizsiniz” deyərək, dostumu kifayət qədər yaxşı başa saldığıma əmin oldum. Cona gəlincə, onun köpəyə çevrilişi çox axmaqca olardı – deyə dedim, çünki əslində o çox yaxşı insan, çox yaxşı bir ata idi və mən əmin deyildim ki, o, itlərin dünyasından baş çıxara bilə, ya da uzun illər bu cür yaşamağa qatlaşa bilərdi. Beləliklə, növbəti təzə ayın çıxdığı aydın gecələrin birində biz dünyadan xəbərsiz onu, minlərlə taleni dəyişdirəcək o sehrli qutunu açdıq və hər tərəf işıqlandı, qutunun içindən böyük bir işartı iti sürətlə göyün üzünə qalxdı. O gündən biz zirzəmidən əvvəlki kimi səslər eşitmədik, nə də bir kimsənin ümidsizliyə qapıldığını görmədik. Con da öz ümidlərini bərpa etdi, yeni iş tapdı və biz əvvəlkindən də xoşbəxt yaşamağa davam etdik, bizim balaca Sofiyamız, ya da qısaldılmış adıyla desək, Sofimiz də bu xoşbəxtliyimizin içində idi.

Əlbəttə, bilirəm, hamınıza maraqlıdır ki, bəs həmən xeyirxah ruh kim idi? Cahanşümul hadisənin baş verdiyi, yəni ümidin qara qutudan qurtulduğu gün O sonuncu dəfə zühur etdi qarşımızda, hər ikimizə təşəkkürünü bildirdi, istənilən arzumuzu gerçəkləşdirə biləcəyini dedi. Con və mən, demək olar, bütün istəklərimizə çatmışdıq və ona etdiklərimizi dostluğumuza, insanlığa olan sevgimizə borclu olduğumuzu dedik. O isə bizi dinlədikdən sonra “dostlarım, bilin və agah olun. Mən miflərdə adı dolaşan həmən o məşhur Pandorayam. Pislik üçün yaradıldım, əlimdən gələn ən müdhiş pislikləri etdim, amma əvəzində pislik gördüm. Zevs mənim əlimlə istəyinə çatdıqdan sonra bütün yaman ruhlar kimi məni də yeraltı dünyaya zəbt etdi. Sizin saya bilməyəcəyiniz qədər çox zamanım keçdi orada və bir gün oradan qaça biləcəyimə, mənə etdiklərinin əvəzində o qudurğan, ədalətsiz tanrıdan qisas alacağıma and içdim. Çünki bütün ömrüm boyu tanrıların hiyləsinə uyub etdiyim pislik mənə əzab verirdi, əzab verdikcə isə peşmanlığımı artırırdı. Bugünsə istəyimə nail oldum, axır ki, öz əlimlə gətirdiyim lənəti onların, insanların üstündən qaldıra bildim. Siz ümidi nəinki mənə, bütün dünyaya bəxş etdiniz. Ümid həmişə sizinlə olacaq”, – deyib yox oldu. Düzü, onun kim olduğunu bilmək həm dostum Conu, həm də məni o qədər təəccübləndirdi ki, hər şey bir nağıl kimi idi və əminəm ki, biz onun yaşadıqları haqda bundan artıq bilmək istəmirdik. Çünki bu, artıq tamam başqa hekayə idi.





Qafar ŞÖVQİ

**VER, BU MƏHƏBBƏTİN TOZUNU SİLİM...**

Sanma əməlindən xəbərsiz idim,
Xəyanət acıdır, şirin də deyil.
Oğrun baxışlarla baxanda mənə,
Bilirdim, ürəyim yerində deyil.

Vəfasız, rolunu yaxşı oynadın;
Dayanıb kənardan alqışlayıram.
Sanki bir qadının xəyanətini
Qadın şərəfinə bağışlayıram.

Mənim ürəyimdə öləndən sonra
Kimin ürəyində doğulacaqsan?
O qədər önümdə kiçilmisən ki,
Halına ağlasam, boğulacaqsan.

Dedin, mən gedirəm, başqasını sev,
Bilmədin, başqası-sən ola bilməz.
Yollar dəyişsə də, mən elə mənəm,
Yolunu kəsənlər mən ola bilməz.

Bu gün öz ilqarın satan bəxtəvər
Sabah nə satacaq, əşşi, nə bilim?
Mənə öz başının yaylığını ver,
Ver, bu məhəbbətin tozunu silim...





# İKİ KÖLGƏ ARASINDA

Günel İBRAHİMLİ

- Günəş, qaçma, yıxılacaqsan.

- Dayı, bura çox gözəldi, əsl xəyallardakı kimi.

- Bəli, sənin kimi gözəldi. Sən, xəyal nədir, bilirsən?

- Hə, dayı. Mən xəyallarıma tez-tez qonaq gedirəm.

- Ay səni, dəvətsiz qonaq. Xəyal qurmağı sənə kim öyrədib – Beş yaşlı qızcığaz çiyinlərini çəkdi. Səmaya bənzər üzünə elə bil kəpənək qonmuşdu. Ona baxanlar mütləq xoş hisslər yaşamalıydı. Nə gözəldi, birinin simasında təbəssümə çevrilmək... Ortayaşlı dayısının səsində isə ən gözəl rənglərin ahəngi vardı sanki. Dayısı danışmağa başladı:

- İnsanı tanıdan onun xəyallarıdı. Bir insanın qəlbinə ayna tutsan, aynanın əksində onun xəyallarını görərsən. Hər insan bir məqsədlə xəyal qurur, amma mütləq qurur. Bu hissi dadmayan yoxdur.

Dayısının dediklərini anlamağa çalışan beş yaşlı, ürkək baxışlı qızcığaz bu dəfə çaşqın-çaşqın baxırdı. Dayısı sözünə davam etdi: Heç kimin sənin xəyallarını oğurlamasına izn vermə. Paylaşma xəyallarını. Yaşa, yaşat, amma öldürmə. Çünki xəyal ümidin qızıdır. İnsan o zaman güclü olar ki, keçmişi silib, gələcəyi yaza bilsin. Necə? Zaman və xəyalların sayəsində. Bunlar olmasa, yaşamazdıq, nəfəs alardıq, sadəcə.

- Ay dayı, mən heç nə başa düşmürəm.

Dayısı Günəşin saçını qarışdıraraq ürəkdən güldü və dağın döşündə bitən ağ gülü göstərib dedi:

- Günəşim, hər şeyin öz dili var, canlı, cansız. Hər şeyə incitmədən toxunacaqsan. Güldən fərqlənmir bu xəyallar da. Necə ki gül su istəyir, insanın ruhu da gözəlliklə qidalanır. Xəyallar da bu gül kimi yavaş-yavaş böyüyür və sonra sən xəyallarını dərə bilərsən. İndi bizim etdiyimiz kimi.

Bu son sözü elə pıçıltı ilə dedi ki, Günəşin lap xoşuna gəldi. Dayısı gülü dərib, qızın saçına taxdı. Külək Günəşin sevincinə şərik çıxaraq onun saçları ilə rəqs etməyə başladı. Balaca qız quşlar eşidəcək səslə: - Səni çox istəyirəm, - dedi.

- Nə qədər çox?

Günəş cığıra tərəf qaçdı:

- Bax! Bu yollar qədər!

Dayısı xəyallara həbs olunmuş dustaq kimi ürəkdən güldü:

- Günəş, gizli xəyal quraqmı? Gerçəkləşdirəndə gizli xəyallarımızı bir - birimizlə bölüşərik.

Günəş xəyal qurur, dayısı isə onu seyr edirdi. Gözlərini sevinclə açan qızcığazın gözünə parabüzən sataşdı.

- Dayı, sən səfərdə olanda mən səni uğur böcəyi ilə səsləyirəm. Sən məni eşidirsən? Dayısı gülə-gülə: "Sən məni səslə, mən həmişə səni eşidərəm", - dedi və hər ikisi gülümsədi.

...Sirli xəyalların, bu gülüşlərin üzərindən 15 il ötürdü. Gənc qız dayısının bağ evinə 15 il öncəki hissi yaşamaq ümidi ilə gəlmişdi. Günəşin qəlbində o gündən-bu günə o qədər rənglər ölmüşdü ki. Rənglərin ən gözəli, yollar qədər sevdiyi dayısı da dünyasını dəyişmişdi. Ona xəyallarda deyil, xəyallarını yaşamalı olduğunu öyrədən dayısının vəfatından düz 1 il 26 gün keçirdi. Günəş torpağı əlinə alıb qoxusunu içinə çəkdi. Qoxusunda bədənini yerə, ruhunu göydəki ulduzlara əmanət edənlərin ətri vardı. Günəş heyfsilənmirdi. Bilirsinizmi niyə? Bir ad söyləyin, ömrünüzün sonuna qədər sizlə yol getsin. Çox çətin deyil, sadəcə bir ad... Biri dönür gedir, biri ölür gedir. Mərifət getməkdə olsaydı...

Günəş parçalanmış xatirələrini toparlamağa çalışırdı. Ay, bu xatirələr... Xatirəni o an bölüşdüyün insan ya sənin həyatından, ya bu həyatdan getmişsə, əvvəl yadına salanda kədərləndiyin halda, bir müddət sonra gülümsəyirsən. Sağ olsun zaman. Məncə, həyatın təşəkkür etdiyi tək şey zamandı. Mənim təşəkkürümsə bu zamanı mənə bəxş edən Allahadır.

Dayı və qızcığazı fərqli səmtə əsən küləklər çağırmışdı. Günəşi xəyalları, dayısını isə ölüm... Günəş həmin evdə, həmin bağda, amma fərqli kölgələrdə sərinlənirdi. Bu an gülün üstündəki parabüzən gənc qızın gözünə sataşdı. Görüş və ayrılıq kölgəsində azıb qalanların ünvanı olan parabüzənə "get, uç, dayımı gətir", deyərdi. Yenə də uğur böcəyinə sığındı. Bu gün isə ölüm və həyatın kölgəsində yanğısını söndürməyə çalışırdı. Bu dəfə səssiz-səssiz "get, uc, yanıma deyil, yuxuma gətir", - dedi. Günəş kölgələrdən qaçıb sanki ürəyinə sığınırdı. Burada dayısı ilə paylaşmağa can atdığı xəyalları vardı. Xəyallarda deyil, xəyalımı yaşadım, xəyallarımı dərdim - demək istəyirdi. Günəş dayısının otağına daxil olarkən, "göz yaşları" ona "xoş gəldin" deyirdi. O, dayısının kitabxanasından ona yazdığı səfər məktublarını, zamanın insaf etmədiyi, oxuyub tamamlaya bilmədiyi kitabı və dayısına aid olan şəxsi kitabçanı tapdı. Kitabçanı əlinə alan zaman göz yaşları yanağı ilə öpüşürdü. Dodaqları əsə-əsə oxudu: "İki kölgə arasında".




DƏRGİDƏ KİTAB

# Eninə misralar

## Çinarə ÖMRAY

Çinarə Fəyyaz qızı Yusifova. 1987-ci il mayın 2-də Qubadlı rayonunda doğulub. Azərbaycan Beynəlxalq Universitetinin tarix və Bakı Slavyan Universitetinin yaradıcılıq fakültəsini bitirib.



# İT OĞLU

- Gəl, Vaqif, gəl, qardaş, rahat ol, heç kim yoxdu. Əlim kömürlüdü, manqalı yandırıram, sən gəl...

Qapını bağlayıb bağı dolaşa-dolaşa dostumun səsinə doğru getdim.

Şəhərin səs-küyündən, boğanağından çıxıb bu bağa düşmək cənnət həzzi idi. Yaşıllığa toxunduqca ruhum təzələnirdi. Alma ağacının yanına çatmışdım ki, arxamda mırıltı eşitdim. Diksindim. Çevrilən kimi baxışlarım iri alman itinin gözüylə toqquşdu. Qorxdummu? Bilmirəm. Amma o itin gözlərində bir anın içində qapı açıldı, ordan keçib keçmişə yola düşdüm. “Vaqif... Vaqif...” - dostumun səsi də getdikcə uzaqlaşdı və yavaş-yavaş öləziyib başqa, yaşlı adamın səsinə çevrildi.

* * *

11 yaşım var. Atalıq yükü mənim sısqa çiyinlərimə qonub. Həkim atam “Orda mənə daha çox ehtiyac var, - deyib, cəbhəyə yollandı. - Heç kim orda döyüşənlərin ailə-uşağından artıq deyil”. Mənə elə gəldi ki, bu anda anam da mənim kimi düşünürdü: atam bu sözləriylə bizi güllələyib gedir. Zaman-zaman da belə xatırlayacaqdım: orda yaralı əsgərlərin yarasını sarıdıqca burda bizim içimizin yaralarından necə qanlar axdığından xəbərsiz atam.

* * *

Kəndə film gələrdi, uşaqlar yığışıb gedərdi, filmə marağım ömrümü yeyib-bitirsə də, gedəmməzdim, filmə verəcək pul nə gəzirdi. Atammı, savaşmı mənim uşaqlığımı da götürüb cəbhəyə aparmışdı. Bunu anam film gələn günlərdə tay-tuşlarımdan ayrılıb suyu süzülə-süzülə evə dönəndə ağlamsınan gözlərimə baxa-baxa öz-özünə deyərdi, sanki təkcə uşaqlığım yox, özüm də burda yoxdum, çıxıb cəbhəyə getmişdim; üzünü uşaqlığımın getdiyi yollara tutub deyərdi. Anama elə inanardım ki! Ancaq anlamadığım bir şey vardı: orda, qan-qadanın, ah-nalənin içində mənim uşaqlığım nə işə yarayırdı, kimə lazım idi, onu niyə aparmışdılar axı...

Gözdən yayınıb böyüklərin ayaqlarının arasında özünü kluba pulsuz salan uşaqlar vardı, məni də həvəsləndirirdilər, ancaq uşaq olsam da, qürurum qoymazdı. Necə də olsa, “filankəs həkimin oğlu” kimi adım vardı üstümdə.

Bir gün kəndə film gətirən Məhəmməd dayı tüstüsü başının üstündən lay-lay, burula-burula çıxan papirosunun kötüyünü atmaq üçün öz tozlu köşkündən qapını aralayıb həyətə baxanda məni klubun həyətində tək-tənha görüb yaxınlaşdı:

- Niyə qıraqda dayanmısan, balaca?

- Heç... elə-belə. Özü də mən balaca deyiləm. Bir evin kişisiyəm.

- Baho, onu kim deyib sənə?

- Anam.

- Belə de... anan daha nə deyir?

- Deyir ki, atan o boyda ordunu qoruya bilir, sən ikicə nəfəri qoruya bilməyəcəksən? Mənə balaca deməyin...

Məhəmməd dayı bu dəfə Ciminin filmini gətirdiyini desə də, qutudan nə cürsə “Şərikli çörək” çıxmışdı. Film başlayanda klubda aləm dəydi bir-birinə, Məhəmməd dayını fitə basdılar; Məhəmməd dayı rayondan kimisə söydü ki, qutuları qarışdırıb, sonra nə oldusa, hamı bir anda kiridi; sonra filmdə öz adımı eşitdim, həmişəki kimi film başlayandan sonra evə getmədim, həyətdə oturub səsini dinləməyə, filmi gözümdə canlandırmağa başladım. Ancaq bunu Məhəmməd dayıya deyəmmədim.

- Yaxşı, kimin oğlusan? - papirosuna son dərin qullabını vurub soruşdu. Səsinin tonu da tamam dəyişmişdi.

- Fərhadın.

- Hansı Fərhad? O Qarabağda döyüşən Fərhad?

- Hə, Məhəmməd əmi...

- Yaxşı, kişi oğlu, adını bilmək olar?

- Vaqif...

- Hə, Vaqif, bu lap möcüzədi ki... Ancaq burda boş-bekar dayanmaqdan bir şey çıxmaz. Gəl, əmiyə kömək elə. Tək çatdırmıram. Elə ordan da baxarsan. Pulları da sən yığarsan bundan sonra. Sənin də payın olacaq a. Kişi deyilsənmi?..

Bir anlıq qulaqlarıma inanmadım. Demək, bundan sonra adamları içəri mən buraxacaqdım.

Aparat köşkünün pəncərəsindən filmi də seyr edə biləcəkdim. Üstəlik, lent qırıqlarından özümə götürə biləcək, ən əsası isə evimizə çörək qazanacaqdım.

Məhəmməd əminin qapqara kömür kimi üzü vardı. Tərdən işıldardı. Arabir projektorun işığı üzünə düşərdi, illah da dava filmləri gedəndə, deyərdin, üzündə savaş gedir. Bombalar yağır üzünə, ah-nalə yüksəlir, qanlar axır, alnındakı şırımda əsgərlər yerə sinir, düşmən gülləsindən qorunur, sonra düşməni məhv etmək üçün hücuma keçirdilər.

Sonralar öyrəndim ki, Məhəmməd əmi atamla bir alayda döyüşüb, atam onu yaralanandan sonra döyüş meydanından çıxarıb, yarasını sarıyıb. Məhəmməd əmi deyirdi ki, bütün ailəsini Xocalıda itirib, indi dünyada kimsəsi yoxdu. Sonradan döyüşdə də bəxti gətirməyib, minaya düşüb, beyin silkələnib, ayaqlarını itirib, indi həmişə beynində uğultu olur. Onu ordudan tərxis eləmişdilər, gəlib bizim qonşu kənddə yuva qurmuşdu özünə, tək-tənha yaşayırdı.

Məhəmməd əmiylə sevincək razılaşmışdım. Qanadım olsa, uçardım. Amma o dəmir lent qutuları az qala özüm ağırlıqdaydı. Film bitəndən, adamlar dağılandan sonra orda qalan həmin dəmir qutuları Məhəmməd əminin motosiklinə yükləyirdim. Ayrılanda Məhəmməd əminin cibimə basdığı dəmir pullar gecələr ağrıyan belimə məlhəm olurdu. Ufuldaya-ufuldaya yuxuya gedirdim, yuxuda danışırdım, atamı çağırırdım, anam gəlir, saçımı sığallaya-sığallaya ağlayırdı...

Məhəmməd əminin gətirdiyi Böyük Vətən müharibəsindən bəhs edən rus filmlərinə baxdıqca atam gəlirdi gözümün önünə. Onların orda hansı şəraitdə qaldıqlarını, necə savaşdıqlarını gördükcə atamı - mənim uşaqlığımı özüylə cəbhəyə aparan Fərhad həkimi hiss edilmədən bağışlamağa başlayırdım. Məhəmməd əmi deyirdi ki, bundan sonrakı ömrümü atana borcluyam. Qürurdan içim içimə sığmırdı. Atamla fəxr edirdim. Həmin filmə o qədər həyəcanla baxmışdım ki, top-tüfəng səsi qulağımı ağrıtmışdı. Ancaq ağrılara dözürdüm, elə bilirdim, atamın adı qulağıma dərman qoyur, məni ovudur. Atam haqda nağıllardan daha da güclənir, daha da böyüyürdüm. İşə düzələndən bəri güzəranımız az da olsa düzəlmişdi. Yavaş-yavaş kənd dükanına olan borclarımızı ödəyirdik. Bilirdim ki, orda atam sevindiyindən özüylə apardığı uşaqlığımı qucaqlayıb bağrına basır, doya-doya öpür, sonra səngərdə yatırdırdı.

“Bizim Cəbiş müəllim”in kəndə gəlişi isə ayrı bir şey oldu mənimçün. Elə bil atam cəbhədən qayıdıb gəlmişdi. Zalım oğlu, elə bil Cəbiş yox, Fərhad həkimiydi. Bir anlıq qaçıb mələfə ekrandakı üzündən öpmək də keçmişdi içimdən. Ancaq eləcə lentləri öpdüm. Gördüm ki, Məhəmməd əmi gözlərini silir. Məsələ ondaydı ki, Məhəmməd əmi özü də hər dəfə gətirdiyi filmlərə bacadan mənimlə birgə, sanki ilk dəfə baxır, sonra da siqareti siqaretə calayırdı.

Kəndimizdə bir Səmayə nənə vardı; filmdə əsgərlər bombanı atıb “lajiss” deyən kimi Səmayə nənə başını iki əliylə qucaqlıyıb əyilir, səslər kəsiləndən sonra ehmal-ehmal dikəlib yan-yörəyə baxır, yanaşı oturduğu əri Kərim babanın sağ olduğuna əmin olandan sonra yenidən seyrə dalırdı. Səmayə nənə ötən müharibənin uşağı



olmuşdu, əri Kərim babanınsa, bəlkə, min yaşı vardı. Kino qurtarandan sonra mən qutuları daşıyanda çəliyinə söykənib üzünü Məhəmməd əmiyə tutub deyirdi:

- Bala, o günlərə qaytardın məni. Döyüş günlərim bir-bir keçdi gözümün qabağından.

- Hə, dayı, lap yaxşı, - Məhəmməd əmi fikirli-fikirli deyir, - yenə gətirəcəm, baxarsız.

- Bala, bəri dur, saa bir şey danışacam.

- Danış, dayı, danış. Uşaq qutuları yığınca vaxtım var.

- O vaxtı müharibədə bizə dərman verirdilər ki, qadın-zad istəməyək. A bala, sənə bir şey deyim, gülmə: o dərman indi-indi təsir eləyir mənə...

- Ətin tökülsün, kişi, - abır-həya qalmayıb səndə, - Səmayə nənə deyir.

- Elə demə, arvad, qadın ayrı şeydi...

Məhəmməd əmi qəfildən şaqqanaq çəkdiyi kimi, qəfildən də daş atılmış qurbağa gölünə döndü. Nə onun nəyə şaqqanaq çəkdiyini başa düşdüm, nə də qəfildən qəm dəryasına batmasını. İndi də hər yadıma düşəndə özümdən asılı olmadan birinci dodağım qaçır, sonra gəmilərim qərq olur...

Sabahı gün kəndə kino yox, Məhəmməd əminin qara xəbəri gəldi: özünü tənha yaşadığı komanın çatısından asmışdı...

Məhəmməd əmidən sonra, elə bil atam ikinci dəfə bizi atıb cəbhəyə yollandı.

* * *

Kəndimizdə imkanlı ailələr çox idi. İri bağları vardı. Meyvələri aşıb-daşardı. Öz uşaqlarını qoymazdılar əllərini ağdan-qaraya vursunlar. Mənim kimi uşaqları aparıb bağı yığdırardılar. Ağır vedrələri daşımaqdan qollarım sızlar, ovuclarım kəsik-kəsik olar, belim qopar, ağrıdan səhərə kimi yerimdə qıvrılıb yuxuya tamarzı qalardım. Günümüzə 3 manat pul, bir-iki kilo da meyvə verərdilər. Bu mənimçün böyük qazanc idi. Həmin meyvəni də ucuzuna satar (birini anama saxlardım), pulunu aldığım 3 manatın üstünə qoyub evimizə gətirərdim. Anam hər dəfəsində gətirdiyim pulu öpər, sonra da önlüyünün ətəyi ilə göz yaşını silib toyuq-cücənin qapısını vurmağa çıxardı. Yaşıdlarım sabah qonşu kəndin uşaqlarıyla oynayacağı oyunla bağlı baş sındırarkən, mən "sabah, görən, neçə ağac yığa biləcəyəm, evə nə qədər pul gətirəcəyəm" kimi suallarla yuxumu ərşə çəkirdim.

Mədəd dayının nə özü, nə də 3 oğlu döyüşə getmişdi. Nə qədər baş sındırsam da, səbəbini tapa bilmirdim. Bir dəfə fikirləşməkdən bezib soruşmuşdum da.

- Mədəd dayı, niyə siz, ya da oğlanlarınız döyüşə getməmisiniz?

- Atandan öyrənmisən belə sualları?

- Yox, sadəcə, maraqlı gəldi.

- Atan gedib, neynəyib? Bəlkə, Qarabağı alıb, bizə xəbər eləməyib?

- Atam həkimdir. Orda yaralıları sağaldır. Məhəmməd əmi də deyirdi ki, qalan ömrünü atama borcludu.

- Hə, bilirəm. Mən pulumla on dənə atan kimi həkim alıb göndərmişəm ora. Sən bunları fikirləşmə. İşləmək fikrin var, ya yox, sən onu de?



- Əlbəttə...

- Onda sabah sübh tezdən gəl, bizim bağın meyvələrin yığ. Görürəm, ağıllı, zirək oğlansan. Tək bacarmazsansa, dostlarından da gətirərsən, kömək edərlər. Onların da haqqını verərəm.

- Yox, yorulmaram. Özüm gəlib yığaram.

Sübhün gözü açılmamış onların qapısında durub yuxudan nə zaman duracaqlarını gözləyirdim. İşə başlayandan iki saat keçməmiş, demək olar, iki ağacı yığıb qurtarmışdım. İndi də ağacın dibinə tökülənləri yığırdım. Birdən it səsi eşitdim, arxaya çöndüm, yalan olmasın məndən iki dəfə böyük itdi, hürə-hürə gəlirdi. İlk dəfə alman itini onda görmüşdüm. Özümü itirməyib cəld ağaca dırmaşdım. İt isə pəncələrini qaldırıb ağaca söykəmiş, üzü yuxarı dayanmadan hürür, dişlərini qıcayıb mırıldayırdı. Ürəyim də ilk dəfəydi ağzımda döyünürdü. Elə bilirdim ki, it bu dəqiqə ağaca dırmaşacaq, məni diri-diri udacaq. Gözlərindən də görünürdü ki, hər an məni parçalamağa hazırdı. Elə bildim, əsir uşaqlarımızın ətini yeyən erməni itidir, yoxsa öz itlərimiz mənə belə düşməncə baxmazdı. Bilmirəm, ya mən əsirdim, ya külək, ya da ağac. Elə bil əlim boşalacaq, bu dəqiqə yerə düşəcəkdim. Hardansa gülüş səsi gəldi. Mədəd dayının cəngavər oğlanlarıydı. Mənim necə qorxduğumdan həzz alıb qıraqdan gülürdülər.

- Cek, vzyat evo, - böyük oğlan qışqırır, yenə gülürdü. İt isə bu sözdən sonra daha da qəzəblə üzü ağaca hürürdü. Qəfildən nə oldu, olmadı, bilmədim, o gülüşlər içimdəki bütün qorxunu üfürüb apardı və boş qalmış yerinə qatı, qan qırmızı bir nifrət doldu. Xatırlayıram ki, ilk dəfə onda ürəkdən nifrət eləmişdim atama. Axı övladını burda ölümə atıb necə gedib orda vətənini qoruya bilir? - düşünmüşdüm uşaq ağlımla. Həmin an atamın insanlıq, vətən, mərhəmətlə bağlı dediyi bütün sözlər kağız qayıqlar kimi beynimin qan qırmızı nifrət gölündə batmışdı.

Bir də onu hiss etdim ki, bu qurdağız azman itlə üz-üzə, burun-buruna dayanıb meydan oxuyuram. Ürəyimdən bircə şey keçirdi: qoy bu vəhşi məni tikə-tikə parçalasın, bu da atama dərs olsun, ondan sonra qayıdıb gəlsin! İtin gözlərinə necə baxdığım yadımda deyil, ancaq onu bilirəm ki, bayaqdan ağacı gəmirən, hürməkdən az qala cəhəngləri cırılan it sakitcə üzümə baxıb ləhləyirdi, sanki kimin oğlu olduğumu gözümdən oxumuşdu, indi üzr istəyirdi məndən. Yığdığım meyvələri təpiklə vurub aşırtdım, məni lal-dinməz gözləriylə yola salan itə sürtünə-sürtünə keçib, pulumu da almadan yola düzəldim...

- Vaqif, ay Vaqif... - Mədəd dayının səsiydi. – İt oğlu itə bax e hələ.

Bilmədim Mədəd dayı bunu mənə deyirdi, itinə, yoxsa oğlanlarına...

## AXŞAM HÜCUMA KEÇİRİK

Qonşu arvadları nənəmin beynini doldurmuşdu ki, yaxınlıqda yerləşən fabrikin boş otaqlarından birinə köçün, qaçqınsınız, sizə heç kim heç nə deməz.

Onda bibimin birotaqlı bağ evində qalırdıq. Nənəm otağı pərdə ilə bölmüşdü. Beləcə, nənəm evə gələn kimi "evrika" havasıyla gəlinləri məsələdən halı elədi:

- Hazırlaşın, axşam hücuma keçirik!..

Babam əvvəl-əvvəl razı olmadı: "Bir az səbr elə, arvad, - dedi, - onsuz da bir-iki aya qayıdırıq". Nənəm: "Evi yeməyəcəyik ha, qayıdanda qoyub gedəcəyik də", - deyib, babamı yola gətirdi.

O gün elə gecəynən köçümüzü çatıb, həmin fabrikdə lövbər saldıq. Üç otaq idi. Döşəməsi, tavanı, pəncərəsi yoxdu. Quruca divar... Bizim də hərənin bir çanta pal-paltarı, yorğan-döşəyi, üç dəmir çarpayımız, hərənin də bir boşqabı vardı, vəssalam.

Hə... bir də humanitar yardımlar: beş paket quru lobya, bir də yardım adyalları. Nənəm adyalları pəncərəyə tutdu. Gecəni qaldıq. Bibim elə həvəslə sil-süpür eləyirdi ki!.. Yer torpaq olduğundan sulayıb süpürürdü. Nənəm quru divara xalça asdı, üstünə Mirsədi ağanın şəklini asıb dedi ki, bu şəkil burdadırsa, bizi bu evdən heç kim çıxarda bilməz!

Sabahı fabrikin yiyəsi gəldi, bir az söz-söhbət oldu. Babam çox utanırdı. Ora icazəsiz yığışmağımız arına gəlirdi. Amma nənəm əlində süpürgə evə elə yiyələnmişdi ki, day hara çıxırdı!

O ev bizim üçün hər şey idi: arxa, dayaq, ümid, pənah yuvası... Nənəm deyirdi, başımızın üstündə qaraltı oldusa, bəsimizdi, onsuz da qayıdacağıq.

Az keçməmiş babam pəncərələrdəki adyalları söküb, müşəmbə vurdu, yerə linoleum saldıq, divarları suvadıq.

Əmim müharibədə idi. QRAD qurğusu daşıyan maşın sürürdü. Bir gün balası evə qayıdanda nənəm çox sevinmişdi. Həmişə döyüşdə itirdiyi dostlarından danışardı əmim. Bir dəfə də kiməsə danışırdı ki, bəs filankəsi gözümün qabağında vurdular, yazıq elə yerindəcə keçindi, başqa bir yoldaşımız məcbur olub onun ayaqqabısını çıxarıb, geyindi yalın ayağına. Bu əhvalat məni xeyli fikrə saldı.

Nənəm həmişə məni özüylə çörək almağa aparırdı. O vaxt upuzun, ilan kimi qıvrılan çörək növbələri olurdu. Yanında uşaq görüb nənəmi növbəsiz buraxırdılar. Hər dəfə on-on beş çörək alırdıq.

Babam şəhərdə ilk dəfə təqaüdünü alanda bir tay un almışdı, bir kilo da alma. Kiloya dörd sarı alma girmişdi. Dedi, İran almasıdı. Birini nənəmə verdi: "Sən bunu Çinarla böl, ye". Qalan üç almanı də gəlinlərə verdi ki, uşaqlarla bölsünlər. Sonra keçib həyətdə oturdu. Dalınca çıxdım, gözünü dəsmalla sildiyini sezdim. Məni görüb gülümsədi. "Nolub, baba, sənə alma çatmadı, ona görə ağlayırsan?". Uğunub getdi: "Yox, qızım, gözümə nəsə düşüb, onu çıxarırdım", - dedi.

Almaları yeyəndən sonra nənəm gəlinlərə dedi ki, durun, yuxa bişirək, alınma çörəklə çatdırmaq olmur. Həyətdə sac qurub yuxa saldılar. Ocağın qoxusu hər yana yayılmışdı. Pendirimiz olmazdı, nənəm də deyərdi ki, pendiri neynirsiz, şorla "Sana" yağını qarışdıranda hamısından urvatlı olur. Yağla qarışdırılmış şor bankasını da, termosu da sacın yanına qoyardı. Ocağın qoxusuna qonşu uşaqlar toplaşardı. Nənəm yuxaya oxşayan əllərilə hərəsinə bir dürmək düzəldərdi. Lap Cırtdanın nağılındakı kimi... Dürmək yeyən uşaqlardan kim topunu mənə oynamağa verməzdisə, deyərdim, tez elə, nənəmin dürməyini qaytar.

Dəmir çarpayıların setkası boşalmışdı deyə, babam altına iri taxtalar qoymuşdu. Bizim ailəmiz - ata-anam, qardaş-bacılarım hamısı Rusiyada idi. Mən nənəmgildə qalırdım. Buna görə əmimin uşaqlarından çox mənim qayğıma qalırdılar. Dəmir çarpayının birində mən yatırdım. Çox xoşbəxt idim.

Bir gün bəla gəldi; hamıya nəsə qaşınma xəstəliyi düşdü. Nə bəla idisə, bütün şəhər tutmuşdu... Ya da bütün qaçqınlar... Bizə ağ, uzun qablarda süd rəngli qatı məhlul payladılar. O vaxt ikinci sinifdə oxuyurdum. Öz dərmanımı dəmir çarpayının altında gizlədirdim. Ağ, uzun qab idi. Üstünə «Əl vuranın əli qurusun» yazmışdım. Əmim oxuyub xeyli gülmüşdü.

Bir gün də məktəbdən gur, uzun saçımda evimizə bit gətirmişdim. Nənəm başımı dizinin üstünə qoyub bitimi təmizləyirdi. Sonra dedilər ki, neftlə yusan, keçər.

Həmin ərəfədə sinfimizdə neft erası başladı; otaqları nöyüt iyi bürüdü...

Fabrikə təzə köçdüyümüz vaxtlardı. Nahara oturmuşduq. Birdən həyətə tanımadığımız adamlar girdi. Oğlanlardan birinin çiynində qara-iri nəsə vardı, qız isə əlində balaca qara toppuz tutmuşdu. O toppuz da şnurla oğlanın çiynindəkinə bağlıydı. Handan-hana anladım ki, bu, mikrofonla kameradır. Nənəmi, babamı danışdırdılar. Necə yaşayırsız, necə dolanırsız? Tez nənəmin yanından qaçıb çarpayının yanında, qara suvaqlı divardakı mismardan səliqə ilə asılmış təzə məktəb yubkamı geyinib gəldim; kameraya qəşəng düşməliydim. Xaricdəki həmyaşıdlarıma göstərəcəkdilər axı. İlk dəfə işıqdan onda qamaşmışdı gözlərim.

6 yaşımdan qaçqınlıq həyatı, onun qayğıları, çatışmazlıqları, məhrumiyyətləri içində böyüdüm. Amma bir dəfə də olsun özümü bitmiş, tükənmiş hiss eləmədim. Əksinə, tükənmədən xoşbəxt idim.

Nənəm gəlinlərə deyirdi ki, itirə-itirə gəlmişik: evimizi, kəndimizi, qohumlarımızı, heyvanlarımızı... Gəlin, üzümüzdəki təbəssümü itirməyək barı...

## ATAM ALİMENT OLMUŞDU

Necə maraqlıydı o gün. İlk dəfəydi qrup uşaqlarıyla yığışıb bu cür harasa gedirdik. Meşədə top-top, sonra uşaq kimi qaçdı-tutdu oynamaq, tərləmək, üstündən də buz kimi su içmək. Özü də bulaq suyu. Xoşbəxt olmaq elə qəşəngdi, adam hər gün xoşbəxt ola kaş, heç olmasa, altıncı-bazar günləri.

Bulaq suyu elə bil ilk sevgimiz kimidi, lap uşaqlığımız kimi. Hərdən uşaq olmaq istəyir adam,

dükandan saqqız oğurlamaq istəyir, bunun tullanıb-düşməyi var hələ. Elə xoşum gəlir atılıb-düşməkdən.

Biz də belə elədik. Bir neçə saat uşaq olduq hamımız. Özü də çox nadinc uşaq. Ağaclar bizim əlimizdən meşədən qaçmaq istəyirdi.

- Yox, Emil düz oynamadı, - biri deyir.

- Əli cığallıq elədi, - o biri deyir.

- Top gətirmək sırası Aygündədi, - bu birisi deyir.

- Biz qazandıq, biz qazandıq... Uraaa... - bunu da mən deyirəm.

Səsimiz meşəni başına almışdı, bütün ağaclar bizim səsimizə yuxudan durmuşdu. Quşlar bizə baxıb gülürdü. Bir dovşan üzümüzə elə baxırdı, elə bil dovşan bizik.

Bir müəllimimiz var, Həsən müəllim. O da şalvarının balağını corabının içinə salıb bizimlə yan-yana oynayırdı. Elə həvəslə oynayırdı, elə bil heç vaxt uşaq olmayıb, elə dünyaya 55 yaşında gəlib. Həsən müəllim yeri gələndə cığallığından da qalmırdı.

Uşaqlardan biri Həsən müəllimə deyir:

- Ay müəllim, bəs deyirdiniz, hər işdə dürüst olmaq şərtdi? Bəs niyə oyunu pozursuz? Axı bizim komanda udub.

- Ay bala, mən indi sizin müəlliminiz Həsən deyiləm. İndi mən də sizin tayınızam.

Hamımız gülmüşdük Həsən müəllimə. Əslində, elə hər şey uşaq idi o gün, ağaclar da, yarpaqlar da, sərçələr də... Ayağımız altında can verən otlar kimi biz də taqətdən düşmüş, yerə sərilmiş palazın üstünə quş budağa qonan kimi qonmuşduq.

Təbiət o qədər sakitiydi ki, vallah, adam qorxurdu. Adətən, filmlərdə belə olur, əvvəl səssizlik, qəfildən vəhşi heyvanlar peyda olub cumur üstünə. Bəs mən nə düşünürdüm? Üstümə nə cumur-cumsun, heyvan yox, lap insan cumsun, yenə də bir az aralıda saldığımız palazın üstündən qalxan deyiləm. Çox yorulmuşam.

Bir şey də var ki, meşənin sakitliyi yorğunluğumu oğurlayır, ruhuma laylay deyirdi, sakitlik saçımı sığallayır, əzizləyirdi. Meh oynamaqdan yorulmuş, tərləmiş bədənimizə qəribə bir rahatlıq verirdi. Sərin meh həsrət qaldığımız doğmaların bədən hissi idi elə bil. Adam qucaqlamaq istəyirdi mehi. Düzü, bir ara istədim qucaqlayam, sonra düşündüm ki, pis başa düşərlər.

Uşaqlardan biri dedi. Mənim bir dostum da var, Gülnar adında. Siz Allah, işə baxın, mən keçmişimin əlindən canımı qurtarıb meşəyə gəlmişəm, uşaqlardan biri də durub deyir ki, hərə uşaqlığından nəsə danışsın. Bir xatirə, məsələn. Məndə danışmağa hal qalıb? Doğrudan, maraqlı fikirdi, amma bir şərtlə: mən heç nə danışmayacam. Siz danışın ancaq. Onsuz da hamı yorulub, heç kimin yerindən qalxmağa halı yoxdu. Vaxtı belə yola vermək daha gözəl olardı.

Elə təklifi verənin özündən - Gülnardan başladıq. Bildim ki, Gülnar çox narahatdı, onu nəsə sıxır içində, ona görə danışmaq istəyir. Lap bəhanə axtarır. Hamı sırayla danışacaq deyə, tez yerimi dəyişib axıra keçdim. Qoy hamını dinləyim, özüm danışmayım. Növbə mənə çatanda, onsuz da, gecə düşəcək, çıxıb gedəcəyik evə.

Ay da, Gülnar bir yana qalsın, bizdə bir Əli var, onun keçmişi məni lap dəli elədi, vallah. Əli kefcil uşaqdı. Baxanda elə bilirsən, dünya vecinə deyil. Özüm də məəttəl qaldım Əliyə, əməlli-başlı ciddi söhbət eləyirdi. Siz Allah, Əli hara, ciddi danışmaq hara?! Hamının ağzı açıla qaldı.

- Mənim elə də gözəl xatirələrlə dolu uşaqlığım olmayıb ki... Nə danışım? - Əli birinci belə dedi.

Birdən-birə o şən üzündə elə bil yas çadırı quruldu. Təsəvvür eləyirsiniz? Mənə elə gəldi ki, onun üzündə yekəqarın bir molla, başında ağ əmmamə oturub fatihə verir. Cavan uşaqlar əlində qab-qacaq ora-bura qaçır, gəlib-gedənə çay verirdilər. Hüzür yeri necə olur, bax, elə.

- Ola bilməz bu boyda illər yaşayasan, yadda qalan heç nə olmaya, - Həsən müəllim dedi, - yalandan da olsa, bir şey danış, növbə sənindi.

Əli gözünü təxminən, bayaq bizə baxan dovşanın dayandığı yerə dikib danışmağa başladı.

- Birinci sinifdə oxuyurdum, o vaxt heç nə anlamırdım. Birdən-birə anam mənə dedi ki, daha babamgildə qalacağıq, bura bizim təzə evimizdi. Qardaşım uşaq idi, mən də ondan bir az böyük. O zamanlar bizim üçün həyat babamın işdən gələndə aldığı saqqız qədər şirin idi, kinder-sürprizdən çıxan oyuncaq qədər maraqlı. Onda dizlərimdə olan yaralara görə ağlayardım, indi yadıma düşəndə ağlamağıma gülməyim gəlir.

O zaman hələ təzə köçmüşdük babamgilə. Atam tez-tez gəlib qardaşımla məni aparar, bir

az gəzdirib gətirərdi. Sonra yavaş-yavaş atamın gəlişləri seyrəldi, axırda biryolluq yoxa çıxdı. Ancaq atam gəlməsə də, biz böyüyürdük. Onun əvəzinə bizə babam "oğlum" deyirdi ki, darıxmayaq. Canımızda o hissin yeri boş qalmasın deyə, babam nələr eləmirdi bizim üçün.

İndi anlayıram ki, mən o vaxt atamdan ötrü yox, oyuncaqdan ötrü darıxırmışam. İndi başa düşürəm ki, uşaq olub böyüməyi arzulamaq, böyükkən uşaq olmağı istəməkdən daha gözəldir. Anam məni döyəndə atam düşürdü yadıma, elə bilirdim ki, uşağı atası döyə bilər ancaq. Anam məni çağıranda səsi qulağıma kişi səsi kimi gəlirdi.

Qonşu uşaqlarda olan oyuncaqların bizdə olmadığını görəndə ürəyim atamı istəyirdi. Hələ o da yadımdadı ki, bir gün bağçadan gələndə vitrində gördüyüm bir oyuncağı almasını istədim anamdan.

Anam bir söz dedi:

- Qoy atan alimenti ödəsin, söz verirəm, alacam.

Mən nə bilirdim aliment nədi. Amma bilirdim ki, hər nədisə, pul deməkdi. Pul da mənim üçün oyuncaq deməkdi. Tez-tez anama deyirdim ki, mənə nə vaxt aliment alacaqsan?

Bu söz məni üşüdür, nədənsə. Alimenti deyirəm. Boynumun dalı qızışır elə bil bu sözü eşidəndə. Atam mənim üçün aliment olmuşdu. Atama aliment deyirdim. Amma nə atam gəlirdi, nə də aliment. Hər bağçadan gələndə yolumuzun üstündə olan banka girib, - indi bilirəm ki, ora bank deyirlər, - anam soruşurdu ki, Günay Əliyevanın hesabına ödəniş olub?

Hər dəfəsində eyni söz:

- Xeyr, Günay xanım, hələ heç bir ödəniş yoxdu.

Hər şeyə aliment kimi baxırdım, evdə qab-qacağı oyuncaq kimi oynadırdım. Elə bil bu sözü yeyirdim, amma doymurdum, aliment sözünü. Ürəyim istəyən oyuncaqların hamısı satılmışdı, istəyirdim satıcıya deyəm ki, o yuxarıdan ikinci kuklanı satma, sabah gəlib alacam, Günay Əliyevanın adına pul köçəndə.

Dostum Akifin atasının aldığı oyuncaq silah artıq dəbdən düşmüşdü; o da köhnəlmiş oyuncaqlarını mənə verirdi, azarımı öldürürdüm. Amma yenə də düşünürdüm ki, aliment gəlsin, çoxlu oyuncaqlar alacam. Hərdən balaca qardaşıma da oyuncaq kimi baxırdım, saçını yolurdum.

Böyüdükcə böyüyürdüm, amma Günay Əliyevanın adına hesab böyümək bilmirdi. Anam naçar qalıb parçadan gəlincik tikirdi bizə, sonra əlinə geyinib o gəlinciyin diliylə danışır, bizi güldürürdü. Allah haqqı, anamın tikdiyi gəlinciyə gülmək qonşu uşaqların oyuncaqlarından da maraqlı gəlirdi mənə. Gülməyə bəhanə axtarırdıq onsuz da.

Əli bunları danışdıqca elə bil ağaclar şirin yuxuya gedir, bir-birinə söykənib Əliyə qulaq asırdı elə bil. Uzaqda bir ərik ağacı vardı, deyəsən, yorulmuşdu ayaq üstə dayanmaqdan, çiynini gavalı ağacına söykəyib o da gözünü Əlinin ağzına dikmişdi. Mənim gözlərim belə şeylərə çox diqqətlidi, nədənsə.

Əli danışırdı:

- Mən birinci sinifdə oxuyanda qardaşımın dörd yaşı vardı. Hələ də Günay Əliyevanın adına aliment gəlməmişdi. Hər dəfə darıxanda anam məni banka aparırdı, guya başım çıxır. Nədənsə, anamdan çox bankda işləyən kişiyə inanırdım.

- Xeyr, xanım, Günay Əliyevanın...

Anamın üzü qocalmışdı bir az, qırışlar əmələ gəlmişdi, mənim istəklərimsə dəyişmişdi, qardaşım da deyirdi:

- Ata da pis, aliment də pis. Mən maşın istəyirəm.

Anam bizə deyirdi ki, gecələr yatmazdan əvvəl əllərini açıb Allaha nə dua etsən, onu da verər. Anam eşitməsin deyə o yatandan sonra hər gecə Allaha dua edirdim. Birinci çoxlu oyuncaqlar istəyirdim, sonra alimenti, sonra da atamı. Yox, atamı istəmirdim. Guya küsmüşdüm. Ay uşaqlıq! Gülməyin mənə!

"Allah baba, sabah oyanaq ki, çoxlu pulumuz olub. Anam mənə həmən vitrində gördüyüm qırmızı maşından da alsın, qonşu Akifin oyuncaq silahından da, Şəfanın rəngli karandaşlarındanda, Raminin üstü maşın şəkilli bahalı çantasından da alsın".

Hətta bir gecə necə ürəkdən istəmişdimsə, yuxumda görmüşdüm ki, atam hardansa uzaqlardan gəlib, bizə aliment də gətirib. Bu yuxuya necə inanmışdımsa, səhər açılan kimi anamın əlindən tutub güclə aparmışdım həmən banka. Yol boyu da içimdə Allaha yalvarmışdım ki, kaş o kişi olmasın yerində, başqa xala olsun və desin:

- Bəli, Günay Əliyevanın adına ödəniş var.

Həmən gün Allahdan da küsmüşdüm. Allah baba yaxşı adam olsaydı, bizə aliment göndərərdi. Nə var ki burda, böyüyəndə qaytaracaqdım onsuz da. Lap böyüyəndən sonra həmişə Günay Əliyevanın adına pul da qoyardım, nə yaxşı olardı, onda qardaşıma deyərik ki, qaqa, aliment gəldi.

Anam dizlərini yerə qoyub məni qucaqlayır, xısın-xısın ağlayırdı hər dəfə, o ağladıqca mən böyüyürdüm. Atamsa bizə bir uşaqlıq aliment borclu. Bizim üçün ata sözü - aliment, aliment sözü - həyata keçməyən uşaq arzuları, uşaqlığım - "Günay Əliyevanın adına ödəniş yoxdu".

Əlinin danışdıqlarından hamını don vurmuşdu. Ağaclar da, otlar da başlarını aşağı dikib dayanmışdı. Qəflətən bir ərik ağacın başından düşüb yerə dəydi, Əlini dinlədiyi yerdə ürəyi getmişdi yoxsa.

- Axşamın küləyi başladı, durun yavaş-yavaş yığışıb gedək, – Həsən müəllim əriyin səsinə ayılıb, əlini Əlinin sağ çiyninə qoydu və dodağının altında mızıldandı: "Atam mənim üçün aliment olmuşdu... Mənimçünsə... saqqız... hər şeydən şirin saqqız..."

## BACIMIN SÖZÜ

Əmim rəhmətə gedəndə biz uşaq idik. Bibimin necə yana-yana ağlamağı hələ də gözüm önündədi. Bibim elə içdən "qardaş!" deyib qışqırırdı ki, adamın ruhu bədənindən qaçmaq istəyirdi - səsdəki əzabdan, ağrıdan.

Bir də dayım... Xəstə yatağında idi. Həkim ömrünün sonuna sayılı günlərin qaldığını demişdi. Bacım məndən üç yaş balacadı. Onda mən 4-də, bacım isə 1-ci sinifdə oxuyurdu. Bir gün dayımın yanında idik. Birdən anam soruşdu:

- Ramil, nə olsa yeyərsən? Bax ürəyinnən nə keçir, de. Mən tapacam sənə.

Dayım düşünmədən dedi:

- Acıqıcı, - bu bitkiyə bəzi yerlərdə Suotu da deyirlər. Əsasən aprel, may ayları bitir və suyun içində olur, - olsa, yeyərəm, - dedi.

Anam bizi də götürüb evə gəldi. Tam yadımda deyil, kimsə dedi ki, bəs zavodların yanında elə bir yer var, borulardan şollar suyu tökülür və həmən bitkini ordan tapmaq olar. Anam həmən qadını da götürüb dediyi yerə getdi. Hansı ki, evdən bazara belə getmirdi heç vaxt. Bizim hər problemimizə atam qaçdığı üçün anamın evdən çıxmasına gərək qalmırdı. Ona görə də çox yeri tanımırdı.

Anam evə gələndə bütün suyun içində idi. Dizlərinə qədər suya girmişdi o bitkini yığmaq üçün.

Bacım anama baxıb dedi:

- Kaş mənim də qardaşım olardı, belə xəstə olardı, məndən də o otu istəyərdi. Mən də belə həvəslə gedib onu yığardım...

Onda bacım 1-ci sinifdə oxuyurdu. Niyə belə dediyini bilmədim. Amma anamın bu addımına elə həyəcanla baxırdıq ki,.. Sonra da heç nə olmamış kimi paltarını dəyişib tez dayımgilə yollandı.

Üç gündən sonra dayım rəhmətə getdi...

Hərdən düşünürəm, yaxşı ki, qardaşım yoxdu...

## BİR CÜT AYAQQABI

Həyat uzun və qaranlıq yol kimidi... getdikcə aydınlaşır, yaşadıqca böyüyür. Gözlərində qəribə bir soyuqluq var idi o qızın. Gözlərindəki soyuqluğa görə mən həmişə o qızdan qorxurdum. O gözlərin sahibi adamı doğrayar, bir kərə də olsun "of" deməzdi. Nə qədər özünü başqa cür göstərməyə çalışsa da, gözlərinin dərinliyinə baxanda bəlli olurdu hər şey. Çatılmış iri qaşlarının arasında dərin kədər yarğanının yeri görünürdü həmişə. Bütün hissləri vəhşicəsinə öldürmüş, öldürməklə də sakitləşməyib, doğrayıb o gözlərin dərinliyində dəfn etmişdilər arzularını sanki. Yalandan da olsa həmişə şux görünməyə çalışırdı. Gülüşlərində qəribə bir qəddarlıq, kin var idi. Nədənsə mən o qızın nə gülüşünə, nə də baxışına isinə bilmirdim heç vaxt. Onu heç vaxt ağlayan da görməmişdim. Ətrafımda bu qədər insan olmasına baxmayaraq, hər zaman o qız məni düşündürür, məchul bir xəyallar aləminə qərq olurdum. Çox zaman özümə onun haqqında bu cür suallar verirdim: "Görəsən, o hansı təsirli məqamda ağlaya bilər?" Gözəlliyi, şən-şux zarafatları ilə hər zaman ətrafı özünə cəlb edə bilirdi. Məktəbdə onu sevməyən, ona məktub göndərməyən oğlan demək olar ki, yox idi. Ona gələn bir neçə məktubu da özüm oxuyub cırmışdım. Gözəlliyi gözlərinin dil açıb demək istədiyini ört-basdır edirdi. Hələ bir dəfə də



ailəsiylə maraqlandım. Bu qızda nəsə var idi. 15-16 yaşlı bir qızın baxışları deyildi bu baxışlar, bu baxışlar sanki illərin acısını yaşamış, həyata nifrətlə baxan, hamıya acı-acı gülümsəyən, ruhu canında qarıyan qoca bir qadının baxışı idi. Bu qız cismən 16 yaşında olsa da, taleyi çoxdan qocalmışdı. Heç davranışları da yaşına uyğun deyildi. Müdirə xanım dəfələrlə onu dərsdən qaçıb ayrı-ayrı oğlanlarla görüşən, söhbət edən yerdə qolundan tutub güclə sinfə gətirmişdi. Ailədə anası, özü və özündən böyük iki qardaşının olduğunu da bilirdim. Anası min bir zəhmətə qatlaşıb gecə-gündüz işləyir, övladları üçün yaşayırdı. Sonra qardaşlarını tanıdım. Biri bizim məktəbin məzunlarından idi; o biri də bu il məzun olacaqdı. Yox, onlar tam normal uşaqlar idi. Axı bu qızda qeyri-adi nə var idi belə? Bir gün növbəti dərslərin birində şagirdlərə evə sərbəst yazı işi verdim. Mövzu "Valideynlərim" idi. Mən bu mövzunu o daş kimi soyuq gözlərin sahibi üçün qoymuşdum, əslində. Dərslərindən zəif olan, məşğələlərə əhəmiyyətsiz yanaşan bu qız bu dəfə dəftərə nəsə yazıb gətirmişdi. Həmin gün bütün varlığımla evə tez getməyə və onun yazısını oxumağa tələsirdim. İçimdəki qəribə bir hiss mənə deyirdi ki, o gözlərin sirri bu yazıdadır. Artıq dərs bitib, mən isə evə tələsirəm. Müdirə xanım yenə məni saxlayıb şikayət edir. "Sevda müəllimə, sizin sinifdəki o qızı, Gözəli deyirəm. Yenə dərs zamanı "11b"-nin oğlanlarından biriylə məktəbin arxasında söhbət edən tutmuşam. Adamda utanmaq deyilən bir şey yoxdu. Dik gözümün içinə baxıb "pis iş görmürəm ki" deyir. Onun aləmində bu yaxşı hərəkətdi. Belə olmaz, vallah. O qız haqqında ciddi tədbir görmək lazımdır. Mən onu məktəbdən uzaqlaşdırmağı düşünürəm. Başqa uşaqlara pis nümunədir. Onun valideynini çağırın, sözümüzü deyək. Belə olmaz daha, onun gələcəyi yoxdu bu gedişlə. "Biz bir az danışdıqdan sonra mən sağollaşıb evə gedəsi oldum. Dayanacağa çatmışdım ki, Gözəlin sərbəst mövzuda işlədiyi yazı yadıma düşdü. Sinifdə unutmuşdum hər şeyi. Əslində, bizim dərsimiz gələn həftə idi. Amma mən onu bu gün oxumaq istəyirdim, yenidən gəldiyim yolu qayıdıb, məktəbdən o yazıları götürüb döndüm evə. Evə çatar-çatmaz Gözəlin yazısını tapıb oxumağa başladım. Deməli, yazı belə başlayır: "Valideynlərim! - Mən bu günə kimi "valideynim" sözünə alışmışam. Heç vaxt bu sözün sonunda "lər" şəkilçisi artırmamışam. Çünki mənim bir tək anam var. O da nə üçün var, onu heç özüm də bilmirəm. Deyirlər, ana dostdu, qızın rəfiqəsidir, sirdaşıdır. Həyatla bağlı deyilənlər kimi, bu da yalandı. Bizdə anam sadəcə səhər işə çıxıb, axşam evin çatmayanlarını alıb evə qayıdan, evi yığışdırıb, sonra yatıb sabah yenidən eyni iş görən və bizlə bir evdə yaşayan adi biridir mənim üçün. Hə, bir də iki qardaşım var. Biri böyük, o biri ondan bir yaş kiçik. Onların da evdəki funksiyası qışqırıb bağırmaqdan, qızlarla danışmaqdan, hərdən də məni döyməkdən ibarətdir. Bir də anama "filan şeyi niyə almamısan" deməkdən. Bu qədər. Hə, bir də az qalmışdı unudam. Atam da olub, deyirlər. Amma indi yoxdu.!" Bu qızın bu qədər eqoist və etinasız yazısı məni həddindən artıq özümdən çıxartmışdı. Adam öz doğma anasına bu qədərmi soyuq olar, yəni? Ata haqqında bu qədərmi düşüncəyə sahib olar, yəni? Durub onların evinə getmək, o qızın üzünə baxıb var gücümlə bir sillə vurmaq istəyirdim. "Ya səbir!"- deyib yatdım. Sabah sinfə gedəndə onunla üz-üzə gəldim. Hər zamankı kimi danışıb gülməyindən qalmırdı yenə. Bu qədər tərbiyəsiz olmaqmı olar?
- Gözəl, bir dəqiqə olar səni? - Eşidirəm, müəllimə!
- Yazını oxudum. - İkinizi də yazdınızmı sonunda?
- deyib gülürdü. - Mən səninlə ciddi danışıram.

Müdirə xanım səni məktəbdən uzaqlaşdırmaq istəyir. Yəqin ki, elədiklərinin yanlış olduğunu özün də bilirsən. Başqa uşaqlara pis nümunəsən. - Mən ondan üzr istədim. Bir də təkrarlanmayacaq dedim. Mən məktəbdən çıxıb o evdə oturmaq istəmirəm. - Bax, Gözəl, yazında da səsinin tonundakı soyuqluq hiss olunurdu. Adam anasına bu qədər laqeyd yanaşa, ucuz qiymət verə bilməz! Dünəndən özümə gələ bilməmişəm. Səni kim bu qədər incidib, bilmirəm, amma sən düz etmirsən, qızım. Mən bu yazını sənə geri qaytarıram. Al bunu, yenidən yaz! Yazına sevgi qat bir az. Məktəblərarası yazı müsabiqəsi var. Sən bu yazını düzəlt, müsabiqəyə verək. Yer tutsan, müdirə xanım da fikrindən daşınacaq, yəqin ki. Mən inanıram ki, sən bunu bacaracaqsan. - Məncə, boşuna inanırsınız mənə, müəllimə. - Məncə yox. Sən müsabiqə xatirinə yazma. Valideyn nə deməkdir sənin üçün. Bu söz sənin üçün nəyi ifadə edir, onu yaz gətir. Əgər dediklərimi etsən, qəlbdən gələn kimi yaza bilsən, inanıram müsabiqədə uğur qazanacaqsan. - Yaxşı, yazaram, müəllimə. Bu gün ilk dəfə idi ki, dərs zamanı fikirli görmüşdüm Gözəli. ...Sabahı mənə yazını Gözəlin rəfiqəsi gətirdi. Gözəl dərsə gəlməyib - dedi. Evə çatar-çatmaz yazını oxuyuram: "Valideynlərim! - Mən bu günə kimi "valideynim" sözünə alışmışam. Heç vaxt bu sözün sonunda "lər" şəkilçisi artırmamışam. Çünki mənim bir tək anam var. O da nə üçün var onu heç özüm də bilmirəm. Deyirlər, ana dostdu, qızın rəfiqəsidir, sirdaşıdır. Həyatla bağlı deyilənlər kimi, bu da yalandı. Bizdə anam sadəcə səhər işə çıxıb, axşam evin çatmayanlarını alıb evə qayıdan, evi yığışdırıb, sonra yatıb sabah yenidən eyni iş görən və bizlə bir evdə yaşayan adi biridir mənim üçün. Hə, bir də iki qardaşım var. Biri böyük, o biri ondan bir yaş kiçik. Onların da evdəki funksiyası qışqırıb bağırmaqdan, qızlarla danışmaqdan, hərdən də məni döyməkdən ibarətdir. Bir də anama "filan şeyi niyə almamısan" deməkdən. Bu qədər. Hə, bir də az qalmışdı unudam. Atam da olub, deyirlər. Amma indi yoxdu! Atam rəhmətə gedəndə mən uşaq idim. Üç yaşım olardı. Atamdan xatırladığım bir cüt ayaqqabıdır, vəssalam. Biz anamla metrodan çıxıb şəhərə xalamgilə gedirdik. Qarşıda yolun qırağında çoxlu adamlar yığışmışdılar. Uzaqdan da olsa ortada da, kiminsə uzandığını gördüm, ağ mələfə ilə üstünü örtmüşdülər. Polislər yaxına heç kimi qoymurdu, biz də anamla bir az qabağa gedib, üstü örtülmüş adama dayanıb baxdıq, anam dedi ki kimsə ölüb. Gəl gedək. Uzanan adamın yanında atamın ayaqqabıları var idi. Mən anama dedim ki, ana, bax, atamın ayaqqabılarına! Polis əmi eşitdi mənim anama dediklərimi. Hamı dönüb bizə baxdı. Sonra polis anama dedi ki, gəl yaxına, bəlkə tanıdınız? Anam məni də götürüb, ordan uzaqlaşdı. Daha bir də atamın ayaqqabılarına baxa bilmədim. Sonra biz nənəmgilə getdik. Anam əmimə nə isə dedi, onlar hamsı yığılıb harasa getdilər. Mən də nənəmə dedim ki, atam ayaqqablarını soyunub metronun yanına qoyub. Sonra nənəm boğuq bir səslə qışqırıb, ağlamağa başladı. Ondan sonra nənəm hər gün ağı deyib ağlıyırdı. Həmişə düşünürdüm ki, yəqin, nənəm atama əsəbiləşdiyindən qışqırır ki, niyə ayaqqabısın soyunub yolun ortasında qoyub. Hərdən anam da mənə qışqırır buna görə. Deyir, ayaqqabını soyunub qoyma heç yerdə. Mən o vaxt elə bilirdim ki, atam nənəmin qorxusundan evə gəlmir. Nənəm hər gün necə qışqırırdısa... Atam qorxurdu gəlməyə. Ayaqqabısını da anam götürmədi heç. O gündən sonra atam evə gəlmədi. Küsdü bizdən atam. Bir müddət nənəmgildə qaldıq. Hər gün nənəmgilə çoxlu adamlar gəlirdi, adamlar gələn kimi mən tez çölə çıxıb ayaqqabılara baxırdım. Birdən atamın o bir cüt qara ayaqqabısı onların arasında olar. Gələnlər hamısı məni qucaqlayıb öpür, sonra da ağlayırdılar. Anamdan acığım gəlirdi. Atam onun üzündən gələ bilmirdi evə. Anam atamın o bir cüt ayaqqabısını metronun yanında görəndə götürsəydi, nənəm də bu qədər hirslənməzdi atama. Anam məni atasız qoymuşdu, küsmüşdüm anamdan. Bir dəfə qardaşıma dedim ki, gəl gedək metronun yanına. Atamın ayaqqabıların ordan götürüb gələk. Qaqa, sən bilmirsən e, atam ona görə gəlmir evə. Ayaqqabısın gətirsək gələr. Qaqam da dedi ki, atamız yoxdu ta! Rəhmətə gedib. Həmin gün ancaq fikirləşirdim ki, atam ayaqyalın necə gedib rəhmətə? Birdən rəhmətdə ayağına şüşə batar e atamın. Amma onun ayağına şüşə batsa da, o ağlamaz bilirəm ki! Çünki o gülməyi, şənlənməyi öyrədirdi həmişə bizə. O gündən sonra ancaq atamı gözləyirəm. Bir dəfə əmimə dedim:

- Əmi, rəhmət çox uzaqdı? - Nə rəhmət, qızım? - Qaqam deyir ki, atam rəhmətə gedib.

Bəs nə vaxt gələcəy e? - O gəlməyəcək, biz nə vaxtsa onun yanına gedəcəyik, həm də hamımız.
- Mən tez getmək istəyirəm, əmi. Atamın ayaqqabılarını tapan kimi sənə deyəcəm, məni apararsan rəhmətə. Atam ayaqyalındı axı orda. Əmim məni qucaqlayıb kövrəldi. Bir gün də nənəm və əmim bizi yığıb öz evimizə gətirirdilər. Yolda maşını saxladı əmim. Mən tez qışqırdım ki, bax, atamın ayaqqabıları burda idi. Düz burda. Nənəm həmən yerdə oturub xısın-xısın ağladı, sonra öpdü o yeri. Kimsə götürmüşdü, yox idi ayaqqabılar. Gül düzdük ora... Uşaqlığım belə keçib mənim. O bir cüt ayaqqabını axtara-axtara. O ayaqqabını tapan kimi atama aparacağam, geyinib evimizə gəlsin. Sonralar anladım ki, o rəhmət deyilən yerə gedənlər bir də geri qayıtmırlar, anladım ki, nənəm ayaqqabının itməyinə yox, oğlunu itirdiyi üçün elə yana-yana ağlayırmış. Anladım ki, anam atamı heç istəmirmiş. Yoxsa onu o halda orda tək buraxmazdı. Anladım ki, həyat heç kimin göz yaşına dəyməyəcək qədər əclaf imiş. Atamdan xatırladığım bir cüt qara ayaqqabı, üzündəki təbəssüm, bir də qollarındakı rahatlıqdı, vəssalam. O rahatlıq məni bütün qollara dartdı, heç kimin qolunda tapa bilmirəm o rahatlığı. Sevdiyim bütün oğlanlardan da məni bir dəfə qucaqlamalarından sonra ayrılıram. Ən böyük arzum bir gün öz gücümlə, öz pulumla o bir cüt ayaqqabını alıb, elə həmin gün də rəhmətə - atamın yanına getməkdi!"

Mən bu yazını göz yaşları içində oxudum. Yazının hərf səhvlərini düzəldib həmən müsabiqəyə göndərdim. Səhəri sinfə gələndə Gözələ heç nəyi bildirməməyə çalışdım. Artıq bir neçə gün keçmişdi. Müsabiqənin qalibləri bəlli olmuşdu. Müdirə xanım məni yanına çağırıb dedi: "Heç gözləmədiyim bir şey baş verib. Maarifdən məni çağırıb, bizim məktəbdən Gözəl Yusifzadə adlı bir şagirdin yazısının 1-ci yerə çıxdığını bildirdilər. Həm mənə, həm də Gözəl Yusifzadəyə təşəkkürnamə yazdılar. Gözəlin qazandığı hədiyyə ilə yanaşı, bir də konvertdə həvəsləndirici pul mükafatı da veriblər". Bu həqiqətən də məni çox sevindirmişdi. Tez Gözəli çağırdım, sinif yoldaşları ilə birlikdə onu təbrik etdik. Qız inanmırdı. Mənə yaxınlaşıb soruşdu:

- Bəs bu pul nədi?

- Bu sənin öz əməyinin bəhrəsidi, qızım. İlk halal qazancındı. Təbrik edirəm səni!

- Çox sağ olun, müəllimə.

Sinifdə hamı Gözəli təbrik edirdi. Gözəl isə həmişəki kimi soyuq gülüşləri ilə sinfi ələ almışdı.

Səhəri dərsə gələndə tam fərqli bir mənzərə ilə qarşılaşdım. Dünənki haylı-küylü sinif bu gün yas içində idi. Nə olduğunu soruşdum, heç kim dinmir, hamı ağlayırdı. Gözlərim Gözəli axtardı, görüm bu ağlaya bilməyən qız da ağlayırmı? Nə olub axı? Kim deməsə də, o deyəcəkdi həqiqəti. Amma gözümə dəymədi.

- Uşaqlar, nə olub axı? Biriniz bir cavab verməyəcəksiniz?

- Müəllimə, dünən axşam Gözəl intihar edib.
- Nəə? Necə yənii?!

- Biz də bilmirik. Dünən metronun çıxışında qucağında bir cüt ayaqqabı olan qız meyidi aşkar ediblər. Bizim Gözəl olub o. Dərman içib, elə orda da rəhmətə gedib...

